

# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 91 (8407) ŞƏNBƏ, 9 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Tarixin ən qüdrətli Azərbaycanı Heydər Əliyev ideyalarının təntənəsidir



Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV:

## "Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin, milli inkişafının və təhlükəsizliyinin etibarlı təminatçısıdır"

***Ulu Öndər Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərliyə gəlir və hər iki dövr ölkəmizin ən böhranlı, faciəli, təlatümlü illərinə təsadüf edir. Və hər iki dövrdə də məhz Ümummilli Lider ölkəmizdə xaosdan qurtuluşa, səfalətdən rifaha, məşəqqətdən inkişafa keçidin əsasını qoyur.***

Yəni Heydər Əliyev hər dəfə böhran içində olan hakimiyyətə, tənəzzülə uğrayan dövlətə, sabaha ümidlərini itirən xalqa rəhbərliyə gəlir. Nəticələr isə hər birimizə məlumdur. Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərindən etibarən müəyyənləşdirdiyi inkişaf yolu Azərbaycanı hər cür təlatümlərdən, çətinliklərdən qoruyub, bu gün də qoruyur. Həm də respublikamızın milli təhlükəsizliyi üçün möhkəm sipərə çevrilib. Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsi məhz həmin illərdə formalaşdırılmış təmələ əsaslanır.

Möhtərəm Prezidentimiz İlham Əliyev artıq bir ölkənin, bölgənin lideri statusunu dəfələrlə üstələyən, qlobal miqyasda söz və nüfuz sahibi olan, dünyaya yeni baxış, ədalətli meyarlar təqdim edən şəxsiyyət kimi tanınır. Bu gün cənab Prezidentin timsalında Azərbaycan Respublikası dünyanın enerji xəritəsinin və yeni nəqliyyat-logistik meyarlarının müəyyənləşməsində mühüm rol oynayan, beynəlxalq təhlükəsizliyin təminində əsaslı töhfələr verən, sivilizasiyalararası əməkdaşlığı uğurla həyata keçirən qüdrətli ölkədir.

Tam müstəqil siyasət yürüdən Prezident İlham Əliyevin qlobal liderliyi həm də Azərbaycanın davamlı artan beynəlxalq nüfuzunu şərtləndirir. Son 17 il ərzində o qədər böyük nailiyyətlərə, genişmiqyaslı inkişaf dinamikasına nail olmuşuq ki, sözün düzü, onların hamısını qeyd etmək çox vaxt aparar. Bütün bu tarixi uğurları mən bir ifadədə birləşdirmək istərdim. Bu, tarixin ən qüdrətli Azərbaycanıdır. Tarix boyu həsrətində olduğumuz ən möhtəşəm, güclü, rifahlı Azərbaycan məhz müasir dövrün reallığıdır, ən əsası isə Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin təntənəsidir.

*Bax: səh. 2*



## Heydər Əliyev mövqeyi

**Bütün böyük və müdrik dühalar kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də yaşadığı dövrün real mahiyyətini dərindən görmüş, özünün aydın siyasi mövqeyi, möhkəm iradəsi və uzaqgörənliyi ilə zamanı irəli aparmaq qüdrətinə malik olmuşdur.**

Bu görkəmli dövlət xadimi heç vaxt zamanın arxası ilə getməmiş, əksinə, zamanı öz arxasınca aparmağı bacarmışdır. Heydər Əliyevin fəth etdiyi zaman tarixə çevrilmiş və həm də növbəti sabahlara yol açmışdır. Bu mənada Ulu Öndər Heydər Əliyev epoxası sadəcə Azərbaycan xalqının və dövlətinin yalnız fərqli tarixi deyil, həm də daha işıqlı sabahı deməkdir.

*Ardı 4-cü səh.*

## İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edən islahatlar

**Müasir Azərbaycan dövlətinin keçdiyi inkişaf yolunun bir çox parlaq səhifələri, görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.**



Respublikamıza həm birinci, həm ikinci rəhbərliyi dövründə Heydər Əliyevin öz dövləti və xalqı qarşısında xidmətləri ölçüyəgəlməzdir. Hələ sovet hakimiyyəti illərində Azərbaycanın tərəqqisinə, xalqın həyat səviyyəsinin yaxşılaşdırılmasına və cəmiyyətin firavanlığına nail olan Heydər Əliyev ikinci rəhbərliyi dövründə respublikamızın müstəqilliyini təmin etmiş, müasir Azərbaycan dövlətinin banisinə çevrilmiş və bugünkü inkişafın təməlini qoymuşdur.

Tarix sübut edir ki, dövlətin inkişaf və rifah yolu hüquqi nizamlamadan keçir. Təsadüfi deyil ki, insan təfəkkürünə söykənən hər bir fəaliyyətin hüquqi çərçivəyə salınması daim obyektiv zərurət kimi özünü göstərmişdir. Dünyada ilk qanunların qəbulundan başlayaraq, hüquqi nizamlama məhz həyatın bütün sferalarında münasibətlərin sivil xarakter almasında və cəmiyyətin inkişafında özünəməxsus rol oynamışdır.

Eyni zamanda cəmiyyət və dövlətlərin, vətəndaş-dövlət əlaqələrinin inkişafı, siyasi-iqtisadi formasiya dəyişiklikləri, insan hüquq və azadlıqlarına yeni yanaşmalar mütəmadi olaraq hüquqi tənzimlənməyə ehtiyac duymuşdur. Bu baxımdan 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşıda duran əsas vəzifələrdən biri də ölkənin keçmiş sovetlər birliyindən miras qalmış hüquq sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması idi. Bu məsələ 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda öz əksini tapmışdı.

*Ardı 3-cü səh.*

## Vətənə həsr edilən ömür

**Tarix heç zaman xalqlara asan nailiyyətlər, hamar yollar qismət etmir. Hər bir xalq öz dövlətini qurmaqdan, sərhədlərini möhkəmləndirməkdən, milli ideallarını gerçəkləşdirməkdən ötrü çətinliklərdən keçir, qurbanlar verir, məhrumiyyətlər yaşayır.**

Ona görə də, demək olar ki, bütün xalqların tarixində yolayrıcları, çıxılmaz məqamlar, ağır sınaqlar dövrü olur. Onları bu sınaqlardan çıxaranlar, uğurlarına vəsilə olanlar isə məhz tarixi yaradan böyük şəxsiyyətlərdir. Bu gün dünyada elə bir ölkə, dövlət, xalq yoxdur ki, onun nicatında boynuna xilaskarlıq missiyası götürmüş və həmin missiyanı sona çatdırmış tarixi şəxsiyyət amili olmasın. Həmin şəxsiyyət həm də mənsub olduğu millətin azadlıq arzularını, dözümünü, əzmini, qətiyyətini, ləyaqətini bütün dünyaya nümayiş etdirmək missiyası daşıyır.

*Ardı 7-ci səh.*

## Xilaskarlıq və quruculuq məramı



Tərəqqi yolunda olan hər bir xalq müasir dünya reallıqlarına əsasən inkişaf perspektivlərini müəyyənləşdirmək üçün, ilk növbədə, konkret zaman və məkan daxilində keçdiyi yolun uğurlu nəticələrindən bəhrələnir. Belə dəyərləndirmə fonunda həm də uzaq hədəflərə hesablanmış əməli siyasət yeridən, milli inkişaf üçün dayanıqlı əsasların müəllifinə çevrilən böyük liderlərin misilsiz xidmətləri qabarıq görünür.

*Ardı 9-cu səh.*



## Dünyanın ən böyük azərbaycanlısı

**"Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Müstəqil Azərbaycanın xilaskarı, yaradıcısı, Ulu Öndər Heydər Əliyevin hər bir azərbaycanlının həyat amalına çevrilən, bütün dövrlər üçün aktuallığını qoruyan bu tezisi onun ömrünün mənasını təşkil etmişdir.**

Dahi şəxsiyyətin hakimiyyətinin hər iki dövrünə nəzər saldıqda yalnız və yalnız dövlətinə, xalqına bağlılığını, sevgisini görmək mümkündür. Ümummilli Liderin Azərbaycana ilk rəhbərlik etdiyi dövr ölkə tarixinə siyasi, iqtisadi, mədəni yüksəliş və intibah dövrü kimi daxil olmaqla, xalqın milli mənlik şüurunun oyanışına, özünüdərkin güclənməsinə böyük stimul vermişdir. 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçilən Ulu Öndər Heydər Əliyev özünün yüksək idarəçilik keyfiyyətləri sayəsində o dövrdə hökm sürən sovet ideologiyasının bütün sədlərini aşmaqla mövcud total qadağalara baxmayaraq, Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkərək, insanları bütün sahələrdə böyük yüksəlişlərə ruhlandırmışdır.

*Ardı 5-ci səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Tarixin ən qüdrətli Azərbaycanı Heydər Əliyev ideyalarının təntənəsidir

## Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV:

## "Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin, milli inkişafının və təhlükəsizliyinin etibarlı təminatçısıdır"

*97-ci ildönümünü qeyd etdiyimiz Heydər Əliyev mənalı ömür yolu, vətənpərvər siyasi fəaliyyəti, yüksək dövlətçilik və idarəetmə səriştəsi ilə Ümummilli Liderlik zirvəsini fəth etmiş dünyanın ən böyük azərbaycanlısıdır. Ulu Öndər bütün dövrlərdə, ən çətin anlarda xalqının önündə getdi, müstəqil dövlət qurdu, milli inkişafı təmin etdi, yüksək sosial rifaha nail oldu. Əbədiyaşar şəxsiyyət həm də Azərbaycanın müstəqilliyinin əbədiliyini, dönməzliyini formalaşdıran fədakar missiyaya müəlliflik etdi.*

*Bu əlamətdar gün ərəfəsində həmsöhbət olduğumuz* **Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil USUBOV** *qazanılan tarixi nailiyyətləri Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin isə uğurla davam etdirdiyi strateji kursla əlaqələndirir. General-polkovnikin fikrincə, Azərbaycanın yarıməsrlik tarixinin şərəf, inkişaf və müstəqillik salnaməsi olan Heydər Əliyev kursu və ideyaları dövlətimizin, xalqımızın müqəddəratını, rifahını, təhlükəsizliyini və sabitliyini əbədi təmin edəcək.*



**- Ramil müəllim, Heydər Əliyevin adı ilə bağlı olan və tariximizin uğur, yüksəliş, dövlət quruculuğu mərhələsini təşkil edən son yarıməsrlik dövrün birbaşa fəal iştirakçılarındansınız. Sizin 1969-cu ildən başlanan tarixi yola münasibətinizi bilmək oxucular üçün maraqlı olardı…**

- Qeyd etdiyiniz dövr Azərbaycan tarixinin elə əlahiddə yüksəliş, möhtəşəm quruculuq, dövlətçilik ənənələrinin möhkəmləndiyi mərhələsidir ki, bu illərdə baş vermiş hadisələri, mühüm tarixi prosesləri şübhəsiz, bir müsahibədə dəyərləndirmək, ətraflı fikir söyləmək mümkün deyil. Təsəvvürünüzə gətirin, Ulu Öndər Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərliyə gəlir və hər iki dövr ölkəmizin ən böhranlı, faciəli, təlatümlü illərinə təsadüf edir. Və hər iki dövrdə də məhz Ümummilli Lider ölkəmizdə xaosdan qurtuluşa, səfalətdən rifaha, məşəqqətdən inkişafa keçidin əsasını qoyur.

Yəni Heydər Əliyev hər dəfə böhran içində olan hakimiyyətə, tənəzzülə uğrayan dövlətə, sabaha ümidlərini itirən xalqa rəhbərliyə gəlir. Nəticələr isə hər birimizə məlumdur. Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərindən etibarən müəyyənləşdirdiyi inkişaf yolu Azərbaycanı hər cür təlatümlərdən, çətinliklərdən qoruyub, bu gün də qoruyur. Həm də respublikamızın milli təhlükəsizliyi üçün möhkəm sipərə çevrilib. Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləməsi məhz həmin illərdə formalaşdırılmış təmələ əsaslanır.

Ulu Öndər respublika rəhbərliyinə gələndə cəmiyyət sönük vəziyyətdə, iqtisadiyyat durğunluq içərisində idi. Bu gəliş nainki Azərbaycanın, hətta Sovet İttifaqının siyasi həyatına təkan verdi, yeni ruh, ab-hava, canlanma, kommunist ehkamlarına xas olmayan yeni iş üslubu, təşəbbüskarlıq, milli cəsarət gətirdi. Belə bir mürəkkəb dövrdə ölkə rəhbərliyinə gələn Heydər Əliyev ilk gündən düzgün strateji fəaliyyət proqramı müəyyənləşdirdi və respublikanın böhran vəziyyətində olan bütün sahələrində ciddi dönüş yaratmaq məqsədilə taleyüklü tədbirlər həyata keçirməyə başladı. Çox qısa müddət ərzində nəzərəçarpan irəliləyişlərə nail olundu, insanlar sosial güzəranlarında yüksəliş, hüquqlarının müdafiəsində isə dövlət dəstəyini aydın hiss etdilər.

Respublikanın iqtisadi tənəzzüldən çıxması, keçmiş SSRİ-nin qabaqcıl respublikaları sırasında yer alması müdrik rəhbərin qətiyyətli addımları sayəsində mümkün oldu. İqtisadi təhlükəsizliyin və milli müstəqilliyin təmini istiqamətində onun mühüm addımlarından biri də keçmiş SSRİ-nin strateji əhəmiyyətli sənaye müəssisələrinin ölkəmizdə inşasına nail olunması idi. Nəticədə Azərbaycan qısa müddətdə geridə qalmış aqrar respublikadan güclü potensiala malik sənaye ölkəsinə keçidi uğurla həyata keçirdi. Ölkəmizin iqtisadi müstəqilliyinin nüvəsini təşkil edən neft sənayesinin sürətli inkişafı da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. İnsanların məşğulluğunda mühüm rola malik aqrar sektora da diqqət artırıldı. Tətbiq olunan yeniliklər sayəsində kənd təsərrüfatında məhsuldarlıq qısa müddətdə 3-5 dəfəyədək artdı.

Böyük siyasət dahisi dövlət idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, iqtisadiyyatın tərəqqisi, mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının yenilənməsi və ən başlıcası, milli mənlik şüurunun formalaşması üçün misilsiz işlər gördü. O, cəmiyyəti mənəvi cəhətdən aşındıran korrupsiyaya, rüşvətxorluğa, ümumən cinayətkarlığa qarşı barışmaz, qətiyyətli mövqe tutdu. Maraqlı həm də bu idi ki, Heydər Əliyev yalnız azərbaycanlıları deyil, rusları, erməniləri belə Azərbaycanda formalaşdırdığı milli mühitə uyğunlaşdırmağa nail olurdu.

**- Həmin dövrdə, yəni beynəlmiləlçiliyin əsas amil olduğu illərdə milli məsələ, o cümlədən Dağlıq Qarabağ ətrafında vəziyyət necə idi?**

- Ulu Öndər milli məsələlərə də son dərəcə həssas idi. O, tarixi gerçəklikləri düzgün dəyərləndirən rəhbər kimi ermənilərin respublikamıza qarşı ərazi iddiasında olduqlarını çox yaxşı bilirdi. Haşiyə olaraq vurğulayım ki, həmin dövrdə vilayətdə yaşayan vətəndaş kimi 60-cı illərdəki acınacaqlı vəziyyəti dəqiq xatırlayıram. Yerevandan idarə olunan şovinist qüvvələr millətlərarası münasibətləri kəskinləşdirirdilər və bölgədə yaşayan azərbaycanlıların hüquqlarının pozulması günü-gündən daha geniş miqyas alırdı.

Yaxşı yadımdadır, 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gələnə qədər Xankəndində küçədə ana dilimizdə danışmaq imkanından belə məhrum idik. Azərbaycanlılara qarşı haqsızlıqlar, açıq-aşkar hücumlar getdikcə daha da güclənir, ciddi fəsadlar törədirdi. Yerevandan fəal şəkildə idarə olunan məkrli qüvvələr Dağlıq Qarabağda torpaq iddiaları ilə millətlərarası münasibətləri kəskinləşdirir, ozamankı ölkə rəhbərliyinin seyrçi münasibəti, passiv mövqeyi, separatizm meyillərinə çevik müdaxilə etməməsi daşnak ünsürlərinin əl-qol açmasına, azərbaycanlı əhalinin hüquqlarının daha kobud şəkildə pozulmasına rəvac verirdi. Özbaşınalıq, cəzasızlıq şəraiti o həddə gəlib çatmışdı ki, həyatları daim təhlükədə qalan soydaşlarımız öz ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalırdılar. Bu siyasət də Dağlıq Qarabağ ərazisi muxtar vilayət statusu qazanandan sonra azərbaycanlıların sayının yarıbayarı azalmasına səbəb olmuşdu.

Yalnız Heydər Əliyevin qətiyyətli mövqeyi və məqsədyönlü siyasəti sayəsində Dağlıq Qarabağda əl-qol açmış erməni şovinizminə, separatçılığına qarşı sipər çəkildi. Moskvadakı imperiyapərəst qüvvələrin təzyiqlərinə baxmayaraq, muxtar vilayət bu ünsürlərdən təmizləndi. Bölgənin dövlət qurumlarında, hüquq mühafizə və təhlükəsizlik orqanlarında azərbaycanlıların təmsilçiliyi xeyli artdı.

Eyni zamanda partiya-sovet orqanlarına, hüquq mühafizə strukturlarına Heydər Əliyev tərəfindən məhz xalqlararası sağlam, mehriban əlaqələrin inkişaf etdirilməsinə çalışan, hər cür şovinizm meyillərinə qarşı çıxan erməni millətinə mənsub rəhbər şəxslər gətirildi. Vilayət partiya komitəsinin birinci katibi Boris Gevorkov və onunla birgə digər rəhbər şəxslər Ulu Öndərdən aldıqları təlimatlar, göstərişlər əsasında vilayətdə xalqlararası sağlam əlaqələri, birgəyaşayış münasibətlərini təmin etdilər. Ən əsası isə rəsmi Bakıya birmənalı tabeçilik inzibati mexanizmi bərpa olundu. Bəli, Heydər Əliyevin dövlət idarəçiliyində bir misilsiz böyüklüyü də o idi ki, ədalətli, düzgün mövqe tutan, Azərbaycanı sevən erməni məmurlar vasitəsilə erməni separatçılıq tendensiyalarını zərərsizləşdirdi, əl-qol açmasına imkan vermədi.

Ötən əsrin 70-ci illərində Dağlıq Qarabağ Muxtar Vilayətində separatçı əhval-ruhiyyə aradan qalxmışdı. Artıq sadə ermənilər də bədnam millətçi meyillərə qarşı açıq etirazlarını bildirir, Azərbaycanın tərkibində təhlükəsiz, rifahlı və xoşbəxt yaşadıqlarını bəyan edirdilər. Ulu Öndərin qətiyyətli, uzaqgörən tədbirləri nəticəsində Dağlıq Qarabağ tam olaraq respublikanın mərkəzi hakimiyyətinin təsir dairəsinə döndü. Bir sözlə, Heydər Əliyev 70-ci illərdə itirilməkdə olan Dağlıq Qarabağı Azərbaycana qaytardı.

Ümummilli Liderin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrün Dağlıq Qarabağla bağlı ən xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu müddətdə erməni millətçiləri torpaq iddialarını heç vaxt açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər. Yadımdadır, Vilayət Daxili İşlər İdarəsinin rəis müavini işlədiyim dövrdə -1982-ci ildə Sov.İKP MK-nın Baş katibi Leonid Brejnev vəfat etdi. Görsəydiniz, erməni millətçilər necə sevinir, şadlanırdılar. Bunun səbəbi ilə maraqlandım. Demə, şovinist ermənilər elə güman edirmişlər ki, Brejnevin ölümü ilə Heydər Əliyevin sonu gələcək və bundan sonra separatçılar yenidən əl-qol açaraq rahatca öz məkrli niyyətlərinə nail olacaqlar. Xoşbəxtlikdən bu sevinc uzun sürmədi. Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri oldu, ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Bununla da erməni millətçilərinin planı yenə iflasa uğradı.

**- Ramil müəllim, bu da acı faktdır ki, Ermənistanın ölkəmizə təcavüzü, Dağlıq Qarabağda və onun ətrafında cərəyan edən neqativ hadisələr məhz Ulu Öndərin Moskvada tutduğu yüksək dövlət vəzifələrindən uzaqlaşdırılmasından sonra baş verdi…**

- Bu fakt həm də Heydər Əliyev şəxsiyyətinin əzəmətini, onun Azərbaycanın maraqlarına, Qarabağın mənafeyinə nə dərəcədə bağlı olduğunu aydın göstərir. Həmin illərdə Azərbaycana qarşı ərazi iddialarını açıq şəkildə səsləndirməyə çəkinən erməni separatçıları və onları dəstəkləyən keçmiş SSRİ rəhbərliyi Heydər Əliyevi tutduğu vəzifədən uzaqlaşdırmaq üçün olmazın məkrli addımlara əl atdılar.

Sovet İttifaqının və Ermənistanın ozamankı rəhbərləri anlayırdılar ki, Dağlıq Qarabağda vəzifədə olan ermənilərin mütləq əksəriyyəti Heydər Əliyev siyasətinə sadiqdir və heç vəchlə milli zəmində münaqişəyə rəvac verməyəcəklər. Ona görə də bu vəzifəli ermənilərə qarşı süni etiraz kampaniyaları təşkil edilir, onlar "Azərbaycanın və Heydər Əliyevin agentləri", "erməni xalqının düşmənləri" adlandırılaraq təqib olunurdular. Nəticədə onların hamısı vəzifələrindən kənarlaşdırıldı. Dağlıq Qarabağın yeni rəhbərləri öz havadarlarının köməyi ilə Azərbaycandakı yeni hakimiyyətin səbatsızlığından, qorxaqlığından, milli maraqlara etinasızlıqlarından istifadə edərək vaxtilə Heydər Əliyevin böyük fədakarlıqlar hesabına yaratdığı sabitliyi, sağlam ab-havanı qısa müddətdə darmadağın etdilər və artıq 32 ildir davam edən qanlı münaqişənin əsasını qoydular.

**- Həmin illəri tariximizin Heydər Əliyevsiz dövrü kimi də qeyd edə bilərik. Bu mərhələni necə dəyərləndirərdiniz?**

- Cəmi 5-6 il Azərbaycan Heydər Əliyevin himayəsindən, nəzarətindən kənar qaldı. Amma görün nələr baş verdi. Ümumilikdə Ulu Öndərin Azərbaycanda bilavasitə rəhbərlikdə olmadığı 1987-1993-cü illər yaxın keçmişimizdə sosial təlatüm, iqtisadi tənəzzül və mənəvi böhran mərhələsi kimi iz qoyub. Təəssüflə vurğulayıram ki, Azərbaycan xalqının ötən əsrdə yaşadığı böyük faciə və məşəqqətlərin, sarsıntıların böyük qismi də məhz bu illərə təsadüf edir.

Yalnız onu demək kifayətdir ki, məhz Heydər Əliyevin istefasından cəmi 3 həftə sonra Dağlıq Qarabağ münaqişəsi sürətlə alovlanmağa başladı. Əgər ən yeni tariximizdə Heydər Əliyevsiz mərhələ olmasaydı, 1987-1993-cü illərdə ölkəmiz Ulu Öndərin rəhbərliyi ilə idarə edilsəydi, vəziyyət tamam fərqli olacaqdı. Biz xalq olaraq Dağlıq Qarabağ münaqişəsi zamanı böyük itkilərə məruz qalmayacaq, 20 Yanvar faciəsi ilə üzləşməyəcək, ərazilərimizin 20 faizini itirməyəcək, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətində yaşamayacaqdı.

Azərbaycan məhz Heydər Əliyevin müəyyənləşdirdiyi kursla, bünövrəsini 70-80-ci illərdə formalaşdırdığı etibarlı və münbit zəminlə düzgün məcrada inkişaf edəcəkdi. Heydər Əliyevsiz illər yalnız boşa verilmiş zaman deyil, həm də milli müqəddəratımızın, dövlətçiliyimizin itirilmək sınağı yaşadığı, təhlükəsizliyimizin mütəmadi pozulduğu mərhələ idi.

Həmin illərdə cərəyan edən proseslər müstəqilliyi formal səciyyə daşıyan Azərbaycanı parçalanmaq və dövlətçiliyini birdəfəlik itirmək təhlükəsi ilə üzləşdirdi. Bu mərhələ tariximizdə böyük rüsvayçılıq, fəlakət dövrü kimi xatırlanır. Hakimiyyəti ələ keçirmiş antimilli qüvvələrin səriştəsizliyi, bacarıqsızlığı, əslində isə millətə və dövlətə xəyanətləri Azərbaycanı uçuruma aparırdı. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. AXC-Müsavat iqtidarı torpaqlarımızı işğaldan qorumaq əvəzinə silahlı qüvvələri siyasiləşdirir, onlar vasitəsilə hakimiyyət ambisiyalarını, çirkin intriqalarını həyata keçirirdilər. Qarabağda vətən müharibəsi, Bakıda isə vəzifə savaşı gedirdi.

**- Ramil müəllim, Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə başlanan yeni tarixi dövrdə Siz Daxili İşlər naziri kimi dövlət quruculuğu prosesinin fəal iştirakçısı, Ulu Öndərin təhlükəsizlik və asayişin təmini sahəsində həyata keçirdiyi siyasətin icraçısı olmusunuz. Bu dövrün real nəticələri nə oldu?**

- 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya dönən Heydər Əliyev ölkəni üzləşdiyi faciə və məhrumiyyətlərdən qurtarmaq üçün əzmlə, qətiyyətlə fəaliyyətə başladı. 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçildi və xalqımızın tarixinə Milli Qurtuluş günü kimi yazılan həmin gündən etibarən Ümummilli Liderin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı.

Ulu Öndərin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 10 illik dövrün hər bir anı özündə Vətənə və xalqa sədaqətli xidməti, peşəkar və məsuliyyətli fəaliyyəti əks etdirir. Bu illər ərzində dahi insan vətənini parçalanıb məhv olmaqdan, ölkəsini vətəndaş müharibəsindən, dövlət çevrilişlərindən, cəmiyyətimizi terrorlardan, sui-qəsdlərdən, düşmən təcavüzündən qorudu, qeyri-bərabər müharibədə ona ilk qələbəni bəxş etdi, müstəqilliyinin qarantı oldu. Heydər Əliyev, eyni zamanda, ictimai-siyasi, sosial-iqtisadi, hərbi-sərhəd, nəqliyyat-tranzit, ərzaq, informasiya və digər sahələrdə həyata keçirilən təhlükəsizlik fəaliyyətinin geniş təhlilini aparmaqla mükəmməl milli təhlükəsizlik strategiyasını formalaşdırdı və həyata keçirdi.

Ulu Öndərin rəhbərliyi ilə respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə qarşı uğurlu mübarizəyə, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsinə başlanıldı. Vətəndaşlarımızın dinc, rahat yaşamaları üçün lazım olan şərait yarandı, onların dövlətə, təhlükəsizlik və hüquq mühafizə orqanlarına inamı daha da artdı. İctimai-siyasi, həmçinin kriminogen durum nəzarətə götürüldü. Sabitliyin bərqərar edilməsi islahatların aparılmasına, iqtisadiyyatın bərpasına və inkişaf etdirilməsinə əlverişli zəmin yaratdı. Xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və respublikamızda iqtisadi tərəqqiyə yol açan "Əsrin müqaviləsi" imzalandı.

Bununla belə, həyat göstərdi ki, Heydər Əliyevin milli maraqlarımızın təmin edilməsindəki qətiyyətli mövqeyi, yorulmaz fəaliyyəti ölkənin xaricində və daxilindəki məlum qüvvələri ciddi narahat edirdi. Onlar necə olursa-olsun, Azərbaycanı bu yoldan döndərmək üçün müxtəlif vasitələrə əl atmağa başladılar. Niyyət bəlli idi. Respublikadakı mövcud ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurmalar yaratmaq və son nəticədə ölkəni müstəqil inkişaf yolundan döndərmək. Ancaq Ümummilli Lider baş verən dövlət çevrilişi cəhdlərinin qarşısını öz zəkasının, müdrikliyinin gücü, onu dəstəkləyən xalqının əzmi və iradəsi ilə aldı. Müstəqilliyimiz qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu.

Ulu Öndər olduqca prinsipial rəhbər idi. İnandığı, düzgün saydığı mövqedən, Azərbaycanın maraqlarından zərrə qədər də geri çəkilməzdi. Mən bu məqamda 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrini xatırlayıram. Azərbaycana və şəxsən Heydər Əliyevin həyatına böyük təhlükələr, qəsdlər var idi. Heydər Əliyev şəxsən öz həyatını böyük risklər altına qoyaraq, millətin və dövlətin təhlükəsizliyi naminə öz təhlükəsizliyinin təminini əsla düşünmədi. Əsl sərkərdə kimi dövlətçiliyə qəsdin qarşısında mətin dayandı, əsl lider kimi xalqını səfərbər etdi, əsl vətənpərvər kimi də qalib gəldi.

Ümumilikdə Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə dövlətimiz xaosdan dinamik inkişafa doğru keşməkeşli, lakin şərəfli yol keçdi. Milli inkişaf yolu olan, müstəqil və qüdrətli dövlətə çevrildi. Dünyada layiqincə tanınmağa, milli maraq və mənafelərini təmin etməyə müvəffəq oldu. Beləliklə, Ulu Öndərin respublikaya ikinci rəhbərliyi illəri Azərbaycan dövlətçiliyinin qorunması, onun təhlükəsizlik maraqlarının təmin olunması, ölkə daxilində milli həmrəyliyin, iqtisadi tərəqqinin, mənəvi yüksəlişin təmin edilməsi mərhələsi kimi tarixiləşdi.

**- Ötən 17 il Prezident İlham Əliyevin qüdrətli liderliyi ilə yanaşı, həm də Heydər Əliyev ideyalarının təntənəsi kimi tarixə həkk olunub. Bu dövrün əsas xüsusiyyətlərini, həmçinin Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi kimi təhlükəsizliklə bağlı mövcud durumu necə qiymətləndirərdiniz?**

- Möhtərəm Prezidentimiz İlham Əliyev artıq bir ölkənin, bölgənin lideri statusunu dəfələrlə üstələyən, qlobal miqyasda söz və nüfuz sahibi olan, dünyaya yeni baxış, ədalətli meyarlar təqdim edən şəxsiyyət kimi tanınır. Bu gün cənab Prezidentin timsalında Azərbaycan Respublikası dünyanın enerji xəritəsinin və yeni nəqliyyat-logistik meyarlarının müəyyənləşməsində mühüm rol oynayan, beynəlxalq təhlükəsizliyin təminində əsaslı töhfələr verən, sivilizasiyalararası əməkdaşlığı uğurla həyata keçirən qüdrətli ölkədir.

Tam müstəqil siyasət yürüdən Prezident İlham Əliyevin qlobal liderliyi həm də Azərbaycanın davamlı artan beynəlxalq nüfuzunu şərtləndirir. Son 17 il ərzində o qədər böyük nailiyyətlərə, genişmiqyaslı inkişaf dinamikasına nail olmuşuq ki, sözün düzü, onların hamısını qeyd etmək çox vaxt aparar. Bütün bu tarixi uğurları mən bir ifadədə birləşdirmək istərdim. Bu, tarixin ən qüdrətli Azərbaycanıdır. Tarix boyu həsrətində olduğumuz ən möhtəşəm, güclü, rifahlı Azərbaycan məhz müasir dövrün reallığıdır, ən əsası isə Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin təntənəsidir.

Müasir elmi-texniki inkişaf səviyyəsi milli təhlükəsizliyə qarşı yönələn potensial təhdidlərin sırasını genişləndirərək, ölkəmizin təhlükəsizlik sisteminin XXI əsrin çağırışlarına uyğun qurulmasını labüdləşdirir və çevik yanaşma tələb edir. Əminliklə demək olar ki, Prezident İlham Əliyev tərəfindən qurulmuş çoxşaxəli təhlükəsizlik sistemi ölkəmizə yönələn bütün qəsdlərin və təhdidlərin qarşısını almağa qadirdir. Hazırda bu sahədə əsaslı normativ baza yaradılmışdır, maddi-texniki təminat ən yüksək səviyyədədir, ciddi kadr potensialına malik sistem fəaliyyət göstərir.

Son illər respublikamızda uğurla həyata keçirilən siyasət, ilk növbədə, ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsinə, Azərbaycanın demokratik və sosial-iqtisadi inkişafına yönəlib. Cənab Prezidentin haqlı olaraq bəyan etdiyi kimi, Azərbaycan bu gün dünyada sülh və sabitlik adası olaraq tanınır, bütün dünyada sülh və sabitliyə töhfə verir. NATO-nun sülhyaratma missiyalarının tərkibində terrorçuluqla mübarizədə fəal iştirak edir.

Dünyada sülh, sabitlik və təhlükəsizlik problemlərinin həllinə, eləcə də tolerant və multikultural ideyaların təbliğinə xidmət edən qlobal formatlı forumlar, konfranslar Bakı şəhərində keçirilir. Bu təşəbbüslər Azərbaycanın Şərqlə Qərbi təkcə əlverişli tranzit və enerji-kommunikasiya imkanları ilə deyil, həm də mədəni-mənəvi tellərlə bağlayan ölkə olduğunu bir daha göstərir. Belə tədbirlər sayəsində Azərbaycan hazırda dünyada demokratiya yolunda inamla irəliləyən, multikultural dəyərlərə sadiq olan, sürətlə inkişaf edən, təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi tanınır. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər həm də Ermənistan rəhbərlərinin "Dağlıq Qarabağ ermənilərinin Azərbaycanda yaşaması üçün tolerant mühitin olmaması" kimi əsassız iddialara ən tutarlı cavabdır.

Hər bir münaqişənin sonu sülhlə yekunlaşır. Eləcə də Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında Dağlıq Qarabağ münaqişəsi də gec-tez nizamlanacaq. Ötən əsrin 70-80-ci illərində necə ki Heydər Əliyev Dağlıq Qarabağda azərbaycanlı və erməni icmalarının mehribanlığına, həmrəyliyinə nail olmuşdusa, əminəm ki, Prezident İlham Əliyev də işğal olunmuş torpaqların azad edilməsini, oradakı hər iki xalqın təmsilçilərinin qüdrətli Azərbaycan bayrağı ətrafında birləşərək təhlükəsiz yaşamasını təmin edəcək.

Çünki Prezidentimizin yürütdüyü siyasət nəticəsində artıq sadə erməni vətəndaşları, münaqişədən əvvəl Azərbaycanda yaşayan ermənilər anlayırlar ki, onların düşməni erməni şovinistləri, separatçılıq ideyalarıdır. Bu şovinizm dalğası erməni xalqını ötən əsrin 90-cı illərində susdurub, nəticədə də belə böyük faciələrə məruz qoyduğunu anlayırlar. Sadə ermənilər, o cümlədən Dağlıq Qarabağda yaşayan ermənilər bilirlər ki, onların təhlükəsizliyini, rifahını, gələcəyini təmin edəcək bir qüvvə var ki, o da Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycandır.

**- Ramil müəllim, təhlükəsizlik mövzusuna toxunmuşkən, son ayların əsas problemi olan pandemiya təhlükəsinə də diqqət ayıraq. Tək sağlamlığa deyil, eləcə də ölkələrin iqtisadi, sosial, siyasi təhlükəsizliyinə təhdid olan bu bəlaya qarşı Azərbaycan dövlətinin mübarizə strategiyasını necə qiymətləndirirsiniz?**

- Bu strategiyanı, Azərbaycanın pandemiyanın fəsadlarını aradan qaldırmaq üçün yürütdüyü mübarizəni dünyanın ən nüfuzlu təşkilatları, qurumları, mütəxəssisləri beynəlxalq miqyasda birmənalı şəkildə mükəmməl nümunə kimi dəyərləndirir, uğurlu sayırlar. Bu prosesin nüvə mərkəzi olan Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın təcrübəsindən digər ölkələrin yararlanmasının vacibliyini artıq dəfələrlə bəyan edib. BMT, Qoşulmama Hərəkatı, Türkdilli ölkələrin Əməkdaşlıq Şurası, Avropa Yenidənqurma və İnkişaf Bankı, eləcə də digər təsisatlar ölkəmizin bu sahədəki fəaliyyətini təqdir edir, öyrənirlər.

Dövlətimiz Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ilk gündən koronavirusla mübarizənin ən effektiv nümunəsini ortaya qoydu. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradılmasından tutmuş, sosial və məhdudlaşdırıcı izolyasiya tədbirlərinin həyata keçirilməsi, karantin rejiminin və hərəkət məhdudiyyətinin tətbiq olunması kimi qərarlar Azərbaycan dövlətinin ilk gündən koronavirusla mübarizəyə olduqca effektli yanaşmasını sübut etdi.

Azərbaycan ictimaiyyəti, eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın əsl vətəndaşlıq missiyasının bir daha şahidi oldu. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu ölkədə genişmiqyaslı sosial aksiyalar həyata keçirir. On minlərlə ailə Azərbaycanda ən səmimi inam, etimad ünvanlarından birinə çevrilən bu fondun yardımından bəhrələnirlər.

Ulu Öndərin ideyalarını uğurla davam etdirən möhtərəm Prezidentimiz Azərbaycanın dövlət müstəqilliyinin, milli inkişafının və təhlükəsizliyinin etibarlı təminatçısıdır. Bu gün xalqımız onu hər cür bəlalardan, qlobal təhlükələrdən qoruya bilən, müdafiə edən qüdrətli lider İlham Əliyevə sonsuz güvənc hissi duyur, onun ətrafında sıx birləşərək əbədiyaşar Heydər Əliyevin işıqlı ideallarını, arzularını yaşadır, inkişaf etdirir.

*Müsahibəni apardı:*
**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# İnsan hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edən islahatlar

*Əvvəli 1-ci səh.*

Yeni hüquqi islahatlar yalnız Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonrakı dövrə təsadüf etdi. Görkəmli dövlət xadimi və təcrübəli siyasətçi kimi Heydər Əliyev çox gözəl bilirdi ki, dövlətin möhkəmlənməsi və inkişafı üçün ilk növbədə yeni hüquqi islahatlar həyata keçirilməlidir. Məhz Heydər Əliyevin sayəsində respublikamızda ardıcıl həyata keçirilən köklü islahatlarla müasir hüquq standartlarını və milli xüsusiyyətləri özündə birləşdirən, beynəlxalq prinsip və müddəalara tam uyğun olan hüquq sistemi yaradıldı. Bu sahədə fəaliyyət göstərən dövlət təsisatları yenidən formalaşdırıldı.

Hüquqi demokratik dövlət və vətəndaş cəmiyyəti qurmağı özünün başlıca məqsədi elan edən respublikamızda bu sahədə atılan ilk addım ümumbəşəri dəyərlərə və prinsiplərə söykənən Konstitusiyanın qəbulu oldu. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır. Tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu demokratik, dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu əsasında dövlətin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində ilk mərhələ oldu.

Konstitusiyada ilk növbədə insan hüquq-azadlıqları tam və əhatəli şəkildə təsbit olundu ki, bu da Heydər Əliyevin Azərbaycanın demokratik inkişafına verdiyi önəmin göstəricisi idi. Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan olunur. Konstitusiyanın bu müddəası insanın, onun hüquq və azadlıqlarının cəmiyyətdə ali nemət kimi dəyərləndirildiyini müəyyən edən normadır. Lakin Əsas Qanun bu norma ilə də kifayətlənməyərək, insan və vətəndaş hüquqlarını, azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoydu. Bununla yeni Konstitusiya həm də vətəndaşın cəmiyyət və dövlət həyatında aparıcı rolunu müəyyənləşdirdi.

İnsan hüquq və azadlıqlarına ali dəyərlər kimi xüsusi önəm verən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə hüquqi islahatlar nəticəsində 1998-ci ildə Cinayət Məcəlləsində cəza sistemindən ölüm cəzası çıxarıldı və Azərbaycanın adı Müsəlman Şərqində ilk olaraq ölüm hökmünü ləğv edən ölkə kimi tarixə düşdü. Bu, hələ ölkəmizin Avropa Şurasına üzv olmadığı vaxtlarda belə insan hüquqları sahəsində atılan ən mütərəqqi addımlardan biri idi.

Ulu Öndər Heydər Əliyev yaxşı bilirdi ki, müstəqil məhkəmə hakimiyyəti yaratmadan insan hüquqlarının daha etibarlı təmini mümkün deyil. Bunun üçün ölkədə məhkəmələrin köklü islahatına ehtiyac var idi. Ona görə məhz Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə yuxarıda bəhs etdiyim "Məhkəmələr və hakimlər haqqında" qanun qəbul edildi və respublikamızda hakimiyyətin bir qolu kimi məhkəmələr mütərəqqi dünya təcrübəsinə əsaslanan modeldə, üçpilləli məhkəmə sistemi olmaqla formalaşdırıldı. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra qanunla nəzərdə tutulan hallarda apelyasiya qaydasında baxılmasına, daha sonra isə kassasiya qaydasında yenidən baxılmasına imkan verir. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərə düzgün və obyektiv baxılmasına şərait yaradır.

Eləcə də prokurorluq orqanları da tam yenidən formalaşdırıldı. Hüquqi islahatların nəticəsi olaraq prokurorluq müasir dövrün tələblərinə cavab verən, fəaliyyətində qanunçuluq, dövlətçilik, siyasi bitərəflilik, obyektivlik, qərəzsizlik və insan hüquqlarının təmini kimi prinsipləri rəhbər tutan demokratik məzmunlu bir təsisata çevrildi. Xatırladım ki, Heydər Əliyevin 26 aprel 2000-ci ildə Respublika Prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi və prokurorluğun həyatında müstəsna rol oynamış tarixi görüşdən sonra Azərbaycan Respublikası Prokurorluğunda hərtərəfli islahatlara başlanılmaqla, dövlət başçısının tövsiyə və göstərişlərinə müvafiq olaraq həyata keçirilən tədbirlər sayəsində prokurorluğun demokratik məzmunda yeniləşdirilməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması təmin edildi.

Həyata keçirilən hüquqi islahatlar nəticəsində 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul edildi və bununla da insan hüquqlarının yeni bir qeyri-prosessual müdafiə mexanizmi formalaşdırıldı. Sonradan bu istiqamətdə həyata keçirilən islahatlar Ombudsman təsisatının respublikanın regionlarında mərkəzlərinin yaradılması və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) institutunun təsis olunması ilə davam etdirildi.

24 dekabr 2002-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanununun qəbulu insan hüquq və azadlıqları ilə hüquqi islahatların davamı idi. Konstitusiya qanunu bir tərəfdən referendum yolu ilə konstitusiya müddəalarının təkmilləşdirilməsinə, həm də Avropa İnsan Hüquqları Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsinə xidmət edirdi.

Dövrün tələbi ilə səsləşən mütərəqqi hüquq islahatlarının aparılması, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin müstəqilliyinin təmin olunması və qanunun aliliyi prinsipinin bütün səviyyələrdə qorunması vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf və insan hüquqlarının etibarlı müdafiəsi prosesinin fundamental şərtləridir. Yeni, müasir və mükəmməl dövlətçilik modelinin yaradılması, demokratik idarəetmə meyarlarının cəmiyyət həyatının müxtəlif sahələrində bərqərar olması çevik hüquqi mexanizmlərin yaradılmasından bilavasitə asılıdır. Şübhəsiz ki, ictimai münasibətlər qanunlarla tənzimləndiyindən, cəmiyyət həyatındakı mühüm yeniliklər hüquq sistemində də əsaslı dəyişikliklər və yeniləşmə tələb edir. Bunu nəzərə alaraq Ulu Öndər Heydər Əliyevin insan hüquqlarının qorunmasını ön plana çəkməklə əsasını qoyduğu məhkəmə-hüquq islahatları son 17 ildə onun layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilib.

1995-ci ildən sonra Azərbaycan cəmiyyətinin keçdiyi böyük inkişaf yolu, ictimai-siyasi, sosial, mədəni həyatımızda baş verən yeniliklər müxtəlif vaxtlarda Konstitusiyaya əlavə və dəyişikliklər etmək zərurəti yaradıb. Ölkəmizdə 2002, 2009 və 2016-cı illərdə referendum yolu ilə Konstitusiyaya dəyişikliklər edilib. Bu dəyişikliklərin hər biri demokratik inkişaf tələblərindən irəli gəlməklə məhkəmə islahatlarının həyata keçirilməsinə, seçki sisteminin, dövlət idarəçilik sisteminin, Milli Məclisin fəaliyyətinin təkmilləşdirilməsinə, ictimai münasibətlərin daha dolğun tənzimlənməsinə yol açıb. Ən əsası, yeni əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha əhatəli ifadə olunmasına, onun müddəalarının liberallığına və daha demokratik səciyyə daşımasına xidmət edib.

2004-cü ildən ədalət mühakiməsinin daha da müasirləşdirilərək Avropa standartlarına tam uyğunlaşdırılmasının həyata keçirilməsinə başlanılıb. Təbii ki, islahatın yolu qanunlardan keçir, qanunvericilikdən başlayır. Bu baxımdan ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər çərçivəsində Avropa Şurası ilə əməkdaşlıq şəraitində hazırlanaraq qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlar xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq norma və prinsiplərə uyğun olan həmin qanunlara əsasən məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yaradılıb.

"Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli fərmanı ilə 2010-cu ildə isə respublika üzrə vahid olan ağır cinayətlər məhkəməsinin əvəzində Bakı, Lənkəran, Gəncə, Şəki ağır cinayətlər məhkəmələri yaradıldı. Eyni zamanda respublikamızın məhkəmə-hüquq sistemində ən mühüm hadisələrdən biri kimi ilk dəfə olaraq inzibati ədliyyə institutu təsbit edilmiş, 1 və 2 saylı Bakı, Gəncə, Sumqayıt, Şəki, habelə Naxçıvan iqtisad məhkəmələrinin bazasında 1 saylı Bakı, 2 saylı Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Şəki,və Şirvan inzibati-iqtisadi məhkəmələri təşkil olundu.

Respublikamızda insan hüquqları sahəsində həyata keçirilən hüquqi islahatlar Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" sərəncamı ilə davam etdirilib. Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edib. 27 dekabr 2011-ci il tarixdə Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi isə bu siyasətin məntiqi davamı oldu. Beləliklə, insan hüquqları sahəsində həyata keçirilən islahatların davamı olaraq, yeni normalar nəzərdə tutan normativ-hüquqi aktların hazırlanması, yeni qanun layihələrinin qəbulu, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələrin müəyyən edilməsi insan hüquq və azadlıqlarının daha səmərəli təmininə verilən ən mühüm töhfələrdəndir.

Prezident İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı da insan hüquqlarının effektiv təmini istiqamətində həyata keçirilən islahatların davamlılığı baxımından yeni mərhələ oldu. Bu sərəncam mahiyyətcə hərtərəfli olmaqla özündə azadlıq hüququnun təmini baxımından yeni yanaşmaları özündə ehtiva etdi, həm də dövlət başçısının humanist siyasətinin növbəti təzahürü oldu.

Bütövlükdə məhkəmə orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər ölkədə ədalət mühakiməsinin yüksək keyfiyyətini, cəzanın tərbiyəvi əhəmiyyətini və səmərəliliyini təmin edib, vətəndaşların hüquq və azadlıqlarının etibarlı qorunmasına, humanizm ideyalarının daha da geniş təşəkkül tapmasına imkanlar açıb.

2019-cu il Azərbaycanın siyasi və iqtisadi həyatında həqiqətən dərin islahatlar dövrü kimi yadda qaldı. Ən əsası odur ki, bu islahatlar həm də Azərbaycan vətəndaşlarının mənafeyinə xidmət etdi. Xüsusən 4,2 milyon vətəndaşı əhatə edən sosial paketlər ölkədə sosial rifahın daha da yaxşılaşdırılmasına yol açdı. Ötən il aprelin 3-də dövlət başçısının imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman isə islahatların kompleks xarakter daşıyaraq cəmiyyət həyatının müxtəlif sahələrini əhatə etdiyini göstərdi.

Ötən bir ildə fərmanın icrası istiqamətində əhəmiyyətli işlər görülüb, müvafiq qanunlar qəbul edilib. Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi çərçivəsində ilk qanunvericilik aktları paketi ötən ilin iyul ayında qəbul olundu və islahatların institusional komponentini əhatə etdi. Həmin qanunlara əsasən kommersiya məhkəmələri yaradıldı, inzibati məhkəmələr sisteminə yenilik gətirildi. Belə ki, Azərbaycan Prezidentinin "İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında" 19 iyul 2019-cu il tarixli sərəncamı ilə Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Şirvan və Şəki şəhərlərində inzibati və kommersiya məhkəmələri yaradıldı. Buna qədər fəaliyyət göstərən Naxçıvan, 1 saylı Bakı, 2 saylı Bakı, Gəncə, Sumqayıt, Şirvan, Şəki inzibati-iqtisadi məhkəmələri isə ləğv edildi.

Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Azərbaycan Prezidentinin fərmanının icrası çərçivəsində hazırlanmış ikinci qanunvericilik paketi ilə bağlı qanun layihələri ötən ilin dekabrında Milli Məclisdə müzakirəyə çıxarılaraq qəbul edilib və bu ilin martından qüvvəyə minib. Bununla da qanunvericiliyə edilmiş dəyişikliklər vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə prosesi iştirakçılarının məhkəmə ekspertizasının aparılması ilə bağlı hüquqlarının genişləndirilməsi kimi məsələləri əhatə etdi.

Hüquqi islahatlar siyasətinin davamı olaraq bu yaxınlarda cənab Prezident "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikilik edilməsi haqqında" və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələrini Milli Məclisə təqdim etmişdir. Bu qanun layihələri Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli fərmanının ikinci bəndinə uyğun olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədi ilə hazırlanmışdır. Hər iki qanun layihəsi 3 oxunuşda Milli Məclis tərəfindən qəbul edilmişdir və 2020-ci il iyun ayının 1-də qüvvəyə minəcək.

*Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu insan hüquq və azadlıqlarının təmin olunması siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələyə yüksəlib. Respublikamızda həyata keçirilən bütün hüquqi islahatların mərkəzində də hüquq sisteminin zamanın çağırışlarına uyğun formalaşdırılması ilə yanaşı, məhz vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı dayanır.*

**Ziyafət ƏSGƏROV,**
***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü***



# Heydər Əliyevin Azərbaycanı - sosial ədalət və sosial rifah dövləti

***Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri heç bir tarixi şəxsiyyətlə müqayisəolunmaz dərəcədə böyükdür, çoxşaxəlidir və qiymətlidir. Heydər Əliyev təkcə bir tarixi şəxsiyyət, yaxud böyük dövlət xadimi deyil, eyni zamanda bu dövlətin - müstəqil Azərbaycan dövlətinin banisi və qurucusudur. Məhz Heydər Əliyevin siyasi dühası, iradəsi, enerjisi, ağlı, təcrübəsi, xarizması və s. kimi mühüm dövlət xadimi keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və vətəninə sevgisi sayəsində müstəqil Azərbaycan dövləti quruldu, möhkəmləndi və əbədi yaşarlıq qazandı.***

Məhz Ümummilli Lider Heydər Əliyevin parlaq siyasi zəkası və iradəsi sayəsində müasir Azərbaycan dövləti yarandı, möhkəmləndi, regionun güc və nüfuz mərkəzinə çevrildi. Dünya şöhrətli böyük qırğız yazıçısı və diplomat Çingiz Aytmatov çox haqlı olaraq qeyd edirdi ki: "Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü yaradıcılarından biridir". Heydər Əliyevin müasir dövlətçilik siyasətinin başlıca prinsipi "dövlət xalq üçündür" ideyasıdır. Ümummilli liderin müəllifi olduğu Konstitusiyamızda bu ideyanın sosial mahiyyəti bariz şəkildə öz təsdiqini tapmışdır.

Heydər Əliyevin qurduğu müasir Azərbaycan dövlətinin daxili siyasətində sosial ədalət, sosial rifah, sosial müdafiə xətti həmişə prioritet istiqamət kimi müəyyən olunur. Heç təsadüfi deyildir ki, bizim dövlət büdcəmizdə sosial xərclərin payının 30%-dən yuxarı olması artıq ənənə halını almışdır. Müstəqil Azərbaycanın dövlət quruculuğu və inkişafı strategiyasını müəyyən edərkən Ümummilli Lider Heydər Əliyev sosial siyasəti prioritet istiqamətlərdən biri olaraq müəyyən etmiş, milli sərvətlərin xalqın bütün təbəqələrinə mənsub olması, sosial ədalət prinsipinin qorunması, əhalinin aztəminatlı hissəsinə dövlət qayğısının artırılması məsələlərini həmişə diqqət mərkəzində saxlamışdır.

Sosial siyasətin təminatlı və əhatəli olması üçün möhkəm iqtisadi təməl və hüquqi bazanın olması mühüm şərtdir. Məhz buna görə də müstəqil Azərbaycanın sosial siyasət strategiyasını müəyyənləşdirən zaman Ümummilli Lider Heydər Əliyev bir tərəfdən sosial siyasətin ölkənin real iqtisadi imkanlarına uyğunlaşdırılmasına, digər tərəfdən isə müvafiq normativ-hüquqi bazanın yaradılmasına ciddi önəm verirdi.

Modern dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycanın sosial siyasətinin təməlində iki klassik prinsip dayanır: sosial ədalət və sosial rifah. Ümummilli Lider Heydər Əliyev sosial sahədə dövlətin vəzifəsini bunda görürdü: "Bir dövlət olaraq, hökumət olaraq biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələblərini təmin etməliyik ".

1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzül dayandı və bu, sosial sahədə siyasətin konkret istiqamətlərinin müəyyənləşməsinə, islahatlar aparılmasına və sosial siyasətin geniş hüquqi bazasının yaranmasına təkan verdi. Hazırda Azərbaycanda sosial siyasətin əsas istiqamətləri liberal iqtisadiyyata, insan haqlarına və demokratik dəyərlərə əsaslanan sosial dövlətin iqtisadi-siyasi sisteminə uyğundur və başlıca olaraq əmək münasibətləri, aztəminatlı təbəqənin sosial müdafiəsi, pensiya təminatı, sosial müavinətlər, sosial xidmət, sosial sahələrin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, sosial infrastruktur kimi məsələləri əhatə edir.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə dövlət mülkiyyətində olan əmlakın ədalətli bölgüsünə - özəlləşdirilməsinə başlanıldı, hər bir Azərbaycan vətəndaşına ümumi mülkiyyətdən bərabər pay - özəlləşmə çekləri verildi. Kəndlərdə yaşayanlara isə torpaq payı eyni prinsiplə bölündü. Bazar münasibətlərinə əsaslanan, eyni zamanda sosial ədalətə söykənən sığorta sisteminin yaranması, bunun üçün qanunvericilik bazasının formalaşması ("Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İcbari tibbi sığorta haqqında" və s. qanunlar), sığorta prinsipinə əsaslanan yeni pensiya sisteminin yaranmasının konseptual əsaslarını müəyyən edən "Azərbaycan Respublikasında pensiya islahatları Konsepsiyasının" Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 17 iyul tarixli sərəncamı ilə təsdiq olunması, əlil probleminin kompleks həlli məqsədi ilə Prezidentin 14 may 1998-ci il tarixli sərəncamı ilə "1998-2001-ci illər üçün əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi üzrə Dövlət Proqramının" təsdiq edilməsi və s. kimi addımlar müasir Azərbaycan dövlətinin sosial siyasətinin yeni dövrün çağırışına uyğun formalaşmasına xidmət edirdi.

Ümummilli Lider Heydər Əliyevin başladığı sosial islahatlar 2003-cü ildən sonra cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Proqramlarla idarə etmək metoduna üstünlük verən cənab Prezident İlham Əliyevin fərmanları ilə "Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları", təhsil, səhiyyə, sosial müdafiə, demoqrafik inkişaf, məşğulluq, yoxsulluğun azaldılması, sosial evlər, məcburi köçkünlərin məskunlaşması, ünvanlı sosial yardım, özünüməşğulluq və s. sahələrdə onlarca digər proqramlar qəbul edilib həyata keçirilməkdədir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir çox sosial, humanitar layihələr, o cümlədən ailə quran şəxslərin nikahöncəsi icbari tibbi müayinəsinin həyata keçirilməsi, ana və uşaqların mühafizəsi, talassemiya və hemofiliya xəstələrinə dəstək haqqında, habelə valideyn himayəsindən məhrum uşaqların, I və II qrup əlil uşaqların təhsil haqlarının ödənilməsinin dövlət büdcəsi tərəfindən həyata keçirilməsini təmin edən qanunvericilik aktlarının qəbul edilməsi təhsil və səhiyyə sahəsində islahatların növbəti addımı kimi olduqca əhəmiyyətlidir.

2014-cü ildə ümumdünya maliyyə-iqtisadi böhranının 3-cü mərhələsi baş verdi və bu böhran iqtisadiyyatı neftlə bağlı olan digər ölkələrdə olduğu kimi, Azərbaycanın da milli valyutasının kəskin ucuzlaşmasına gətirib çıxardı. Cənab Prezidentin regionların harmonik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi konsepsiyasını uğurla həyata keçirən hökumətimiz böhranın mənfi təsirlərini qısa müddətdə aradan qaldıra bildi.

Cənab Prezidentin müvafiq fərmanı ilə 2016-cı ildə qəbul edilmiş "Milli iqtisadiyyatımızın perspektivləri üzrə strateji yol xəritəsi" 11 prioritet istiqaməti müəyyənləşdirdi və sosial iqtisadi inkişafımızın yeni mərhələsinə qədəm qoyduğumuzu bəyan etdi.

2018-ci ildə iqtisadiyyatımızın yüksəlməsi sosial islahatların yeni mərhələsinə başlamaq üçün maliyyə təminatları yaratmış oldu. ASAN, ABAD, DOST xidmətlərinin, özünüməşğulluq proqramlarının uğurla icra edilməsi də sosial islahatların əməli nəticəsi kimi qiymətlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman söyləyir ki, bizim siyasətin mərkəzində Azərbaycan xalqı və onun sosial rifah halı dayanır. Azərbaycan Prezidenti sözün birbaşa mənasında həmişə aztəminatlı insanların yanındadır. 2018-ci ilin sonunda ölkə başçısı öz ad günündə 1000 məcburi köçkün ailəsi üçün Abşeron rayonunda salınmış yaşayış kompleksinin açılışı mərasimində iştirak etdi. Daha sonra 2019-cu ilin ilk ayında bir qrup şəhid ailəsini qəbul etdi, onlarla görüşdü və bu görüşdən sonra imzaladığı sərəncamla 1997-ci ilə qədər şəhid olmuş, lakin sığorta haqqını almamış, yaxud da o dövrün məzənnəsi ilə sığorta haqqını almış 12 min 750 nəfərə 11 min manatlıq birdəfəlik müavinətin verilməsi ilə bağlı sərəncam imzaladı. Dövlət büdcəsindən bu məqsədlə təxminən 130 milyon manat vəsait ayrıldı.

2019-cu il xalqımızın və dövlətimizin həyatında kifayət qədər uğurlu il olmuşdur. Bu il ərzində qarşıya qoyulan bütün sosial-iqtisadi vəzifələr icra olunmuş, ölkə iqtisadiyyatı böyümüş, vətəndaşlarımızın sosial rifah halı nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Mübaliğəsiz deyə bilərəm ki, 2019-cu il müstəqil dövlətimizin tarixində dərin sosial islahatlar ili kimi qalacaqdır.

Cənab Prezident İlham Əliyevin 2018-ci ildə başladığı iqtisadi sahədə islahatların davamı olaraq 2019-cu ildə dərin sosial, idarəetmə və struktur islahatları aparılmışdır. Cənab Prezidentin 30-a yaxın fərman və sərəncamını əhatə edən 2 sosial islahatlar zərfi 4,2 milyon vətəndaşımızın sosial rifah halının ciddi şəkildə yaxşılaşmasına maddi təminat yaratmışdır.

2018-ci ildə vergi və gömrük sahəsində başlanan islahatlar bu sistemdə aparılan şəffaflıq və kölgə iqtisadiyyatının məhdudlaşdırılması tədbirləri vergi və gömrük daxilolmaları üzrə büdcəyə 1 milyard manatdan çox əlavə vəsait gətirmişdir ki, bu vəsait də xalqımızın sosial rifahının yüksəldilməsinə yönəldilmişdir.

Ötən il pensiya təminatı sahəsində aparılan islahatlar nəticəsində Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 364,4 milyon manat artaraq 4 milyard 116 milyon 700 min manat təşkil etmiş, ölkə üzrə əmək pensiyalarının orta aylıq məbləği 256 manatdan 295 manata yüksəlmiş, başqa sözlə, 15.3% artmışdır.

Əmək pensiyalarının minimum məbləği isə 119 manatdan 200 manata, başqa sözlə, 72% artmışdır. Bu artım 600 min nəfər pensiyaçının həyat səviyyəsinin yüksəldilməsinə xidmət etmişdir. İslahatlar nəticəsində minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında 1-ci yerə yüksəlmişdir.

Ötən il aparılan islahatlar nəticəsində ölkə üzrə minimum əmək haqqının məbləği 2 dəfəyə yaxın artaraq 130 manatdan 250 manata çatdırılmışdır. Ölkə üzrə 1 milyon 350 min işçinin əmək haqqı əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Cənab Prezidentin fərmanlarının icrası ilə əlaqədar olaraq 12 min şəhidin 18 min vərəsəsinə 11 min manat məbləğində birdəfəlik ödənişlərin verilməsi təmin olunmuşdur. Problemli kreditlərin həlli ilə bağlı dövlət büdcəsindən 640 milyon manat məbləğində vəsait ayrılmış, 900 minə qədər vətəndaşın kredit borcu dövlət tərəfindən qarşılanmışdır.

Ötən il əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfə üstələmiş, yoxsulluq 5%, işsizlik 4,8% təşkil etmişdir. Minimum əmək haqqının artırılması qeyri-leqal məşğulluğun xeyli azalmasına səbəb olmuşdur.

Özünüməşğulluq proqramının genişlənməsini, 132 növ xidmət təklif edən DOST mərkəzlərin yaranmasını, 21 sosial təminat növü üzrə elektron təyinat sistemlərinin istifadəyə verilməsini, ünvanlı sosial yardım və əlillik təyinatı sahəsində şəffaflığın təmin edilməsini, əhalinin həssas qrupları olan şəhid ailələrinin, Qarabağ əlillərinin, məcburi köçkünlərin mənzil təminatının yaxşılaşdırılması sahəsində görülən işləri də sosial sahədə hökumətin uğurlu fəaliyyəti siyahısına əlavə etmək yerinə düşərdi.

Əhalinin xidmət sahələrində məmnunluğunun təmin edilməsi üçün məmur-vətəndaş kontaktlarının minimuma endirilməsi, vətəndaşların müraciətlərinə yüksək mədəniyyətlə və şəfqətlə yanaşılması, eyni zamanda bu müraciətlərin qısa müddət ərzində baxılması və təmin olunması vətəndaşın dövlətə olan inamını, sevgisini artıran amillərdir. Buna görə də Prezident İlham Əliyev sosial sahələrdə olan problemlərin günümüzün çağırışlarına uyğun şəkildə həlli üçün çox ciddi islahatların aparılmasına start verib.

Dünyanı çənginə almış koronavirus pandemiyası 2020-ci ilin əvvəllərindən başlayaraq bütün dövlətləri və xalqları sınağa çəkməkdədir. Bir çox ölkələrin liderləri "öncə iqtisadiyyatı, yoxsa insanları xilas etməli" dilemmasını müzakirəyə çıxaranda Azərbaycan Prezidenti öz doğma xalqının əsl Lideri kimi birmənalı və qəti şəkildə söylədi: "Burada biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır - insanların sağlamlığı!"

Cənab Prezidentin 19 mart 2020-ci il tarixində imzaladığı koronavirus pandemiyasının ölkənin sosial-iqtisadi həyatına mənfi təsirlərinin azaldılmasını və postpandemiya dövrünün inkişaf perspektivlərini nəzərdə tutan "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam əhalinin sosial müdafiəsinin qorunması baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

Daxili siyasətdə vətəndaşların sosial müdafiəsini və sosial rifahını prioritet istiqamət kimi müəyyən edən Azərbaycan dövləti hər zamankı kimi bu çətin vaxtda da xalqın yanında olduğunu öz əməli fəaliyyəti ilə bir daha təsdiq etdi. Cənab Prezident İlham Əliyevin koronavirus pandemiyasının ölkə iqtisadiyyatına və vətəndaşların həyat səviyyəsinə mənfi təsirlərinin azaldılması ilə bağlı 10 mart 2020-ci il tarixli sərəncamının icrası ilə əlaqədar olaraq Nazirlər Kabineti Tədbirlər Planı hazırladı. Tədbirlər planında nəzərdə tutulan maliyyə-iqtisadi tənzimləmə tədbirləri ilə yanaşı, hökumət məşğulluq və sosial müdafiə ilə bağlı mühüm addımlar atdı.

Azərbaycan dövləti sosial yönümlü bir dövlətdir. Cənab Prezidentin də siyasəti həmişə ondan ibarətdir ki, bizim iqtisadiyyatımız inkişaf etdikcə əhalimizin də sosial müdafiəsi gücləndirilsin. Yəni iqtisadiyyatdan əldə olunan gəlirlər əhalinin sosial müdafiəsinə, sosial rifah halının güclənməsinə yönəldilsin. Bu hər zaman belə olub və həmişə Azərbaycanın siyasətində sosial siyasət prioritet istiqamət təşkil edib.

Bu gün Azərbaycan vətəndaşı inamlı və sabahından arxayındır! O inanır ki, Azərbaycan dövləti hər an Azərbaycan vətəndaşının arxasındadır. O inanır ki, cənab Prezident hər an Azərbaycan vətəndaşının sosial rifah halının gücləndirilməsi barədə düşünür və sosial müdafiə dövlət başçısının diqqəti və qayğısı altındadır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qurduğu dövlətin İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf edərək qüdrətli bir dövlətə çevriləcəyini hiss edir və böyük uzaqgörənliklə söyləyirdi: "Azərbaycan dünyaya Günəş kimi doğacaq!"

*Ulu Öndərin bir peyğəmbər müdrikliyi ilə söylədiyi sözlər bu gün real həyatda öz təsdiqini tapmış, onun qurduğu Azərbaycan dövləti dünyanın ən azad, ən demokratik, inkişaf etmiş, sosial rifah dövlətinə çevrilmişdir.*

**Musa QULİYEV,**
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri***

# Heydər Əliyev mövqeyi



Əvvəli 1-ci səh.

Heydər Əliyev Azərbaycan xalqının əbədiyyət günəşidir. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan həm milli iftixar duyğusu, həm də bugünümüzün və sabahımızın mahiyyətidir, hərəkətverici qüvvəsidir. Qüdrətli tarixi şəxsiyyət olan Heydər Əliyevin müstəqil dövlətçilik idealları Azərbaycan xalqının əbədiyyət yoludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətçilik yollarındakı dönməz mövqeyi, yaradıcı dühası, yorulmaz fəaliyyəti ilə Heydər Əliyev epoxasını tamamlamış və yeni tarixi era yaratmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin əbədiyyət rəmzi, Prezident İlham Əliyev isə qüdrətli lideri və uzaqgörən sükançısıdır. Heydər Əliyev özünün çoxillik tarixi xidmətləri ilə tarixdə şəxsiyyətin böyük rolunu isbat etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mənsub olduğu xalqı və rəhbərlik etdiyi müstəqil dövləti daim qabağa aparmağı bacarmış, müasir tarixin yeni üfüqlərini müəyyən etmiş, dönmədən bu yolla gedərək böyük əməlləri ilə daha böyük zəfərlər qazanmağın mümkünlüyünü meydana qoymuşdur.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin nadir simasıdır. Heydər Əliyev ölkəsinin inkişafı və xalqımızın taleyi baxımından böyük tarix yaratmış görkəmli tarixi şəxsiyyətdir. Heydər Əliyev tarixin ən çətin və məsuliyyətli zamanlarında da tarix yaratmağın əsl nümunəsini göstərmişdir.

Böyük dövlət xadimi Heydər Əliyevdə tarixi şəxsiyyətlər üçün zəruri olan bütün keyfiyyətlər cəmləşmişdir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, möhkəm siyasi iradə, aydın dövlətçilik mövqeyi və ümummilli mənafe bu böyük tarixi şəxsiyyətin həyatının və mübarizəsinin əsas istiqamətlərini müəyyən etmişdir. Heydər Əliyevin şəxsiyyətində və fəaliyyətində dəmir kimi möhkəm general iradəsi ilə əsl liderin aydın və qəti mövqeyi, habelə uzaqgörənliyi birləşir. Heydər Əliyev üçün möhkəm iradə ilə aydın siyasi mövqe onun çoxcəhətli fəaliyyətinin qoşa dəmir yolu kimi ən mühüm zəruri faktorlarından biri idi. Bunlardan hər hansı biri olmazsa, lokomotivin hərəkəti mümkün olmadığı kimi, liderin də lokomotivə çevrilmək şansının baş tutması mümkün deyildir. Görkəmli dövlət xadimi kimi Heydər Əliyevin qüdrəti onun aydın siyasətində, qətiyyətli dövlətçilik mövqeyində, ümummilli maraqlara və bəşəri dəyərlərə əsaslanan dönməz iradəsində idi. Və yaxud da əksinə, Heydər Əliyevin möhkəm siyasi iradəsi onun aydın siyasi və dövlətçilik mövqeyinin həyata keçirməsini, habelə ümummilli maraqların cəmiyyətdə gerçəkləşdirməsini təmin etmişdir. Qüdrətli dövlət xadimi və böyük siyasi lider kimi Heydər Əliyevin simasında aydın siyasi mövqe ilə dönməz müstəqil dövlətçilik maraqlarına təminat verən möhkəm iradə bir-birini üzvi surətdə tamamlamışdır. Naxçıvanda sadə bir dəmiryolçu ailəsində ilkin zəruri təməlləri atılmış, Dövlət Təhlükəsizlik orqanlarında formalaşmış, Azərbaycan Sovet Respublikasına rəhbərlik edərkən böyük sınaqlardan uğurla çıxmış Heydər Əliyevin siyasi və dövlətçilik mövqeyi, möhkəm iradəsi Sovetlər İttifaqının baş qərargahı olan Siyasi Büroda cərəyan edən Kreml "döyüşlərində" özünü isbat etmişdir. Beləliklə, aydın siyasi və dövlətçilik mövqeyi görkəmli dövlət xadimi Heydər Əliyev üçün hədəf olaraq qəbul etdiyi ideyanı müəyyən edən strategiya, möhkəm iradə isə həmin düşünülmüş strategiyanı həyata keçirmək baxımından seçilmiş taktika idi. Tərcümeyi-halının bütün mərhələlərində Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının baş məqsədi Azərbaycan xalqına sədaqətlə xidmət etməkdən və müstəqil dövlət qurmağa nail olmaqdan ibarət olmuşdur. Bu düşünülmüş, əqidə kimi qəbul edilmiş ümummilli mövqe və müstəqil dövlətçilik strategiyası Heydər Əliyev tərəfindən seçilmiş ən ağıllı və məqsədəuyğun taktika ilə dönmədən həyata keçirilmişdir. Buna görə də haqlı olaraq Heydər Əliyev dünya miqyasında böyük siyasətin qrossmeysteri və əsl strateq kimi qəbul olunur. Hətta Azərbaycan xalqının Ümummilli Liderinə məxsus olan "mövqeyini bildir" ifadəsi Azərbaycanın siyasi və mənəvi mühitində atalar məsəlinə çevrilmişdir. Ümumiyyətlə, bütün məqamlarda aydın və konkret mövqe nümayiş etdirmək tələbi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlət idarəçiliyi məktəbinin açıq dərsidir. Bu, hər bir insanın cəmiyyət qarşısındakı vətəndaşlıq missiyasını yerinə yetirməyə borclu olduğunu, bununla proseslərin aydınlaşdırılmasına və ya inkişaf etdirilməsinə xidmət etdiyini müəyyən edən mənəvi məsuliyyətinin ifadəsidir.

Azərbaycan Sovet Respublikasını geridə qalmış bir respublikadan hərtərəfli şəkildə inkişaf etmiş ölkəyə çevirmək Heydər Əliyevin siyasi məqsədi, strategiyası idi. Bu uzunmüddətli strategiyanı mərhələ-mərhələ həyata keçirmək üçün SSRİ rəhbərliyində apardığı danışıqlar, müzakirələr, bunların əsasında ümumittifaq miqyasında və respublika səviyyəsində qəbul etdirməyə nail olduğu qərarlar görkəmli dövlət xadimi Heydər Əliyevin konkret və aydın mövqeyinin ifadəsi idi. Tarix üçün çox da böyük olmayan 1969-1982-ci illər ərzində Azərbaycan Sovet Respublikasını keçmiş SSRİ-də bütün istiqamətlər üzrə inkişaf etmiş bir ölkə səviyyəsinə çatdırmaq Heydər Əliyevin yorulmaz fəaliyyətinin və böyük iradəsinin nəticəsi idi. Bundan başqa, sovet dövrünün çətin, sərt siyasi-ideoloji mühiti çərçivəsində Azərbaycanda həm də milli maraqların inkişaf etdirildiyi bir dövlətçilik sistemi formalaşdırmaq Heydər Əliyevin müəyyən olunmuş mövqeyi və düşünülmüş strategiyası idi. Həmin ümummilli strategiyanı gerçəkləşdirmək üçün seçilmiş Sovet dövlətinin siyasi-ideoloji prinsiplərinin əleyhinə getmədən müdrik bir taktika ilə ölkədə ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi vasitəsilə məqsədinə çatmaq yollarında atdığı qətiyyətli addımlar yalnız və yalnız Heydər Əliyevin sarsılmaz iradəsinin sayəsində mümkün olmuşdu. Nəinki böyük Azərbaycan şairi Nizami Gəncəvinin və Mirzə Fətəli Axundzadənin, hətta yalnız xalq həyatı ilə bağlı olan ustad Aşıq Ələsgərin də yubileylərini həm respublikada, həm də ümumittifaq miqyasında yüksək səviyyədə qeyd edilməsinə nail olmaq yolu ilə Azərbaycanda milli mədəniyyətin, milli-mənəvi dəyərlərin və nəticə etibarilə milli şüurun inkişaf etdirilməsinə nail olan Heydər Əliyev Sovetlər İttifaqının tərkibində olan digər respublikalarda bu işin həyata keçirilməsinə yol açmışdır. Sovet dövründə erməni-bolşevik qruplaşması tərəfindən məqsədli şəkildə "millətçi" damğası vurulmuş görkəmli dövlət xadimi və böyük yazıçı Nəriman Nərimanova əzəmətli heykəl ucaltmaq niyyətini həyata keçirmək məqamında da Heydər Əliyevin siyasi mövqeyi ilə iradəsinin sarsılmaz vəhdəti onu qələbəyə çatdırmışdı. Fikrimizcə, sovet hakimiyyətinin ən güclü olduğu, hətta Sovetlər İttifaqının tərkibindəki xalqları manqurtlaşdırıb əridərək vahid sovet xalqı formalaşdırmaq siyasətinin həyata keçirildiyi çətin bir şəraitdə Azərbaycan dilini Respublikanın Konstitusiyasına dövlət dili kimi daxil etdirməsi görkəmli dövlət xadimi Heydər Əliyevin apardığı ümummilli siyasətin qələbəsi idi. Dövrün özünəməxsus siyasi-ideoloji çətinliklərini nəzərə almaqla, 1978-ci ildə Azərbaycan dilinin Respublika Konstitusiyasında dövlət dili kimi ayrıca maddədə öz ifadəsini tapması əsl dövlət xadiminin yetirdiyi qəhrəmanlıq hadisəsidir. Və bu təkrarsız qəhrəmanlıq hadisəsi də görkəmli dövlət xadiminin aydın siyasi və dövlətçilik mövqeyi ilə möhkəm iradəsinin nəticəsində baş vermişdir.

Azərbaycanın dövlət müstəqilliyi dövründə də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin aydın və qəti siyasi mövqeyi ilə möhkəm iradəsi xalqımıza və dövlətimizə uğur və qürur gətirmiş, müstəqilliyimizin daha da inkişaf etdirilib möhkəmləndirilməsinə xidmət etmişdir. Bu məqamda ali məqsədlərinə çatmaq üçün sovet dövründə siyasi rejimin dəmir sədlərini aşmağın çətinliklərini yaşamış Heydər Əliyev yeni mürəkkəb tarixi şəraitdə Sovet İmperiyasının dağılması dalğasında meydana çıxmış və kütlə psixologiyasından uzağa gedə bilməyən naşı, başabəla "kiçik padşahların" yaratdıqları süni maneələri dəf etmək vəzifələrini həyata keçirməli olmuşdur. Azərbaycan xalqı, həmişə olduğu kimi, bu taleyüklü həlledici məqamda da dırnaqarası bəyləri deyil, bütün sınaqlardan uğurla çıxmış Heydər Əliyev mövqeyini dəstəkləmişdir. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda böyük siyasətə qayıdışı, dövlət rəhbərliyinə gəlməsi mənsub olduğu xalqın dönməz mövqeyinin ifadəsi idi. Bu məqamda ölkəsinə, xalqına, vətəninə, torpağına xidmət etməyi mənəvi borcu hesab edən Heydər Əliyevin siyasi mövqeyi ilə xalqın milli mənafeləri üst-üstə düşmüşdür.

Sovet dövləti rəhbərliyindən istefaya göndərilməsindən sonra 21 yanvar 1991-ci ildə görkəmli dövlət xadimi Heydər Əliyev Moskvadakı Azərbaycan Daimi Nümayəndəliyinə gələrək, Bakıda 20 Yanvar 1990-cı il faciəsini törətdiyinə görə SSRİ rəhbərliyini sərt tənqid etməklə doğma xalqını müdafiə etməsi Ulu Öndərin kəskin mövqeyini bəyanat səviyyəsinə qaldırmışdır.

Dövlət müstəqilliyi illərində hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ikən SSRİ-nin saxlanılmasına "yox" deməsi, Naxçıvanda həmin məqsədlə ölkə üzrə təşkil edilmiş referendumda Naxçıvan əhalisini iştirak etməməyə çağırması və buna nail olması Heydər Əliyevin siyasi mövqeyinin əməli təzahürü idi.

Hələ SSRİ-nin mövcud olduğu dövrdə Sovetlər İttifaqının bayrağını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası üzərindən endirərək, üçrəngli Azərbaycan bayrağını dövlət rəmzi kimi rəsmi şəkildə qəbul etdirməsi Heydər Əliyev mövqeyinin və iradəsinin qələbəsi idi.

Azərbaycan Respublikasının Prezidenti kimi 1994-cü ildə "Əsrin müqaviləsi" Neft Kontraktının beynəlxalq birlik tərəfindən imzalanması vəzifəsini qətiyyətlə həyata keçirməsi Heydər Əliyevin siyasi mövqeyinin və möhkəm iradəsinin təntənəsi idi. "Əsrin müqaviləsi"ni beynəlxalq miqyasda qəbul etdirmiş görkəmli dövlət xadimi Heydər Əliyev zamanı qabaqlayaraq əsrin Prezidenti mövqeyinə yüksəlmişdir. Bunun ardınca dövlətlərarası böyük maraqların arasında ortaq mövqe tapmaqla Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərini çəkdirməyə nail olmaq Heydər Əliyevin siyasi mövqeyi və möhkəm iradəsi olmadan heç cür baş tuta bilməzdi. Azərbaycanın üçrəngli dövlət bayrağını Avropa İttifaqının önündə, dünya ölkələrinin bayraqlarının cərgəsində dalğalandırmaq üçün də xalqımıza və müstəqil dövlətimizə uzaqgörən, müdrik və qətiyyətli Heydər Əliyev mövqeyi və iradəsi lazım idi.

XX əsrin doxsanıncı illərində Bakıda və Naxçıvanda xarici siyasi-hərbi qüvvələrin dəstəyi ilə müxalifət qüvvələri tərəfindən törədilmiş dövlət çevrilişi cəhdlərindən Heydər Əliyev mövqeyi və iradəsi olmadan çıxmağın mümkün ola bilməsi müsbət cavabı olmayan ritorik sualdır. Heydər Əliyev mövqeyi və iradəsi Azərbaycanda müstəqil dövlətçiliyin taleyini həll edən de-faktdır. Ulu Öndər xalq və dövlətçilik mənasında əsl xilaskarlıq missiyasını həyata keçirmiş liderdir.

Məhz Heydər Əliyev mövqeyi və iradəsi siyasi hakimiyyətdə olduğu dövrdə Azərbaycan xalqını və müstəqil Azərbaycan dövlətini neçə-neçə böyük imtahanlardan çıxarmış, böyük xilaskarlıq missiyasını həyata keçirməyin, ölkəni qoruyub saxlamağın və inkişaf etdirməyin əsl yoluna çevrilmişdir.

Aydın siyasi və dövlətçilik mövqeyi, sarsılmaz iradə Heydər Əliyevin simasında geniş dünyagörüş və zəngin həyat təcrübəsi ilə zənginləşdirilmiş və bütövləşmişdir. Böyük tarixi şəxsiyyət və görkəmli dövlət xadimi olmağın düsturu olan bu xüsusiyyətlərə malik olması Heydər Əliyevi Azərbaycan xalqının və dövlətçiliyinin çoxəsrlik tarixinin əbədiyyət qazanmış, nadir tarixi şəxsiyyəti səviyyəsinə yüksəltmişdir.

Müstəqil Azərbaycan görkəmli dövlət xadimi Heydər Əliyev mövqeyinin və iradəsinin şah əseridir. Heydər Əliyevin mövqeyi və iradəsi onun böyük şəxsiyyətinin meyarlarıdır. Konkret mövqe ifadə etmək və aydın siyasi-mənəvi iradəyə malik olmaq Ulu Öndər Heydər Əliyevin nümunəsində sınaqlardan çıxmış dəyərlərdir. Bu da böyük siyasətdə Heydər Əliyev dövlətçilik məktəbinin ibrətamiz dərsləridir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın tarixində də, sabahında da iştirak edən, xalqımızın və ölkəmizin yollarına daim işıq salan tarixi şəxsiyyətdir. Möhkəm müstəqil dövlətçilik mövqeyi, dönməz iradə və ümummilli ideallar Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli Lideri mövqeyinə çatdırmışdır. Heydər Əliyevin qazandığı ümummilli liderlik ucalığı Azərbaycan xalqının siyasi və mənəvi ucalığının rəmzidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya dövlətləri içərisində özünəməxsus aydın mövqeyi və möhkəm siyasi iradəsi, konkret dövlətçilik strategiyası və taktikası olan beynəlxalq səviyyədə həm də qlobal baxışları ilə səciyyələndirilən qüdrətli liderdir.

Prezident İlham Əliyev müstəqil Azərbaycan dövlətinin mövqeyini heç nə ilə dəyişməyən, əksinə, hər dəfə inkişaf etdirib möhkəmləndirən görkəmli dövlət xadimidir.

Azərbaycan Respublikasının bütün istiqamətlər üzrə inkişaf etdirilərək dünyanın böyük dövlətlərinin orbitinə gətirib çıxarmaq İlham Əliyevin siyasi iradəsinin möhtəşəm yekunudur.

Bu gün dünya dövlətləri arasında müstəqil Azərbaycan Respublikasının, ölkələrin və xalqların cərgəsində isə Azərbaycan xalqının yerinin, nüfuzunun, sözünün qüvvətləndirilməsi Prezident İlham Əliyevin aydın siyasi mövqeyi ilə möhkəm iradəsinin mühüm yekunudur.

Azərbaycan Respublikasının müstəqillik tarixi ərzində bütün məqamlarda dövlət rəhbəri ilə daim həmrəylik nümayiş etdirməsi artıq Azərbaycan xalqının mövqeyinin ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirusla mübarizə dövründə ölkə daxilində dövlət səviyyəsində həyata keçirdiyi tədbirlər, vaxtında atdığı qətiyyətli addımlar ölkəmizdə illərdən bəri formalaşmış birlik və həmrəyliyin daha da inkişaf etdirilərək möhkəmləndirilməsinə təkan vermişdir.

Pandemiya günlərində Azərbaycan Respublikası Prezidentinin koronavirus bəlasına qarşı birlikdə mübarizə aparmaq mövqeyi beynəlxalq birlik tərəfindən də dəstəklənmişdir. Türk Dövlətləri Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin prezidentləri və Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin başçıları, bir sıra beynəlxalq təşkilatların rəhbərləri ilə Prezident İlham Əliyevin keçirdiyi onlayn Zirvə görüşləri Azərbaycan dövlətinin mövqeyini bəyan edən və qlobal çağırışları meydana qoyan nadir tarixi hadisələrdir. Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu bir beynəlxalq qurumun sədrinin Azərbaycan Respublikası Prezidentinin çoxcəhətli fəaliyyətinə verdiyi yüksək qiymət nəticə etibarilə dövlət başçısının timsalında Azərbaycan dövlətinin tarixin bu məsuliyyətli dövründə nümayiş etdirdiyi mövqeyin dünya miqyasında dəstəklənməsi deməkdir. Sözün əsl mənasında, koronavirusla mübarizə günlərində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına məxsus ali keyfiyyətlərə malik olduğunu nümayiş etdirir. Ölkə daxilində koronavirusa qarşı aparılan mübarizənin "Biz birlikdə güclüyük!" və Qoşulmama Hərəkatı səviyyəsində beynəlxalq miqyasda nümayiş etdirilən mövqeyin "COVID-19-a qarşı birlikdə" adlandırılması Prezident İlham Əliyevin səylərinin və təşəbbüslərinin mahiyyətini və mənasını dolğun şəkildə ifadə edir. Bununla da Azərbaycan Respublikasının Prezidenti öz ölkəsi ilə dünya dövlətlərinin mövqelərini yaxınlaşdırmaq, birləşdirmək üçün konkret və aydın mövqe meydana qoyur. Vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Sovetlər İttifaqı və Azərbaycan masştabında göstərdiyi siyasi mövqeyin sərhədləri daha da genişləndirilərək beynəlxalq miqyas səviyyəsinə qaldırılmış olur. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəsini və xalqını dünya miqyasına çıxarmaq istiqamətindəki dönməz mövqeyinin növbəti qələbəsidir.

Dünya ölkələrində siyasi hakimiyyətlərin böhranla üzləşdiyi çətin zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doxsan beş faiz reytinq nümayiş etdirməsi dövlət başçısına qədirbilən xalqımızın bəslədiyi aydın mövqeyinin konkret əməli təzahürüdür. Bu məqamda xalqını və dövlətini inkişaf etdirmək üçün var qüvvəsi ilə çalışaraq böyük nailiyyətlərə imza atmış Prezident İlham Əliyevin mövqeyi ilə onu ürəkdən dəstəkləyən xalqın mövqeyi üst-üstə düşür və vəhdət təşkil edir.

*Azərbaycan dövlətçiliyini çətin sınaqlardan çıxarmış Heydər Əliyev mövqeyi Prezident İlham Əliyevin ölkə daxilində və beynəlxalq aləmdə nümayiş etdirdiyi aydın siyasi mövqe və möhkəm iradə ilə birlikdə xalqımıza və ölkəmizə böyük nüfuz qazandırır, daha geniş üfüqlərə doğru addımlamaqda güc və qüvvət verir.*

**İsa HƏBİBBƏYLİ,**
***Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

# Təhsilin böyük qayğıkeşi

**Yaşadığımız dünyanın mövcudluğu, inkişafı və zənginliyi dahi şəxsiyyətlərin əməllərinin sayəsində mümkün olur. Belə şəxsiyyətlər təkrarsız və bənzərsiz şəxsiyyətlərdir. Hətta demək olar ki, bu şəxsiyyətlər 100 ildə bir dəfə dünyaya gəlir, yaşayır, yaradır və xalqına, dövlətinə, ümumilikdə isə dünyaya əvəzsiz töhfələr verirlər. Birmənalı şəkildə demək olar ki, dövlətimizin və xalqımızın nicatı, xilası və xoşbəxt gələcəyi naminə hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyev də məhz belə bənzərsiz dahi şəxsiyyətdir.**

Dahi Öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun qoyduğu yol bugünkü Azərbaycan təhsilinin özəyini təşkil edir.

Təhsil hər bir dövlətin inkişafının əsas özülü sayılır. Məhz güclü rəqabətin qlobal inteqrasiyasının, beynəlxalq əməkdaşlığın sürətlə yayıldığı müasir dünyamızda hər bir dövlət öncül yerlərdən birini tutmağa çalışır. Azərbaycan da bu qlobal dünyanın artıq bir üzvünə çevrilib. Bu baxımdan təhsilimizin müasir dünya standartları səviyyəsində qurulması dövlətin başlıca prioritetlərindəndir. Azərbaycan təhsili sağlam, intellektual gənc nəslin formalaşdırılması məqsədlərinə nail olmaq üçün geniş imkanlar yaradır. Dövlətin bu sahəyə xüsusi diqqəti atılan addımlarda, qəbul edilmiş qərarlarda və təhsilin, elmin inkişafına ayrılan vəsaitlərin səviyyəsində özünü göstərir.

Azərbaycan təhsilinin uğurlu inkişafı Ulu Öndərlə əlaqədardır.

Bu gün gündəlik həyat və fəaliyyətimizin hər addımında bu dahi insanı xatırlayır, onun nəcib və uzaqgörən əməllərinin xoş nəticələri ilə rastlaşırıq.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu kontekstdən yanaşanda Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını və beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən Ümummilli Lider ölkədə təhsil sahəsində islahatların aparılmasının zəruriliyini vurğulayaraq hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi.

Ulu Öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".

Həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycanda müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi belə bir nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq üçün isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-idtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilib. Bu mənada Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmdə reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dününənə və bu gününə diqqət yetirmək kifayətdir.

Bir faktı qeyd etmək kifayətdir ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir. Belə ki, Ulu Öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Dahi şəxsiyyət öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq demişdir: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev keçmiş SSRİ dövründə, yəni Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə beş yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi sayəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Dövlət başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Ulu Öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyil və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür.

Dahi Liderin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür, çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda harada ki, baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması da qeyri-mümkündür.

Ümumiyyətlə, dövlətin iqtisadı qüdrətini onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalı, elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir.

Bu da danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır.

Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları keçirilir ki, bu da elmə və təhsilə olan marağı daha da artırır.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində Ümummilli Liderin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qeyd olunmalıdır ki, islahatların aparılması təhsil siyasətinin mühüm amillərindəndir.

Milli Tərbiyə Konsepsiyasının hazırlanması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, "Təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqramı"nın təsdiqi və praktiki tətbiqi, təhsildə elmi istiqamət faktorlarının gücləndirilməsi, təhsillə elmin vəhdətini təmin etmək məqsədilə prioritet sahələr üzrə elmi araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində fəaliyyətin müntəzəm olaraq davam etdirilməsi və digər məsələlərdən strateji istiqamətlər aydın görünür.

Ulu Öndər Heydər Əliyevin elm və təhsil siyasətinin prioritetlərindən biri də hər iki sahənin idarə edilməsinə yeni yanaşmanın olmasıdır. Belə ki, əgər güclü təhsil sistemi gələcəyin elmi tədqiqatçılarının hazırlanmasına xidmət edirsə, elmi araşdırmalar da, öz növbəsində, ölkənin ayrı-ayrı sahələrinin müasir tələbata və qabaqcıl təcrübəyə uyğun inkişafını təmin etməlidir.

Günümüzün reallıqları sübut edir ki, hazırda Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir.

Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da, şübhəsiz, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfə verir.

Təhsil sahəsində aparılan islahatlar, qəbul olunan dövlət proqramları, həmçinin 2011-2021-ci illərdə Azərbaycanda təhsilin inkişafı üzrə Milli Strategiyanın hazırlanması, müsabiqələrin keçirilməsi bir daha təhsilin Azərbaycan Prezidentinin diqqət mərkəzində olduğunun göstəricisidir.

Artıq bu günün reallıqları sübut edir ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır.

Sonda qeyd etmək istəyirəm ki, xeyirxah, vətənpərvər, yaradıcı, millətini hər şeydən uca tutmağı bacaran, həyatının hər anı xalqının taleyinə bağlı olan dahi insanlar haqqında heç vaxt keçmiş zamanda danışmırlar. Sadəcə olaraq dünyasını dəyişdi, deyirlər. Həm də bu cür adamların bioloji yoxluğu onların mənəvi varlığı ilə əvəzlənir. Yəni belə insanlar bizi tərk etdiyi anda başqa bir formada, yəni mənəvi cəhətdən hər zaman bizimlədir.

Heydər Əliyev xalqın böyük mənəvi dəyərinə, ümid və and yerinə çevrilməklə əbədiyyətə qovuşaraq daim bizimlədir. Çünki Ulu Öndər dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaq və bu irs heç zaman tükənməyəcək.

**Kamilə ƏLİYEVA,**
***Milli Məclisin deputatı, BDU-nun Genetika kafedrasının müdiri, biologiya elmləri doktoru, professor***



# Dünyanın ən böyük azərbaycanlısı

Əvvəli 1-ci səh.

Məhz o dövrdə atılan uğurlu addımların nəticəsində Azərbaycan keçmiş ittifaqda ən sürətlə inkişaf edən respublika olmuşdur. Ümummilli Liderin o dövrdə gördüyü işlər onun Azərbaycanı gələcəkdə müstəqil görmək istəyini ortaya qoyurdu. Respublikanın iqtisadi qüdrətinin artırılması ilə yanaşı, təhsil və elm ocaqlarının yaradılmasına, hərbi kadrların hazırlanmasına göstərdiyi diqqət bunun bariz nümunəsidir. Həmin illərdə minlərlə Azərbaycan gənci keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaga göndərildi, C.Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Bu gün böyük inamla qeyd edirik ki, müstəqil Azərbaycana hərbi sahədə ləyaqətlə xidmət edən, ali hərbi rütbələrə qədər yüksələn onlarca zabitimiz həmin məktəbin məzunları, müxtəlif dövlət strukturlarında yüksək vəzifə tutan şəxslərin əksəriyyəti məhz həmin illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Sovet İttifaqının ən aparıcı ali məktəblərində təhsil alan şəxslərdir.

Ulu Öndərin tarixi missiyasının ən parlaq dövrü isə 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlamışdır. Başqa sözlə desək, xalqımız 1991-ci ildə müstəqilliyinə qovuşsa da, bu sevinci Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yaşadı. Dahi şəxsiyyət o çətin illərdə xalqının səsinə səs verməklə bir daha Vətən, xalq, dövlət məfhumlarının onun üçün nə qədər əziz olduğunu göstərdi. Ümummilli Liderin aforizmə çevrilən "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq ondan da çətindir" tezisi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinin, qorunmasının önəminə işıq saldı. Xalqımız Heydər Əliyev yolunun ölkəmizə qazandırdığı uğurları gördükcə sabaha daha böyük ümidlərlə addımladı. Vətənini, ölkəsini, xalqını sevən liderə milyonların sevgisi şəksizdir. 1993-cü ildən başlanan Heydər Əliyev yolu hər günü Azərbaycanın tarixinə uğur səhifəsi kimi yazır. Heç də səbəbsiz deyildir ki, bu gün Azərbaycan xalqı beynəlxalq qurumların hesabatlarında dünyanın ən xoşbəxt xalqı kimi qərar tutub. Xalq-Prezident birliyi və həmrəyliyi davamlı uğurların, hər bir xalqın xoşbəxtliyinin açarıdır. Ən əsası azərbaycançılıq ideyası ətrafında sıx birlik müstəqillik yolunda ilk addımlarını atan bir dövlətin beynəlxalq aləmdə təqdimatına stimul oldu.

## Sabitlik, firavanlıq və inkişafa aparan yol

Arxada qalan hər il Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha aydın göstərir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra hər gününü tarixinə uğur səhifəsi kimi yazan Azərbaycan sürətli inkişafı ilə sanki zamanı qabaqladı. Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, bu uğurlar böyük səylərin və qətiyyətin nəticəsidir.

Təbii ki, bu inkişafı yaşyan olan kəs bəzən əldə olunan uğurların, baş verən yeniliklərin fərqində olmur, amma baş verənləri kənardan izləyənlər nəinki gündən-günə, hətta hər saat, hər saniyə bu inkişafı görür, onun dayanıqlılığının qaçılmaz olduğunu günün əsas reallığı kimi qəbul edir. Bu inkişafa əsas verən başlıca amil ölkədə sabitliyin və insanlarda sabaha inamın yaranmasıdır. Azərbaycan xalqı dövlətçiliyimizin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü bir zamanda, yəni 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını tələb etdi. 1991-ci ildən 1993-cü ilin iyununadək olan dövr çətin və təlatümlü dövr idi. Ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, şəxsi ambisiyalarının quluna çevrilmələri, dövlət, xalq kimi məfhumları maraqlarının arxasında gizlətmələri Azərbaycanın gələcəyi üçün qaranlıq olan bir mənzərəni yaratmışdı. Azərbaycanın bir dövlət olaraq varlığı şübhə altında idi. Azərbaycan tarixinə qaranlıq bir dövr kimi yazılan o illər hakimiyyət hərisliyinin hansı uğursuzluqlara yol açdığını bir daha nümayiş etdirdi. Birillik hakimiyyətləri dövründə Azərbaycanı "olum, yoxsa ölüm" dilemması qarşısında qoyan AXC-Müsavat cütlüyünün yarıtmaz siyasətinin xalqın sabaha ümidlərini itirdiyi bir zamanda dahi şəxsiyyət Heydər Əliyev xalqın yanında oldu. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı müstəqilliyimizin ilk illərinin xaosundan, anarxiyasından, özbaşınalıqlarından və iqtisadi tənəzzülündən xilas etdi.

Ümumiyyətlə, xalqa xidmət etmək Ulu Öndərin başlıca missiyası idi. Azərbaycanın müstəqilliyə qədərki dövründə də, müstəqillik illərində də Ulu Öndər Heydər Əliyev daim xalqın yanında idi. Bu məqamı xüsusi qeyd etməliyik ki, müstəqilliyimizə qəsd kimi dəyərləndirilən 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Ümummilli Lider Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirmiş, Sovet rəhbərliyini, Kommunist Partiyasını ittiham etmiş, bu qanlı faciəni pisləmiş və bütün dünyaya həqiqəti çatdırmışdır. Ondan sonra isə Kommunist Partiyasının sıralarını tərk etmişdir. Bu cəsarətli addım Ulu Öndərin xalqa nə qədər bağlı olduğunu göstərdi.

Dövlət başçısı İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə tariximizin ayrı-ayrı dövrlərinin təhlili fonunda müstəqilliyimizin ilk illərinin aydın mənzərəsini təqdim etmişdir. "Müstəqilliyə gedən yol da Heydər Əliyevin adı ilə bağlıdır", - söyləyən cənab İlham Əliyev bir daha bu reallıqları diqqətə çatdırmışdır ki, Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar - ikisi Moskvaya, biri Kələkiyə. Bu, fərarilikdir, satqınlıqdır və xəyanətdir: "Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər".

Düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə daxili sabitliyi təmin edən Ulu Öndər Heydər Əliyev bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Ümummilli Liderin gərgin səyləri nəticəsində 1994-cü ilin mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması da sabitliyin təminatında və digər sahələrin inkişafında əhəmiyyətli rol oynadı. Bu mühüm məqamı da qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində həmçinin pərdəarxası oyunlara, siyasi anarxiyaya son qoyuldu, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Belə ki, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişləri cəhdlərinin qarşısı Ümummilli Liderin qətiyyəti sayəsində alınaraq dövlət müstəqilliyimizin qorunub saxlanılması təmin edildi. Bütün bu addımlar isə öz növbəsində Azərbaycanda müstəqil dövlət təsisatlarının yaranmasını, ilk Konstitusiyanın qəbulunu zərurətə çevirdi.

## Xeyirxahlıq və humanizm

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra demokratik və hüquqi dövlət quruculuğu istiqamətində uğurlu addımlar atıldı. Bu missiya onun hakimiyyətinin hər iki dövrü üçün səciyyəvi idi. Əvvəldə də qeyd etdiyimiz kimi, Ümummilli Lider hakimiyyətinin birinci dövründə hər il dövlət hesabına keçmiş İttifaqın ayrı-ayrı şəhərlərində yüzlərlə Azərbaycan gəncinin müxtəlif ixtisaslar üzrə təhsil almalarına nail olmuşdu. Uzun illər davam edən bu proses nəticəsində güclü mütəxəssislər ordusu formalaşdı və çoxsaylı alimlər yetişdi. Bu gün Azərbaycanın müxtəlif sahələrində çalışan həmin dövrün məzunları dahi şəxsiyyət Heydər Əliyevin xeyirxah əməllərindən böyük minnətdarlıq hissi ilə bəhs edirlər. Xeyirxahlıq, mərhəmət, ehtiyacı olanlara maddi və mənəvi dəstək kimi keyfiyyətlər Ümummilli Liderin fəaliyyətinin əsas istiqamətlərindən olub.

Ümummilli Liderin bilavasitə rəhbərlik etdiyi komissiya tərəfindən işlənib hazırlanan və 1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin demokratik dəyərlərə sadiq dövlət kimi inkişafına geniş yol açdı. Konstitusiyada əksini tapan maddələrin böyük əksəriyyəti insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. 1998-ci ilin fevralın 10-da ölüm hökmünün ləğvi ilə Azərbaycanın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşdü. Ümummilli Lider ölüm hökmünü ləğv etməklə bəşəri humanizmə, beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirdi.

1995-ci ildən başlayaraq mühüm hadisələr və bayramlar ərəfəsində əfv fərmanları və sərəncamlarının imzalanması, amnistiya aktlarının qəbul edilməsi sistemli xarakter aldı. Səhvini anlayan, əməllərindən peşmançılıq keçirənlər Ulu Öndər Heydər Əliyev tərəfindən əfv edilir və onların yenidən normal həyata qayıtmalarına imkan yaradılırdı. 1995-2003-cü illərdə 32 əfv fərmanı və sərəncamını imzalayan, 7 amnistiya aktını qəbul edən Ümummilli Lider humanizmin ölkədə həyata keçirilən hüquqi siyasətin əsas prinsiplərindən biri olduğunu təsdiqlədi.

Son 16 ildən artıq bir dövrdə bu siyasət cənab Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Belə ki, bu müddət ərzində 34 əfv sərəncamı, 4 amnistiya aktı qəbul olunub. Azərbaycanda, onun hüdudlarından kənarda mərhəmət, insansevərlik, şəfqət və nəciblik mücəssəməsinə çevrilən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Milli Məclisin deputatı olarkən amnistiya aktlarının qəbulu ilə bağlı qanunvericilik təşəbbüsləri ilə çıxış etmiş, on minlərlə məhkumun cəzası tam və qismən ləğv edilmişdir. Dövlət başçısı İlham Əliyevin son aylar pandemiyanın dünyanı çənginə aldığı bir zamanda "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 6 aprel 2020-ci il tarixli Sərəncamına əsasən, 176 məhkum azadlığa qovuşdu. Sərəncam koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan və yaşı 65-dən yuxarı olan məhkumlara şamil olundu.

Bütün bunlar bir daha təsdiqləyir ki, insanpərvərlik və humanizm prinsipləri 28 ildən artıq müstəqillik tarixinə malik olan Azərbaycanın dövlət siyasətinin təməl prinsipləri kimi tətbiq və təşviq olunmaqdadır. Humanizm siyasəti vətəndaş-dövlət münasibətlərinin inkişafında da əsas amillərdən biridir. Belə ki, dövlət hər bir vətəndaşının yanında olduğunu təsdiqləməklə əfv etdiyi insanların cəmiyyətə qayıtmalarına və qanunlarımıza riayət etmələrinə yenidən şans verir.

## "Əsrin müqaviləsi": iqtisadi tərəqqi, yüksək rifah

Hər bir ölkənin inkişafını şərtləndirən bir sıra amillər mövcuddur. Ölkənin malik olduğu təbii resurslardan səmərəli istifadə prioritet istiqamətlərdəndir. Ulu Öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi uzaqgörən siyasətindən irəli gəlirdi. 1994-cü ilin sentyabrın 20-də dünyanın aparıcı transmilli şirkətləri ilə tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanması Azərbaycanın iqtisadi tərəqqisində və insanların yüksək rifahının təmin edilməsində əhəmiyyətli rol oynadı. Cənab İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibəti ilə xalqa təbrikində bildirmişdir ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, Azərbaycanın hazırkı iqtisadi inkişafını, beynəlxalq mövqeyini təsəvvür etmək çətin deyildi. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri olmasaydı, Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri olmasaydı, "Cənub qaz dəhlizi"ndən danışmaq qeyri-mümkün idi.

Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz layihələrinin 2006 və 2007-ci illərdə reallığa çevrilməsi, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması, 2018-ci ilin mayında dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunu artıran "Cənub qaz dəhlizi"nin rəsmi açılışı, həmçinin həmin ilin iyununda "Cənub qaz Dəhlizi"nin əsas tərkib hissələrindən olan TANAP-ın istifadəyə verilməsi və s. kimi bir-birindən mühüm hadisələr "Əsrin müqaviləsi"nin ölkəmizə böyük uğurlar qazandırdığını bir daha dünyaya bəyan edir. Cari ildə isə TAP-ın istifadəyə verilməsi nəzərdə tutulur. Azərbaycan bu layihələrin uğurlu icrasına nail olmaqla dünyanın enerji xəritəsini dəyişir.

Neft gəlirlərinin idarə olunmasında şəffaflığın yüksək səviyyədə təminatı məqsədilə 1999-cu ilin dekabrında Ümummilli Liderin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunun vəsaitləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir ki, bunlar da ölkənin hərtərəfli inkişafını sürətləndirir. 1 aprel 2020-ci il tarixinə olan məlumata əsasən, Dövlət Neft Fondunun vəsaitlərinin həcmi 41 milyard dollardan artıqdır.

Ölkəmizin iqtisadi imkanlarının artması əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlara yol açdı. Neft gəlirlərinin düzgün istiqamətləndirilməsi nəticəsində digər neftlə zəngin ölkələrdən fərqli olaraq Azərbaycanda təbəqələşmə prosesi getmir, əksinə, yoxsulluq və işsizlik problemlərinin aradan qaldırılması istiqamətində davamlı addımlar atılır. "Əsrin müqaviləsi" Azərbaycanı böyük investisiyalar məkanına çevirdi. Son 16 ildən artıq bir dövrdə ölkə iqtisadiyyatına 270 milyard dollardan artıq investisiya yatırılıb. Valyuta ehtiyatlarının həcmi 52 milyard dollardan artıqdır.

Bu gün böyük inamla qeyd edirik ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası ölkəmizə böyük uğurlar qazandırır. Neft siyasətinin məntiqi davamı kimi iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olması istiqamətində atılan addımların, həyata keçirilən regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində son 16 ildə 2 milyondan artıq yeni iş yeri yaradılıb. Bu gün ölkədə yoxsulluğun səviyyəsi 4,8 faizdir. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə yoxsulluğun səviyyəsi 49 faiz idi. Möhtərəm Prezidentimiz İlham Əliyevin bölgələrə hər səfəri yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. Bu gün bölgələrimizin siması tamamilə dəyişib, yol infrastrukturu yenilənib, işıq, su təminatı yüksək göstəricilərlə ifadə edilir. Minimum əməkhaqlarının, minimum pensiyaların, müavinətlərin məbləği artıb. Bütün bu uğurlar Ulu Öndər Heydər Əliyevin "Neft - Azərbaycanın ən böyük sərvəti olub xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" tezisinin reallıqda öz əksini tapmasının təsdiqidir.

## Azərbaycan - regional iqtisadi inkişafın aparıcı qüvvəsi, dünya birliyinin fəal üzvü

Ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin uğurlu icrası regional iqtisadi inkişafa böyük töhfələr verir. BTC və BTƏ neft-qaz layihələrinin icrası, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycan, Gürcüstan və Türkiyənin siyasi iradəsinin və qətiyyətinin nəticəsidir. Daim vurğulandığı kimi, əməkdaşlıq əlaqələri öncə regional çərçivədən başlanmış və beynəlxalq əməkdaşlığa doğru inkişaf etmişdir. Artıq "Cənub qaz dəhlizi" çoxtərəfli əməkdaşlığın başlanğıcıdır. Getdikcə layihələrin əhatə etdiyi ölkələrin coğrafiyası da genişlənir. İqtisadi müstəqilliyin təminatı siyasi müstəqilliyə geniş imkanlar açır. Belə ki, dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın iştirakı olmadan regionda hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi qeyri-mümkündür.

Azərbaycanın bayrağının dünyanın ən nüfuzlu təşkilatlarının qarşısında dalğalanması, dünyada gedən proseslərə təsir imkanlarının artması da Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Ümummilli Lider Azərbaycan həqiqətlərinin təbliğini, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasını qarşıya mühüm vəzifə kimi qoyaraq bu istiqamətdə davamlı addımlar atdı. Erməni yalanları əsaslı şəkildə dünyaya bəyan edildi, ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılmasına nail olundu. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni işğalçılarının bu ərazilərdən qeyd-şərtsiz çıxarılması öz əksini tapıb. Ulu Öndərin xarici ölkələrə elə bir səfəri yox idi ki, Dağlıq Qarabağ problemi əsas müzakirə mövzusu olmasın.

Son 16 ildən artıq bir dövrdə Ümummilli Liderin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin səyləri nəticəsində diplomatik uğurlarımızın miqyası daha da genişlənib. Belə ki, 2011-ci ildə Azərbaycanın 193 ölkədən 155-nin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 2019-cu ildə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünə, həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünə evsahibliyi Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin uğurlu siyasətinin təntənəsidir. Azərbaycan haqqı, ədaləti müdafiə edən, bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında çözülməsini istəyən ölkə olaraq dünya birliyində yeri və rolunu artırır.

Hazırda dünyanı bürüyən pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində də Azərbaycanın beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində atdığı addımlar təqdir edilir. Belə ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Burada qlobal problem olan pandemiyaya qarşı birgə addımların atılmasının və həmrəyliyin gücləndirilməsinin zəruriliyi məsələsi irəli sürüldü. Möhtərəm Prezidentimiz bu birliyin, həmrəyliyin coğrafiyasını genişləndirərək Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Böyük dəstək qazanan bu təşəbbüs bir daha Azərbaycan dövlətinin birgə əməkdaşlıqda, səylərin birləşdirilməsində nə qədər maraqlı olduğunu açıqlayır.

## Yeni Azərbaycan Partiyasına milyonların sevgisi şəksizdir

Ümummilli Liderin xalqımız qarşısındakı xidmətləri sırasında bu gün ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvə olan, sıralarında 750 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Tarixi zərurətdən, xalqın istəyi əsasında yaranan bu partiya qısa zamanda milyonların sevgisini qazandı. Yaranmasından 7 ay sonra iqtidar partiyasına çevrilən YAP hazırda nəinki ölkənin, hətta regionun aparıcı siyasi təşkilatına çevrilib. Ölkəmizin çətin günlərində, sabaha ümidlərin itdiyi bir zamanda tarixə "91-lər"in müraciəti kimi yazılan, xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalının Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı Ulu Öndər Heydər Əliyevə müraciəti və onun müraciətə sabahımıza böyük ümidlərlə dolu cavabı bugünkü reallıqların əsası oldu.

1992-ci ilin noyabrın 21-də Naxçıvanda təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının hazırda sıralarında birləşən minlərlə üzvünün hər biri Heydər Əliyev ideyalarını, onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır.

Azərbaycanın müstəqillik tarixinin bələdçisi olan Yeni Azərbaycan Partiyasına xalqın sevgisinin, inamının göstəricisi kimi ölkədə keçirilən seçki proseslərindən böyük qələbələrlə çıxması xüsusi önə çəkilir. Azərbaycanın uğurlarında payı olan YAP-ın fəaliyyətinin əsasında dövlətə, xalqa xidmət dayanır, partiyamız daim ölkəmizin qüdrətlənməsi, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində yeni-yeni hədəflərə doğru inamla irəliləyir. Partiyanın son növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı təşəbbüsü ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. YAP ölkədə bütün sahələri əhatə edən islahatların qanunverici orqanda da öz əksini tapmasında maraqlı olduğunu açıqladı. Cari ilin fevralın 9-da keçirilən növbədənkənar parlament seçkiləri Azərbaycanın demokratik inkişafının göstəricisi olmaqla yanaşı, Yeni Azərbaycan Partiyasının cəmiyyətdə artan nüfuzuna işıq saldı. Belə ki, partiya "Daha qüdrətli Azərbaycan naminə" deyib növbəti dəfə tarixinə uğur, qələbə səhifəsini yazdı. Sözlə əməl birliyi olan, populizmdən uzaq partiyaya xalqın dəstəyi qaçılmazdır.

## Heydər Əliyev yolu davam edir

2003-cü ildən sonrakı dövr Azərbaycan tarixinə müasirləşmə, yeniləşmə, təkmilləşmə illəri kimi daxil olub. Həmin il cənab İlham Əliyevin xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Prezident seçilməsi Heydər Əliyev siyasətinin təntənəsi kimi dəyərləndirildi. Heydər Əliyev siyasətinə sadiq qalacağını yüksək kürsüdən bəyan edən dövlət başçısı İlham Əliyev atdığı ilk addımdan vədini əməli fəaliyyəti ilə doğrultduğunu nümayiş etdirdi.

Hər sahədə davamlı inkişafın təmin olunması üçün səylər göstərildi. Ulu Öndər Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə yüksək dəyər verməsi növbəti mərhələdə qeyri-neft sektorunun inkişafını sürətləndirdi. Regionların potensial imkanlarından səmərəli istifadə etmək məqsədi regional inkişaf proqramlarının uğurlu icrası işsizlik, məşğulluq kimi məsələlərin həllinə geniş imkanlar açdı.

Son 16 ildən artıq bir dövrdə Azərbaycan bütün sahələrdə bir-birindən daha əhəmiyyətli uğurlara imza atıb. İqtisadi tərəqqi bütün istiqamətlərdə önəmli addımların atılmasını şərtləndirdi. İslahatların zamana görə təkmilləşməsi, idarəçilik sistemində yeniləşmə davamlı uğurları təmin edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirilən siyasətə dəstəyi fonunda gördüyü işlərin miqyası olduqca böyükdür. Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi fəaliyyətində sosial layihələrin icrasına xüsusi diqqət göstərir. Bu layihələrdə məcburi köçkünlərin və qaçqınların sosial müdafiəsinin gücləndirilməsi prioritetdir. Dövlət başçısı İlham Əliyev bu günlərdə 3042 məcburi köçkün ailəsi üçün yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olarkən bildirilmişdir ki, Mehriban xanım Əliyevanın tapşırığına əsasən Sumqayıt üçün yol xəritəsi hazırlanıb. Şəhərdə inzibati binalarda çətin vəziyyətdə məskunlaşan köçkünlərimizin sayı 3 mindən bir az çoxdur. Onlar və Abşeron rayonunda inzibati binalarda çətin vəziyyətdə yaşayan 1500-dən çox insan bu məhəllələrdə məskunlaşdırılacaq.

Prezident İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva hər zaman çıxışlarında qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə reallaşdırılan tədbirlərin ardıcıl xarakter daşıdığını önə çəkməklə həm də bu əminliyi ifadə edirlər ki, bunlar müvəqqətidir, tezliklə işğal altındakı torpaqlarımız azad olunacaq və soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Təbii ki, bu əminlik Azərbaycanın diplomatik mübarizədə qazandığı uğurlara və hərbi qüdrətimizə əsaslanır. Məhz bu uğurlara, cənab İlham Əliyevin düşünülmüş siyasətinə söykənərək vətəndaşlarımız bu inamı ifadə edirlər ki, pandemiyaya qarşı mübarizə öz müsbət nəticəsini verəcək, Azərbaycan sonrakı mərhələdə yeni iqtisadi və sosial inkişaf modeli ilə dayanıqlı inkişafını təmin edəcəkdir. Dövlət başçısı İlham Əliyevə ünvanlanan minnətdarlıq məktublarında da həyata keçirilən siyasətə dəstək öz aydın ifadəsini tapır. Bu əminlik də öz əksini tapır ki, cənab İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində Azərbaycan bu mübarizədən az itki ilə çıxacaqdır. "Biz birlikdə güclüyük!" çağırışına əməldə dəstək mübarizə tədbirlərinin nəticələrində də özünü qabarıq şəkildə büruzə verir.

## Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Ümummilli Liderin xidmətlərinin təqdimatında əhəmiyyətli rol oynayır

Ümummilli Lider Heydər Əliyevin irsinin təbliği məqsədilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələri həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Prezident İlham Əliyev 2015-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanı Vətənimizin ən ali mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif edərkən bildirmişdir ki, fondun bütün təşəbbüsləri milli ruha əsaslanır: "Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyaya təqdim edilməsi - bütün bu şərəfli funksiyalar bu fondun üzərinə düşür".

Fondun Azərbaycan reallıqlarının - musiqimizin, xalçaçılıq sənətimizin, muğamın, digər mədəniyyət incilərimizin dünyaya təqdim edilməsi, təhsilimizin, səhiyyəmizin, dilimizin, tariximizin inkişafı, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində təbliğat xarakterli materialların yayılmasına yönələn işlərinin miqyası genişdir. Bu qurumun çoxşaxəli fəaliyyəti daim xalqımız tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini xüsusi olaraq qeyd etməliyik. Bu proqramın başlanması nəticəsində son illər ölkəmizdə 3 mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilərək istifadəyə verilib. Fondun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşkilatçılığı ilə həyata keçirilən layihələrin əsasında uşaqlara qayğı da xüsusi yer tutur. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və digər dərmanlarla təmin edilirlər. Fondun "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində görülən işlər də təqdirəlayiqdir.

Bu günlərdə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına bütün idarə və müəssisələr, strukturlar, sadə vətəndaşlar qoşularaq bu addımı mərhəmətin, xeyirxahlığın təcəssümü kimi dəyərləndirirlər. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü qoşulanlara təşəkküründə bildirmişdir: "Azərbaycan xalqının hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olması, əl-ələ verərək çətinlik və sınaqlardan birlikdə üzüağ çıxması bizim ən gözəl xüsusiyyətlərimizdən biridir. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlarımızın qoşulması bunu bir daha göstərdi. Bu nəcib təşəbbüsə qoşulan hər kəsə dərin minnətdarlığımı bildirirəm Qoy, xoş əməllərin sayı artsın!"

16 ildən artıq yol keçən Heydər Əliyev Fondunun gördüyü işləri Mehriban xanım Əliyevanın bu fikirləri ilə ümumiləşdirə bilərik: "İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir".

Görülən işlərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da xidmətləri böyükdür. Onun təkcə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi tədbirləri qeyd etmək kifayətdir. Leyla xanım Əliyevanın fəaliyyəti Azərbaycan gəncləri üçün örnəkdir. Onu da qeyd edək ki, Leyla Əliyeva xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə Dünya azərbaycanlılarının III qurultayında "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

*Məhz bu uğurlara söykənərək cənab İlham Əliyev ötən il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə bildirmişdir: "Biz Ulu Öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaq. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik".*

**Siyavuş NOVRUZOV,**
***YAP İcra katibinin müavini,***
***Milli Məclisin***
***Regional məsələlər komitəsinin sədri***

# Azərbaycan ziyalılarının böyük himayədarı

**Heydər Əliyevin təhlükəsizlik orqanlarında, Azərbaycanda birinci və ikinci siyasi hakimiyyəti dövründə və SSRİ rəhbərliyində fəaliyyətinin əsas nəticələrindən biri də respublikada ziyalılara böyük diqqəti, onları qorumağı və Azərbaycandan kənarda tanıtmağı olmuşdur.**

Hər bir xalqın və ölkənin inkişafının göstəricilərindən biri də onun hər dövrdə ziyalılarının fəaliyyətinə və həmin təbəqənin cəmiyyətin keyfiyyət göstəricilərinin yüksəlməsinə dəstək verməsidir.

Azərbaycan torpaqları qonşu dövlətlərin tərəfindən tərkibinə daxil edildikdən sonra həmin dövlətlər öz ucqarlarında yaşayan qeyri-titul (sayca əsas xalqdan az olan) xalqların elitasının formalaşmasında, ziyalı təbəqəsinin yaranmasında həmişə maraqlı olmayıblar.

Azərbaycan xanlıqlarının ləğvi dövründən ağrılı və aktual olan bu problemi Azərbaycan xalqı hər dövrün imkanlarına uyğun maksimum həll etməyə çalışıb. Həm ümumilikdə cəmiyyət, həm də xalqın tanınmış nümayəndələri problemin həllinə öz töhfələrini veriblər. XIX əsrdə İsmayıl bəy Qutqaşınlı, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, XX əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyev, neft milyonçuları, milli-demokratik düşüncəli ziyalılar, Azərbaycan Demokratik Respublikasının qurucuları bu qəbildən olan nümunələrdəndir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonrakı dövrdə Nəriman Nərimanov, Hüseyn Cavid, Səməd Vurğun, Əziz Əliyev, Heydər Hüseynov, Mirzə İbrahimov kimi tarixi şəxslər milli ziyalılarımızın yetişməsində böyük rol oynamışlar.

Milli ucqarlarda isə bu proses dövlət dəstəyi olmadan, xaotik gedir, işin ağırlığı milli təəssübkeş qüvvələrin üzərinə düşürdü. Məhz cəmiyyətin içindən gələn mənəvi potensial nəticəsində XIX əsrin 60-cı illərində Azərbaycanda latın qrafikası əsasında Azərbaycan əlifbası təklif edildi, 1875-ci ildə ilk qəzet - "Əkinçi" dərc edildi, 1873-cü ildə ilk teatr fəaliyyətə başladı, 1919-cu ildə ilk universitet açıldı. Ziyalılar cəmiyyətin maariflənməsi uğrunda daim ciddi mübarizə aparırdılar. Bakıda və regionlarda orta məktəblərin açılması, ali təhsilin populyarlaşdırılması öz nəticəsini verirdi. 1913-cü ildə Rusiya imperiyasında keçirilən əhalinin siyahıya alınmasının nəticəsinə görə Bakı şəhərində yaşayan 70 min azərbaycanlı əhalinin artıq 44 nəfəri ali təhsilli idi (4 nəfəri qadın), bunun özü həmin dövr üçün böyük nəticə idi.

Azərbaycan xalqının öz gücünə ziyalı təbəqəsini formalaşdırması Rusiya imperiyasının çökməsi zamanı, 28 may 1918-ci il tarixində Azərbaycan Demokratik Respublikasının yaranmasında böyük rol oynadı. 23 aylıq müddətdə müstəqil dövlətçilik tarixində görülən böyük işlərin içində Bakı Dövlət Universitetinin təsis edilməsi və 100 nəfərdən ibarət gənclərin müstəqil dövlət üçün tələb edilən ixtisaslar üzrə Avropanın aparıcı universitetlərinə təhsil almaq üçün göndərilməsini çox əhəmiyyətli işlərdən hesab etmək olar.

XX əsrdə birinci müstəqil Azərbaycan dövlətinin süqutu və onun Sovet Rusiyasının tərkibinə qatılması çoxsaylı milli kadrların hazırlanması prosesini uzun müddətə təxirə saldı. Üstəlik, Azərbaycan SSR-də rəhbər və birinci şəxs vəzifələrinə xalqa və respublikaya bələd olmayan, kənardan gətirilən qeyri-azərbaycanlıların təyin edilməsi milli elitanın formalaşmasına mənfi təsir etdi.

Məsələn, 1933-cü ildən 1967-ci ilədək respublika təhlükəsizlik orqanlarına rəhbər vəzifələrə digər millətlərin nümayəndələrinin təyin edilməsi milli kadr hazırlığı məsələlərini gündəlikdən silirdi. Həmçinin 1929-cu ildən latın qrafikasına keçən Azərbaycan dilinin əlifbasının 1939-cu ildən kiril qrafikasına keçirilməsi Avropa, ilk növbədə, türk ədəbiyyatı arasında anlaşmada əlavə, texniki problem yaradırdı. Bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da yerli xalqın dilinin rəsmi və inzibati dil kimi işlədilməməsi milli düşüncəli ziyalıların hakimiyyətə və cəmiyyət proseslərinə təsirini minimuma endirirdi.

Bu səbəbdəndir ki, uzun müddət Azərbaycanda ziyalı təbəqənin kəmiyyət göstəriciləri heç də xalqın potensialına tam cavab vermirdi. Respublikada yaşlı əhalinin tərkibində ali təhsillilərin say nisbəti orta ittifaq göstəricilərindən aşağı idi. Elm, ədəbiyyat və texniki sahələr üzrə Azərbaycan xalqının dəyərli nümayəndələri həm dünya, həm də ittifaq səviyyəsində zəif tanınırdı.

XX əsrin ortalarından başlayaraq bu tarixi missiyanı, bu rolu tədricən siyasi səhnədə böyük nüfuz qazanmağa başlayan Heydər Əliyev uğurla həyata keçirməyə başladı.

Ulu öndər bu istiqamətdə ilk addımlarını respublika təhlükəsizlik orqanlarında çalışdığı dövrdə atmağa başlamışdı. Bir tərəfdən bu struktura bacardığı qədər milli kadrlar cəlb etməklə o, Azərbaycan xalqının milli maraqlarını qoruyacaq bir güclü dayaq dəstəsi yaradırdı. Xalq arasından çıxan, milli dəyərlərə və müasir fikirlərə bağlı olan kadrlar xalqın problemlərinin həllinə daha məsuliyyətlə və daha yaradıcı yanaşırdılar. Həmçinin təhlükəsizlik orqanlarına işə götürülən azərbaycanlı gənclər özləri də sonradan milli elitanın qorunmasında, onlara qarşı təqiblərin qarşısının alınmasında böyük rol oynayacaqdılar.

Eyni zamanda Heydər Əliyev tərəfindən təhlükəsizlik orqanlarına işə götürülən gənclər sonradan başqa sahələrə keçərək Azərbaycan ziyalı təbəqəsinin aparıcı fiqurlarına çevrildilər və respublikada milli düşüncənin və milli-azadlıq fikirlərinin yayılmasında böyük rol oynadılar.

Heydər Əliyev DTK rəhbərliyində olarkən, ilk növbədə, çoxsaylı Azərbaycan ziyalılarının təqib edilməsinin və yaradıcılığına qadağalar qoyulmasının qarşısını aldı. Məhz bu səbəbdəndir ki, onun DTK-ya və Azərbaycan SSR-ə rəhbərliyi dövründə Azərbaycanda heç kəs millətçilik, antisovet təbliğatı və dissident hərəkatında iştirakına görə cinayət məsuliyyətinə cəlb edilmədi.

O, DTK sədri kimi müxtəlif ziyalılarla təklikdə və ziyalı kollektivləri ilə görüşlərində onları yaradıcılığa səsləyir, Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı tədqiqatlarını dəstəkləyirdi. Həmin dövrdə erməni millətçilərinin ziyalılarımızın ləkələnməsinə yönəlmiş hərəkətlərinin qarşısı qətiyyətlə alınırdı.

Azərbaycan ziyalılarının qorunması və onlara qayğı göstərilməsi prosesi Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbər təyin edilməsi ilə daha da genişləndi və bu, bir sistem halını almağa başladı.

Heydər Əliyevin 1969-cu ildən Azərbaycanın birinci şəxsi olması onun milli ziyalı təbəqəsini yaratması üçün imkanlarını xeyli genişləndirdi. Ciddi ideoloji çərçivələrin mövcudluğuna, erməni millətçilərinin Moskvaya ciddi təsirinə baxmayaraq, 13 illik birinci siyasi hakimiyyət dövründə bir çox böyük və əhəmiyyətli işlər görmək mümkün oldu.

İlk növbədə, Azərbaycan dilinin rus dili ilə yanaşı, dövlət, məhkəmə və gündəlik ünsiyyət dili kimi işlənməsi üçün ciddi addımlar atıldı. Bu istiqamətdə Heydər Əliyev hələ DTK sədri işləyən dövrdə əhəmiyyətli işlər görmüşdü. Onun əmək kollektivləri ilə görüşlər zamanı Azərbaycan dilində danışması, 1969-cu ilin may ayında Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış etməsi cəmiyyətdə ciddi əks-səda doğurmuşdu.

Azərbaycan rəhbəri olduqdan sonra yerli xalqın dilinin istifadə edilməsinə xüsusi əhəmiyyət verilməyə başlandı. Azərbaycan dilində televiziya və radio verilişlərinin sayı kəskin surətdə artdı, qəzet və jurnalların sayı və tirajı çoxaldı, kitab buraxılışı xeyli artdı. Azərbaycan dilində orta məktəblərin sayı artdı, ali məktəblərdə bu dildə tələbə qəbulu əhəmiyyətli dərəcədə çoxaldı, elmi-texniki kitabların buraxılışına ciddi diqqət yetirildi. Müvafiq olaraq Azərbaycan dilində dərs keçən professor-müəllim heyətinin sayında da artım oldu. Azərbaycan dilinin istifadə arealının böyüməsi azərbaycandilli ziyalı təbəqəsinin güclənməsinə səbəb oldu və onlar ictimai fikirdə aparıcı yer tutmağa başladılar.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan edildi. Bu, milli özünüdərk yolunda atılan ən mühüm addımlardan biri idi. Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusunu almasını sadəcə dil məsələsi kimi deyil, həm də azərbaycançılıq məsələsi kimi dəyərləndirirdi.

Tanınmış Amerika tədqiqatçısı Tadeuş Svetoxovski özünün "Azərbaycanda rus idarəçiliyi, müasir elita və milli eyniliyin təşəkkül tapması" ("Russkoe pravleniye, modernizatorskiye elitı i stanovleniye natsionalnoy identiçnosti v Azerbaydjane") əsərində dövlət idarəçiliyi sisteminin milliləşdirilməsi barədə belə yazır: "Ziyalı təbəqəsinin ruslaşdırılması prosesinin inkişaf etməsinə baxmayaraq, Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra 1969-cu ildə milli nomenklaturanın birləşməsi baş verir. Azərbaycan Kommunist Partiyasının I katibi kimi H.Əliyev yüksək idarəetmə postlarına etnik azərbaycanlıları çəkməklə yenidən milliləşdirmə siyasətinə qayıtdı... Sübut edirdi ki, milli nomenklatura ölkədəki duruma görə məsuliyyəti nəinki öz üzərinə götürə bilər, hətta bunu etməlidir".

1969-1982-ci illərdə Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda altı yeni ali məktəb - Naxçıvan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, Azərbaycan Texnologiya İnstitutu, Xankəndi Pedaqoji İnstitutu və Sumqayıt Ali Texniki Təhsil Məktəbi açıldı. Bunlarla yanaşı, Sovet İttifaqının müxtəlif şəhərlərinin nüfuzlu ali məktəblərində Azərbaycan üçün yüksəkixtisaslı kadr hazırlığına diqqət yetirilməyə başlandı.

İldən-ilə artan tələbə göndərişi ötən əsrin 80-ci illəri üçün hər il iki min nəfərə yaxın göndəriş səviyyəsinə gəlib çatmışdı. 1982-ci ildə SSRİ-nin 49 şəhərinin 170 ali məktəbində 244 ixtisas üzrə azərbaycanlı tələbələr təhsil alırdı. Təhsillərini başa vurduqdan sonra onlar Azərbaycana qayıdaraq mütəxəssis kimi çalışır, bir qismi isə təhsil aldıqları bölgədə qalaraq, elm, incəsənət, iqtisadiyyat sahələrində Azərbaycanı layiqincə təmsil edərək, gələcək diasporamızın əsasını yaradırdılar.



Heydər Əliyev 1998-ci il avqustun 31-də 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış 2500-dən çox gənc mütəxəssislə görüşündə o dövrdəki vəziyyəti belə təsvir etmişdir: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım... Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikanın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir... Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim və bu məsələ ilə ciddi məşğul olmağın lazım gəldiyini bir daha dərk etdim. Çünki, birincisi, avqustun sonları idi, sentyabrın 1-də dərslər başlanmalı idi, amma hələ 50 nəfər toplaya bilməmişdilər. İkincisi, siyahıya baxanda gördüm ki, təyin olunmuş namizədlərin içərisində azərbaycanlılar azlıq təşkil edirlər, çoxluğu isə başqa millətlərdən olan gənclər təşkil edirlər... Mən bu işlə məşğul oldum... Mən istəyirdim biz özümüzün, ölkəmizin, respublikamızın ali təhsil ocaqlarının, eyni zamanda o vaxt yaşadığımız ölkənin mərkəzi və daha yüksək səviyyəli ali məktəblərinin imkanlarından səmərəli istifadə edərək Azərbaycanın gələcəyi üçün lazım olan kadrlar hazırlayaq. Bu təşəbbüsün doğulmasının səbəbi və məqsədi bundan ibarət olmuşdur".

Həmin görüşdə Ümummilli Lider vurğulamışdır: "...Dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universitetlərinin, institutlarının imkanlarından Azərbaycanın gələcəyi, dəyərli kadrlar hazırlanması üçün bundan sonra da səmərəli istifadə etməliyik... Şübhəsiz ki, bu sahədə həm dövlət proqramı olmalıdır..."

1969-cu ildə SSRİ-nin aparıcı ali məktəblərində təhsil almaq üçün müsabiqədənkənar 50 yer ayrılsa da, cəmi 13 nəfər göndərilmişdi ki, onlardan da cəmi 4-ü azərbaycanlı idi.

Heydər Əliyev iqtisadiyyatın, elmin, mədəniyyətin və ictimai həyatın müxtəlif sahələri üzrə kadr hazırlığını ciddi diqqətdə saxlayırdı. Gənc alimlər nüfuzlu ali məktəblərin aspirantura və doktoranturasına göndərilir, onların Sovet İttifaqı və dünya səviyyəsində tanınmasına dəstək verilirdi. Azərbaycandan kənarda, xüsusilə də Ermənistanda dövlət idarəetmnə orqanlarında təmsil olunan azərbaycanlı kadrların fəaliyyəti ilə maraqlanılır, onlara qarşı əsassız təzyiqlərin qarşısının alınmasına çalışılırdı.

Ulu Öndərin fəaliyyəti sayəsində Azərbaycanda ədəbiyyat və mədəniyyət klassikləri ilə yanaşı, həmin dövrdə tanınmış olan yazıçı və şairlər - Mirzə İbrahimov, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Məmməd Araz, bəstəkarlar - Qara Qarayev, Niyazi, Fikrət Əmirov, müğənnilər - Müslüm Maqomayev, Polad Bülbüloğlu, Zeynəb Xanlarova, Rəşid Behbudov dünya səviyyəsində tanınmağa başladılar. Onların yaradıcılıqlarına yaxşı şərait yaradıldı, əsərləri xarici dillərdə dərc edildi, onlar SSRİ-nin ən yüksək fəxri adlarına layiq görüldülər, beynəlxalq tədbirlərin daimi dəvətli nümayəndələrinə çevrildilər.

Rəssamlar üçün yaradıcılıq evləri inşa edildi, onların əsərlərinin respublikadan kənarda sərgilərinin keçirilməsi, bu əsərlərin nüfuzlu kataloqlara salınması ənənəyə çevrildi. Teatr və kinematoqrafiyanın inkişafına xüsusi diqqət ayrıldı, milli tariximizə və cəmiyyətin aktual məsələlərinə dair teatr tamaşaları hazırlandı, kinofilmlər çəkildi.

Yaradıcılıq ittifaqlarının - Azərbaycan Yazıçılar İttifaqı, Rəssamlar İttifaqı, Bəstəkarlar İttifaqı, Teatr Xadimləri İttifaqının fəaliyyətlərinə Heydər Əliyev xüsusi diqqət edirdi, onların qurultaylarında şəxsən iştirak edirdi. Yaradıcı insanların inkişafını, onların sərbəst və azad yaradıcılıqla məşğul olmasını dəstəkləyirdi. Azərbaycanın istedadlı rəssamı Tahir Salahovun SSRİ Rəssamlar İttifaqının birinci katibi seçilməsi Azərbaycan incəsənətinin böyük arenada qəbul edilməsi idi.

*DTK-da işlədiyi və Azərbaycanda birinci siyasi hakimiyyəti dövründə milli ziyalı təbəqəsinin formalaşmasına olan qayğı Heydər Əliyevin fəaliyyətinin növbəti mərhələlərində də uğurla davam etdirilirdi. Onun müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə isə bu siyasət yaranmış yeni situasiyadan irəli gələrək daha dərin və məzmunlu həyata keçirilməyə başlandı.*

**Aydın MİRZƏZADƏ,**
***Milli Məclisin deputatı,***
***Yeni Azərbaycan Partiyası İcra Katibliyi Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri***

# Dahi şəxsiyyət, tarix yazan zəka sahibi

**Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini sonadək öyrənmək mümkün deyil. İllər keçir, zaman dəyişir, adıçəkilən böyük masştablı düşüncə sahibləri, dahilər adi gözlə görünməyən addımları sayəsində dərhal dəyişən zamanın nəbzini tutur və onu özünə uyğunlaşdırırlar. Bu qəbildən olan şəxsiyyətlər, zəka sahibləri Yer üzündə barmaqla sayılan qədər olur, məhz bunun sayəsində hər dəfə hansısa çətinlik ortaya çıxanda xalq onlara sığınır və özünü məhv olmaq təhlükəsindən xilas edərək gələcək inkişaf yoluna qədəm qoyur.**

Ulu Öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə isə bu dahi insanın adı Azərbaycan xalqının qürur tarixinə, əməlləri isə hünər rəmzinə çevrilir. Azərbaycan tarixinin son qərinəsində xalqımızın həyatın bütün sahələrində nail olduğu uğurlar Heydər Əliyevin adı ilə bağlıdır. Dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi də məhz bu dahi şəxs təlatümlər burulğanından xilas edərək, ictimai-siyasi sabitlik yaratmış və Azərbaycanı hərtərəfli inkişaf yoluna çıxarmışdır.

Ulu Öndər Heydər Əliyev belə bir zamanda xalqın təkidli tələbi ilə ölkənin siyasi rəhbərliyinə qayıdaraq dövlətçiliyimizi təhlükələrdən xilas etdi. Azərbaycanda vətəndaş qarşıdurmasını dayandırdı. Qanunsuz silahlı birləşmələri zərərsizləşdirdi. Cəmiyyətimizdə ictimai-siyasi sabitlik yaradıldı. Xarici dövlətlər, beynəlxalq təşkilatlarla münasibətlər qaydaya salındı. Azərbaycan iqtisadiyyatının ən müxtəlif sahələrinə xarici sərmayə axını başladı. Ölkəmizdə, ümumən dünyadakı iqtisadi-siyasi proseslərə yeni istiqamət verən yeni neft strategiyasının əsası qoyuldu. Azərbaycan mühüm qlobal layihələrin ən fəal iştirakçısına və regionda əsas söz sahibinə çevrildi. Əldə edilmiş bütün bu nailiyyətlər ümumi halda Azərbaycanın dövlət müstəqilliyinin praktik müstəvidə özünü göstərməsi üçün əlverişli zəmin yaratdı.

Ulu Öndərin rəhbərliyi ilə dövlətimizin hüquqi və siyasi suverenliyinin təminatı prosesi sürətləndi. Demokratik islahatlar geniş vüsət aldı. Azərbaycan dövləti Avropa ailəsinin tamhüquqlu üzvünə çevrildi. Eyni zamanda həyata keçirilən fəal xarici siyasət beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəlməsinə, bir çox dövlətlərlə yüksək səviyyədə əlaqələrin qurulmasına, ölkənin siyasi imicinin dəyişməsinə səbəb olmuş, onun xarici iqtisadi əlaqələrinin genişlənməsi və ölkəyə güclü investisiya axını üçün zəmin yaratmışdı.

Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və elə bütün bunlara görə Azərbaycan xalqının da xoşbəxtliyi ondadır ki, məhz 1993-cü ilin iyununda ölkə rəhbərliyinə yenidən dünya şöhrətli siyasətçi, dünyəvi və hüquqi dövlət quruculuğu sahəsində zəngin biliyə, böyük dövlətçilik təcrübəsinə malik, hadisələri qabaqcadan görməyi və qətiyyətlə adekvat tədbirlər həyata keçirməyi bacaran bir şəxsiyyət gəldi. Ulu Öndər ilk gündən hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, məqsədyönlü və konkret strategiyaya əsaslanan islahatları həyata keçirməyə başladı.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı ilk gündən vətəndaşların həyat səviyyəsinin yüksəldilməsini başlıca məqsəd kimi müəyyənləşdirmişdi. Ölkədə hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədləri 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş ali qanunvericilik sənədində - Konstitusiyada da təsbit edilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər sayəsində artıq 1996-cı ildə sosial göstəricilərin dinamikasında müsbət meyillər özünü göstərməyə başlamışdır. Ümummilli Liderin müxtəlif illərdə imzaladığı fərman və sərəncamlarla hərbi qulluqçuların, səhiyyə, təhsil, sosial müdafiə, elm, mədəniyyət sahəsində çalışanların əməkhaqları, eləcə də pensiyaların minimum məbləği, şəhid ailələrinin, 20 Yanvar əlillərinin və Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi uğrunda əlil olanların pensiya və müavinətləri bir neçə dəfə artırılmış, müxtəlif sahələrdə böyük xidmətləri olan şəxslərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə fərdi təqaüdlər təsis edilmişdir.

Ermənistanın təcavüzü nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi daim Ulu Öndərin diqqət mərkəzində olmuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü ilə qaçqın və məcburi köçkünlərin maddi vəziyyətinin və yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə bir sıra qanun, fərman və sərəncamlar imzalanmışdır. Ümummilli Liderin qərarı ilə Dövlət Neft Fondundan ilk vəsait qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. Məcburi köçkünlərin çadırlardan müasir evlərə köçürülməsi, onların haqq səsinin dünyaya və beynəlxalq təşkilatlara çatdırılması sahəsində ilk addımları da məhz Heydər Əliyev atmışdır.

Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lokomotiv dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Ulu Öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi beynəlxalq institutlarla səmərəli əməkdaşlıq yaradılmışdır.

Ümummilli Lider Heylər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Bu öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan Ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahələrdə birgə hərəkət etmək imkanı verirdi. Bununla yanaşı, ölkəmizin bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün də əlverişli şərait yaratdı.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahələrində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanıb. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar Ümummilli Liderin uzaqgörən daxili və xarici siyasətinin və bu istiqamətdə məqsədyönlü fəaliyyətinin nəticəsi idi.

Qazanılan bu uğurlarla yanaşı, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması Ümummilli Lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutub. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışıb. Prezident Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərində, ATƏT-in zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə danışıqlarda göstərdiyi səylər onun apardığı məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil edib. Belə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması istiqamətində məhz Prezident Heydər Əliyevin qətiyyətli və gərgin fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan ikitərəfli və çoxtərəfli formatda BMT-nin Təhlükəsizlik Şurası və digər strukturlarla, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Demokratiya və İnkişaf Naminə Təşkilat, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası və digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlığını davam etdirir. Bir sıra hallarda məhz Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində və səmərəliliyin artırılmasında mühüm rol oynayır. Bu gün Azərbaycanın Cənubi Qafqazın aparıcı dövlətinə və beynəlxalq enerji-kommunikasiya layihələrinin mərkəzinə çevrilməsi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması məhz cənab İlham Əliyevin uğurlu diplomatiyasının nəticələridir.

Azərbaycanın xarici siyasətinin prioriteti olan Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində işlər davam etdirilir. Ermənistanın işğalçılıq siyasətinin ifşası, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəlikdə duran əsas məsələdir. Artıq Kolumbiya, Çexiya, Rumıniya, Serbiya, Peru, Panama, Pakistan, Meksika, İordaniya, Bosniya və Herseqovina, Honduras, Sudan və Cibuti parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının bir sıra ştatları Xocalı soyqırımını tanımışdır. Azərbaycan öz torpaqlarını istər sülh, istərsə də hərbi yolla azad etmək hüququnu açıq şəkildə bəyan etmişdir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və praqmatik xarici siyasətin qanunauyğun nəticəsi olaraq Azərbaycan dünyada böyük etimad qazanan ölkə, etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Regional güc mərkəzi olan Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bütövlükdə Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

Dövlət başçısının ölkədə apardığı islahatların əsas strategiyası sosial-iqtisadi inkişafın təmin edilməsinə, demokratik dəyərlərin inkişafına və dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinə yönəlib və bu məqsədlə cəmiyyətin bütün sahələrində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. Demokratik dəyərlərə sadiqlik, insan hüquq və azadlıqlarının qorunması üçün mükəmməl qanunvericilik bazasının yaradılması hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyən dövlətimizin siyasətinin prioritetləri sırasındadır.

Ölkədə aparılan islahatlar insan amilinə verilən dəyərin aydın ifadəsidir. İslahatların əsasında insan kapitalı, insan haqlarının müdafiəsi və demokratiyanın inkişafı durur. Azərbaycan dövlətinin bugünkü sosial siyasəti əhalinin və onun müxtəlif qruplarının həyat səviyyəsinin durmadan yüksəldilməsinə xidmət edir. Bu siyasətin əsas məqsədi isə insan kapitalını formalaşdırmaq və inkişaf etdirməkdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır. Azərbaycanda həyata keçirilən operativ tədbirlər dövlətin öz vətəndaşlarına verdiyi dəyərin parlaq ifadəsidir.

*Hər bir ölkənin daxili və xarici siyasətindəki uğur məhz həmin ölkənin dövlət başçısının fəaliyyəti ilə bağlıdır. Bu gün Azərbaycan Ümummilli Lider Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu milli inkişaf strategiyası nəticəsində möhtəşəm nailiyyətlər qazanır. Bu nailiyyətlərin qazanılmasının digər bir mühüm səbəbi isə Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasi kursun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Möhkəm təməl və güclü lider faktoru gələcəyimizin təminatı və yeni uğurlarımızın qarantıdır.*

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin deputatı,***
***Yeni Azərbaycan Partiyası Beynəlxalq əlaqələr şöbəsinin müdiri***



# Vətənə həsr edilən ömür

*Əvvəli 1-ci səh.*

## Tarixə çevrilmiş talelər

Onları adbaad sadalayıb həyat və fəaliyyətlərini nəzərdən keçirməyə düşünürəm ki, lüzum yoxdur. Çünki bu şəxsiyyətlərin ömrü, keçdikləri həyat yolu, apardıqları mübarizə tarixə bəllidir. Onların yaşadıqları zaman da, məkan da, bu insanların taleləri də bir-birindən xeyli fərqlidir. Müxtəlif dövrlərdə, ayrı-ayrı ictimai-tarixi situasiyalarda yaşayıb fəaliyyət göstərdiklərindən onların həyatı bənzərsizdir. Amma bu şəxsiyyətləri birləşdirən ortaq bir cəhət də var. Həmin insanların taleyi, ömrü mənsub olduqları xalqın tarixinə çevrilib. Onların həyatı adi bir insanın yaşadığı ömür deyil. Bu ömrün hər bir anında, hər bir səhifəsində xalqın tarixi ilə bağlı zəngin, mürəkkəb əsrarlar var.

Bu yazıda da məramım taleyi Azərbaycan xalqının tarixinə qovuşaraq ona şöhrət, şərəf, məşhurluq gətirmiş böyük şəxsiyyət - Ulu Öndər Heydər Əliyev haqqında düşündüklərimi sizlərlə bölüşməkdir. Əvvəlcədən bilirəm ki, əgər bu böyük dövlət adamının həyat və fəaliyyətindən ətraflı bəhs etmək istəyiriksə, Azərbaycanın 50 illik tarixinin bütün məqamlarına toxunmalıyıq.

50 il, yarıməsrlik bir dövr insanın doğulandan kamillik məqamına qədər keçib gəldiyi böyük bir yoldur. 50 il bir dövlət üçün də böyük bir inkişaf tarixidir. Azərbaycan bu yarım əsrdə Heydər Əliyev ideyaları işığında milli dövlətçilik yollarında çətin, amma çox şərəfli bir yol keçib, özünün mükəmməl tarixini yazıb. Amma hərdən düşünürəm ki, Heydər Əliyev üst-üstə 34 il deyil, hətta çox qısa bir müddətdə Azərbaycana rəhbərliyini davam etdirsəydi, yenə tarixdəki möhtəşəm ucalığında qərar tutacaqdı. Çünki belə nəhəng şəxsiyyətlər, nə qədər qəribə səslənsə də, zamanın özünə də qalib gəlirlər.

## Xalq adamı

Heydər Əliyevdən əvvəl fəaliyyət göstərmiş dövlət xadimləri Azərbaycanın inkişafı üçün o dövrün imkanları, mövcud şəraiti çərçivəsində bacardıqları işləri görmüşdülər. Amma görülməmiş qalan, insanları rəncidə salan problemlər kifayət qədər çox idi. O zaman Azərbaycan İkinci Dünya müharibəsindəki qələbədən sonra bütün ittifaq məkanında geniş vüsət almış inkişaf proseslərindən kənarda qalırdı. Bu proseslərə varmaq, inkişaf axınına qoşulmaq insanların arzu etdikləri kimi məqsədyönlü deyildi.

Heydər Əliyev o dövrdə respublika rəhbərliyinə sanki xalqın arzularından gəldi.

İnsanların 46 yaşlı cavan rəhbərə böyük ümidlərinin çin olmasını isə çox gözləməyə ehtiyac qalmadı. 1969-cu ilin 14 iyulundan Heydər Əliyev öz xalqının arzu və ümidləri ilə birgə çiyin-çiyinə fəaliyyətə başladı. Özüm şahidəm ki, həmin günlərdə əhali arasında necə yüksək əhvali-ruhiyyə, canlanma, gələcəklə bağlı xoş gözləntilər vardı.

Azərbaycanın bütün təbəqələrindən olan insanların bu seçimə ürəkdən sevinməsinin əsas səbəbi onların Azərbaycana rəhbərliyə gəlmiş bu fövqəladə şəxsiyyətə, sözün həqiqi mənasında, inanması, ona ümid çırağı kimi baxması idi. Çox keçmədi ki, Lider zirvəsinə yüksələrək dünya siyasətçiləri sırasında öncül mövqeyə çıxan Heydər Əliyev fenomeni ona bəslənən ümidləri doğruldaraq, əsl xariqələr yaratmağa başladı. Xalqın öz liderinə, onun ali ideyalarına olan inamının geniş vüsət alması Ulu Öndər tərəfindən yerinə yetirilən əməli tədbirlərə, onun titanik zəhmətinə, gərgin fəaliyyətinin əyani nəticələrinə əsaslanırdı.

## Halal zəhmət

Bunu dəfələrlə məclislərdə, söhbətlərdə adamlardan eşitmişəm. Yazılarımda da qeyd etmişəm. İndi bir daha xatırlatmağı təkrarçılıq yox, sadəcə fakta düzgün münasibət fürsəti kimi dəyərləndirərək yazıram: Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələnə qədər Azərbaycanda əhalinin xeyli qismi pul-paranın, normal güzəranın nə olduğunu bilməyib. Əfsuslar olsun ki, o illər xüsusilə kənd yerlərində insanların böyük əksəriyyətinin yaşadığı tavanı da, döşəməsi də həsirdən olan daxmalardan, qara damlardan heç birini muzey eksponatı kimi saxlamamışıq. Düşünürəm ki, muzeylər təkcə tarixin qürur gətirən inkişaf pillələrini deyil, xalqın əzablarını xatırladan məqamları da əyani şəkildə sərgiləməlidir. Olub-keçənlərə obyektiv qiymət verməyə şərait yaratmalıdır.

İndi çox yaxşı xatırlayıram ki, aradan cəmi 10 il keçməmiş, artıq 1980-ci illərin əvvəlində insanlarımız haçansa aldıqları cüzi əməkhaqqını, illərlə güzəran keçirdikləri, övlad dünyaya gətirib boya-başa çatdırdıqları qazma daxmaları qorxulu yuxu kimi xatırlayırdılar.

Kəndlərimizdə, qəsəbələrimizdə üstü şiferli, kirəmitli, hündür, müasir evlər yan-yana sıralanmışdı. İnsanların əyni-başı, süfrələrin təamları dəyişmişdi. Həyətlərdə şəxsi avtomobillər görünməyə başlamışdı. Bütün bunların hamısını təmin edən respublika rəhbərinin həyata keçirdiyi siyasət idi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişinə qədər səhərdən axşama kimi tarlalarda tər töküb, qəpik-quruş alan insanlar tamam başqa dövrə, şəraitə, yeni imkanlar mühitinə düşmüşdülər.

Fərdi qaydada heç kimə pul paylanmırdı, kiməsə maddi kömək göstərilmirdi. Sadəcə olaraq işlər düzgün qurulmuşdu. Nəzarət, effektivlik yüksək səviyyədə təmin edilmişdi və bunun müsbət nəticələri də hər bir insanın həyat və məişətində özünü hiss etdirirdi. Vətəndaşlar halal zəhmətlərinin barını dada bilirdilər.

Onun rəhbərliyi ilə respublikada bütün proseslər bir-birinə paralel gedirdi, bir-birini ahəngdar şəkildə tamamlayırdı. Və onların hər biri ən xırda detalına qədər şəxsən Heydər Əliyevin öz nəzarətində idi. Ulu Öndərin verdiyi məqsədyönlü qərarlar, Moskvada təsdiqinə nail olduğu inkişaf proqramları, yerlərdəki kadr təyinatları, güzəştsiz, prinsipial iş metodları sayəsində Azərbaycan canlanıb inkişaf edirdi. Məsələn, kolxozlar, sovxozlar daha bol məhsul əldə edib varlanmağa başlayırdı, imkanlar artdıqca sadə əmək adamlarının gördükləri iş müqabilində qazancları artırdı. Üstəlik, kəndlərdə asfalt yollar çəkilir, məktəblər, xəstəxanalar, klublar, mədəniyyət evləri, uşaq bağçaları tikilirdi.

Azərbaycanda güclü sənayeləşmə dalğası başlamışdı. Respublikada yeni zavodlar inşa olunurdu. Minlərlə Azərbaycan gənci bu zavodlarda işlə təmin olunub öz həyatını qururdu, vəzifə pillələrində də, qazanc artımında da addım-addım irəliləyirdi. Üstəlik, Heydər Əliyev bu gənclərin yaşaması, ailə qurub ev-eşik sahibi olması üçün Bakıda və respublikanın mərkəzi şəhərlərində, əsas sənayeləşmə zonalarında böyük yaşayış massivləri tikdirirdi. O illər şəhərlərimizdə böyük bir tikinti bumu başlamışdı. İnsanların mənzil ehtiyacları ardıcıl olaraq yavaş-yavaş təmin edilirdi.

## Vətən sevgisinin gücü

Ümummilli Lider hələ keçmiş SSRİ dövründə Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin inkişafını həmahəng surətdə, ardıcıllıqla həyata keçirir, yeniliyə, tərəqqiyə sədd yaradan keçmişdən miras qalmış maneələri, lüzumsuz stereotipləri inamla aradan qaldırırdı. Onun düşünən beyni sanki istirahət bilmədən daim fəaliyyət göstərərək Azərbaycanın gələcəyi naminə yeni-yeni ideyaların eskizlərini hazırlayır və dərhal da reallaşmasına şərait yaradırdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində respublika ən mütərəqqi, müasir islahatların tətbiqi və həyata keçirilməsi meydanına çevrilmişdi.

Bu baxımdan Ümummilli Liderin həyat və fəaliyyətini işıqlandıran yazılara baxdıqca, kitabları vərəqlədikcə hərdən düşünürəm ki, deyəsən, biz bu böyük dövlət adamının hər anı böyük bir tarixə çevrilən ömür yolunu, gördüyü işləri hələ də lazımi şəkildə araşdırmamışıq, xalqa təfsilatı ilə çatdırmamışıq.

Keçmiş SSRİ-nin Dövlət Plan Komitəsinin sədri işləmiş, ittifaq məkanının bütün iqtisadi düymələrini az qala ovcunun içi kimi bilən, həmin proseslərin nəinki iştirakçısı, həm də təkanvericisi olan Nikolay Baybakovun "Azərbaycanı Heydər Əliyev qədər sevən ikinci bir insan yoxdur" fikrini xatırlayıram.

Həqiqətən, Ümummilli Liderin o illərdə gördüyü işlər təkcə bir dövlət xadiminin üzərinə düşən vəzifələrin icrası deyildi. Bu, xalqa, dövlətə dərin sevginin ifadəsi idi. Ümummilli Liderin 1969-1982-ci illərdə respublikamız, xalqımız üçün gördüyü işləri sadalamağa çalışmıram, başa düşürəm ki, o titanik fəaliyyətin ümumi mənzərəsini və nəticələrini araşdırmaq bir yazının, yaxud bir kitabın işi deyil. Sadəcə, bircə cümlə ilə ümumiləşdirmə etmək istərdim: Azərbaycan dövlətinin gerçək müstəqilliyinin sarsılmaz, fundamental təməli məhz 1969-1982-ci illərdə, Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə qoyulmuşdu.

## Ədalət carçısı

Tarix boyu hakimiyyətə can atıb buna nail olan şəxsiyyətlər haqqında çox oxumuşuq. Amma bu nailiyyət ancaq seçilmiş, müdrik və qətiyyətli şəxsiyyətlərin hakimiyyəti dövründə xalq, dövlət üçün əsl nemətə çevrilib. Məhz bunu nəzərdə tutan fransız mütəfəkkiri Pol Anri Holbax demişdir: "Hakimiyyət yalnız o vaxt böyük nemət olur ki, onu əldə edən adama təbiət tərbiyə və alicənablıq, qüvvətli ruh, geniş ürək, dərin ağıl, böyük təcrübə vermişdir".

Nəsirəddin Tusi yazırdı: "Hökmranlıq o adama yaraşır ki, cəmiyyət xəstələndikdə onu müalicə edə bilsin. Çünki hökmdar ölkənin həkimi yerində olmalıdır". Nə yaxşı ki, təbiət və tarix bu ülvi keyfiyyətləri Heydər Əliyev şəxsiyyətində birləşdirmişdi.

Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə cəmiyyətə ədalət gətirdi. Haqqın gücünə insanların öləzimiş inamını bərpa etdi. İnsanlar gördülər ki, artıq yuxarılarda onların da sözünü deyən, dərdlərini bilən, problemlərini eşidən var.

O vaxtlar Azərbaycanın SSRİ-nin tərkibində olmasına baxmayaraq, Ulu Öndər çəkinmədən, heç nədən və heç kimdən ehtiyat etmədən cəmiyyətin tərbiyəsi, illərdən bəri kök atmış problemlərin həlli ilə məşğul olurdu. Üzərinə məsuliyyət götürməkdən çəkinmirdi. O, bütün bunları diplomatik məharətlə yerinə yetirərək mərkəzin ona nəyi isə irad tuta biləcəyinə də yol vermirdi, çünki reallaşdırdığı ən mühüm layihələri elmlə tənzimləyirdi. Buna görə mərkəz də onun ideyalarının məhsulu olan yenilikləri, islahatları, Azərbaycanın inkişaf ritmini alqışlamaq məcburiyyətində qalırdı.

Tarixdə xalqına, onun yüksəlişinə xidmət edən rəhbərlər az olmayıb. Amma onların milli dəyərlərdə təcəssüm tapmasına nədənsə nadir hallarda təsadüf olunur. Böyük Öndər məhz belə rəhbər və dövlət xadimi idi. "Milli" sözünün ehtiyatla işləndiyi sovet dövründə də, müstəqillik dövründə də o, ən böyük azərbaycanlı olduğunu parlaq təcəssüm etdirən zəngin bir sima idi. Onu milli dəyərlərimiz, varlığımız və tarixi taleyimizlə bağlayan çoxlu möhkəm, qırılmaz tellər var idi.

O dövrdə Heydər Əliyevin təkcə ittifaq oxucularının deyil, demək olar ki, bütün dünyanın maraqla oxuduğu "Literaturnaya qazeta"da çap olunmuş "Qoy ədalət zəfər çalsın!" sərlövhəli müsahibəsi nəinki keçmiş Sovetlər İttifaqı miqyasında, eləcə də bütün dünyada böyük rezonans doğurmuşdu. Keçmiş ittifaqdakı mənəvi aşınmalardan, cəmiyyətin dayaqlarını sarsıdan rüşvətxorluq, ayrı-seçkilik, korrupsiya hallarından narahat olan, onların aradan qalxmasını arzulayan mütərəqqi düşüncəli ziyalılar, elm adamları, ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri keçmiş ittifaqın hər yerində Heydər Əliyevin fikirlərini, cəmiyyətdə haqq-ədalətin öz yerini tutması üçün həyata keçirdiyi fəaliyyəti təqdir edirdilər. Onun uğurlu iş təcrübəsinin bütün dünyada tətbiqini vacib sayırdılar.

## Zəhmət adamlarının himayədarı

Heydər Əliyev insanların düşüncələrini dəyişdirməyə qabil lider idi. Onun rəhbərliyi dövründə ən mühüm dəyişikliklər insanların zəkasında baş verirdi. C.Cabbarlının əsərlərində "Şüurlarda inqilab, düşüncələrdə inqilab" çağırışı yada düşür. Cəmiyyət üzvləri anlayırdılar ki, xoşbəxt gələcək, yüksəliş yalnız təhsildə, elmdə, bilikdədir. Ulu Öndər təhsili Azərbaycan insanı üçün bir dəyərə çevirə bilmişdi. Ali məktəblərin qapılarını imkansız balalarının üzünə açmışdı. Dövlətin yaratdığı təhsil imkanları bir qrup sovet imtiyazlısının əlindən çıxıb, ümumilikdə, xalqın dəfinəsinə çevrilmişdi.

Ümummilli Lider əliqabarlı zəhmət adamlarının himayədarı idi. Bütün görüşlərdə, tədbirlərdə, səfərlərdə Heydər Əliyevin gözü bu adamları axtarırdı. Onlarla ünsiyyətdən zövq alırdı. Çünki bilirdi ki, dövlətin gücü, inkişafın təməli onların əlinin qabarı, alnının təri ilə yoğrulub. 1970-80-ci illərdə yüzlərlə gənc pambıqçı, üzümçü, sağıcı məhz Heydər Əliyevlə iş üstündə görüşdən sonra respublikanın nüfuzlu ali məktəblərinə daxil olmuşdu. Onların ümidi, himayədarı, o dövrdə deyildiyi kimi, əsl dayağı məhz Heydər Əliyev idi.

Amma təkcə onlarınmı?!

XX əsrin 70-ci illərinin əvvəllərindən etibarən Ulu Öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc keçmiş Sovet İttifaqının ən mötəbər ali məktəblərində müxtəlif peşə və ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Bu, gələcəyin kadr hazırlığının təminatına istiqamətlənmiş uzaqgörən siyasətin reallaşması idi. O, gənclərin təhsilinə, işlə təmin olunmasına, hərtərəfli inkişafına, dünyagörüşünün, beynəlxalq əlaqələrinin artmasına, dünya gənclərinin intellekt səviyyəsinə inteqrasiya olunmalarına, yeniliklərdən bəhrələnmələrinə, fiziki və əqli cəhətdən sağlam böyüməl追 xüsusi diqqət yetirirdi.

Heydər Əliyev "Gənclər bizim gələcəyimizdir" dedikdə Azərbaycanın gələcəyinin ağıllı, savadlı, bacarıqlı, təəssübkeş, vətənpərvər, peşəkar gənclərin ixtiyarında olmasını arzulayırdı. O bilirdi ki, gənclər cəmiyyətin indikatoru, lakmus göstəricisidir. Hər bir cəmiyyətin səviyyəsini müəyyənləşdirən əsas qüvvə yüksək intellektə malik gənclərdir. Ümummilli Lider həmişə deyirdi: "Dövlətimizin gələcəyi bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır". Hər bir ölkənin istər intellektual, istər mədəni, istər elmi, istər siyasi, istərsə də idarəçilik, dövlətçilik səviyyəsi onun gənclərinin səviyyəsi ilə ölçülür. Bütün bunları incəliklərinə qədər bilən, hətta sərraf gözləri ilə onların görünməyən tərəflərini belə görən Ulu Öndər gənclərin təhsilinə, tərbiyəsinə, ictimai-siyasi baxışlarının itiliyinə diqqət yetirərək həmin təbəqənin bu istiqamətdə inkişafına geniş şərait yaradırdı. Bununla da o, XXI əsrin yüksək səviyyəli insanlarını yetişdirirdi. Milli-mənəvi dəyərlərimizin, vətənpərvərlik, azərbaycançılıq duyğularımızın saflığına, ucalığına, səmimiliyinə çalışırdı. Bu yanaşma tərzi ilə Heydər Əliyev Azərbaycanda yüksək səviyyəli cəmiyyət qura bilən, onu beynəlxalq miqyasda layiqincə təmsil etməyə qadir olan, vətəni, milləti göz bəbəyi kimi qorumağa, ictimai-milli mənafeyi öz şəxsi mənafeyindən üstün tutmağa qadir gəncliyi formalaşdırdı.

## Milli şüurun oyanışı

Heydər Əliyev xalqı, insanları, vətəndaşı yaxşı mənada heyrətləndirməyi bacarırdı. Amma məqsədi təəccübləndirmək deyildi. Heyrətli məqamlar onun qətiyyətli addımlarından, ustad gedişlərindən, insanların ürəyindən xəbər verən davranışlarından irəli gəlirdi. Məsələn, respublikaya rəhbər təyin edildiyi ilk ildə - 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubileyindəki çıxışını Azərbaycan dilində təqdim edəndə hamı təəccüb içində qalmışdı. Bir anlıq təsəvvür edək: sovet hökumətinin qılıncının kəsərli dövrü, üstəlik, universitetin yubileyində başqa millətlərin nümayəndələrinin iştirakı, dövlət əhəmiyyətli bir tədbir... Amma respublikanın 46 yaşlı gənc rəhbəri öz məruzəsini Azərbaycan dilində edərək görünən və görünməyən bütün qadağaları aşır. Bu, əslində, Azərbaycanın ovaxtkı siyasi elitasına sətiraltı mesaj idi. Məhz həmin çıxışdan sonra ölkədə Azərbaycan dilinə münasibət kökündən dəyişdi. Paytaxtda ana dilində məktəblərin sayı artdı. Heydər Əliyevin apardığı siyasət milli şüurun oyanışına təkan verdi.

Bu, bir cəsarət, qətiyyət, vətənpərvərlik nümunəsi idi...

Heydər Əliyev bu nümunəni tarixin başqa anlarında da təkrar-təkrar nümayiş etdirdi. Milli ruhun daşıyıcısı olan ziyalılarımızı təzyiq və təqiblərdən qoruyanda, bu ruhu əks etdirən əsərlərə himayədarlıq edib onlara həyat qazandıranda, keçmiş SSRİ-nin ali rəhbərlərindən biri kimi Kremldə çalışdığı illərdə Azərbaycan və ümumilikdə, müsəlman ölkələri ilə bağlı göstərdiyi təəssübkeşlikdə də, prinsipiallıqda da...

Eyni cəsarət nümunəsini biz Bakıda törədilmiş 20 Yanvar qırğınından dərhal sonra, o dövrdə Moskvada təqaüdçü həyatı yaşayan Heydər Əliyevin ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib bu qırğını törətmiş cinayətkarları öz adları ilə bütün dünyanın gözləri qarşısında ifşa edəndə də gördük. Vətənə dönüb blokada şəraitində yaşayan Naxçıvanın problemlərinin həlli üçün min bir əziyyətə sinə gərəndə, Azərbaycanın ən ağır günlərində xalqın təkidi ilə hakimiyyət rəhbərliyinə qayıdaraq ölkəni vətəndaş qırğınından, parçalanma təhlükəsindən xilas etmək üçün özünü pərvanə kimi odun-alovun içinə atanda da dönə-dönə gördük!..

## İlahi missiya

Heydər Əliyev çox güclü, qüdrətli bir insan idi.

Bir şəxsiyyət kimi onun xarakterində zəif cəhətlər axtarmaq, siyasi xarizmasında çatışmazlıqlar aramaq nəticəsizdir. Hətta ən qatı əleyhdarları belə bu cəhətləri tapa bilməyiblər, zaman-zaman onun gücünü, böyüklüyünü etiraf etməli olublar. Ona qalib gəlmək, Heydər Əliyevi prinsiplərindən əl çəkməyə cəhd göstərmək mümkünsüz iş idi.

Heydər Əliyev Azərbaycan naminə hətta ölümü də qəbul edərdi və bu, onun həyatında bir dəfə yox, dəfələrlə baş vermişdi. Ulu Öndər həyatını riskə qoyaraq Moskvadan Bakıya, buradan Naxçıvana köçmüşdü. Naxçıvandan Bakıya dönüşündən sonra təhlükəsizliyinə heç bir təminat olmaya-olmaya Gəncəyə, əlisilahlıların qabağına getmişdi. Bu böyük şəxsiyyətə qarşı sui-qəsd cəhdi an məsələsi idi. Ümummilli Liderin fəaliyyətində, ən riskli addımlarında, çıxışlarında heç kim o insanda hər hansı fərdi qorxunu, əndişəni hiss etməmişdi. O, fərdiyyətçi deyildi, həmişə deyirdi ki, Allahın qoruduğu canı kimsə ala bilməz. Tanrı Azərbaycan xalqının bu igid övladını təhlükələrdən, həqiqətən, qoruyurdu. Qoruyurdu ki, o da öz xalqını, millətini, dövlətini qorusun, Azərbaycanın bugünkü və gələcək uğurlarına yol açsın.

Heydər Əliyev xalqımıza addım-addım milli dövlətçilik uğurları qazandırdı. Demokratik, hüquqi dövlət quruculuğu prosesini əzmlə həyata keçirdi. Azərbaycanda qanunun aliliyi, insanların hüquq bərabərliyi, fərdi və ictimai azadlıqları təmin edildi. Vətəndaş cəmiyyəti formalaşdırıldı. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən sonra işə düşən qlobal enerji-kommunikasiya layihələri ilə ölkəmizin iqtisadi müstəqilliyi üçün zəruri əsaslar formalaşdırdı. Demokratik islahatlar dönməz xarakter daşımağa başladı.

Heydər Əliyev mahiyyətcə təkamülçü lider idi. O, islahatların radikal şəkildə deyil, addım-addım həyata keçirilməsinin tərəfdarı kimi çıxış edir, bu prinsipi hər zaman qoruyurdu. Əsas məqsədi istənilən ictimai-iqtisadi dəyişikliklər zəminində xalqın əziyyət çəkməməsi idi. Ölkəmizdə aparılan islahatlar gedişində də belə oldu. 1995-ci ildə qəbul edilmiş Konstitusiya, qanunlar o qədər mükəmməl şəkildə, dəqiq və həyati gücə qabil hazırlandı ki, onların tətbiqində hər hansı narazılıq elementləri yaranmadı. Bir çox postsovet ölkələrində baş verən mənfi tendensiyalar ölkəmizdə təkrarlanmadı. Ən mühümü isə Heydər Əliyev Azərbaycanın gələcək onilliklər üzrə inkişafı üçün strateji istiqamətləri müəyyənləşdirdi və planlarını onun cismani yoxluğu dövründə də davam etdirməyə qadir qüdrətli lideri, mükəmməl ağıla və qabiliyyətə malik dövlət rəhbərini yetişdirdi.

## Yarıməsrlik tarixin ən böyük nailiyyəti

Ulu Öndərin ideyaları işığında vətəni tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu gün müstəqil dövlətimizə rəhbərlik etməsi 1969-cu ildən başlanmış yarıməsrlik tarixin ən böyük nailiyyətidir. Çünki bu gün cənab İlham Əliyevin Azərbaycana sonsuz sevgi ilə həyata keçirdiyi işlərin hər birində həm də Ulu Öndər Heydər Əliyevin yarımçıq qalmış arzuları var.

Ümummilli Lider Azərbaycanı regionun lider dövləti kimi görmək istəyirdi. Prezident İlham Əliyev vətənə bu statusu uğurla qazandırdı. Azərbaycan bu gün qlobal layihələrin həlledici tərəfi, Avropanın enerji təhlükəsizliyinin əsas təminatçısı, sosial-iqtisadi inkişaf tempinə görə öncül ölkələrdən biri kimi hər kəsin hesablaşdığı, mövqeyinə hörmətlə yanaşdığı mütərəqqi bir ölkədir.

Heydər Əliyev milli sərvət kimi qoruyub inkişaf etdirdiyi tolerantlıq ənənələri, Azərbaycanı özünə vətən bilən hər kəsin içində bütövləşib vəhdət yaratdığı azərbaycançılıq ideologiyası ilə ölkəmizin hüzur dolu məkan olmasını istəyirdi.

Azərbaycanın bugünkü inkişaf mənzərəsi Heydər Əliyevin çin olmuş arzusudur. Ölkəmiz bu gün bütün dünyada tolerantlıq, mədəniyyətlər dialoqu məkanı kimi tanınır, multikultural dəyərlərin genişlənməsinə dəstək olur və bu dəyərlərə örnək ölkə kimi qəbul edilir.

Azərbaycanın Birinci vitse-prezidenti, Ulu Öndərin adını daşıyan fondun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr bütün dünyada ölkəmizin adını ucaldır, ona şərəf gətirir. İnsana və insanlığa ali dəyərlər aşılayır.

Heydər Əliyev Azərbaycanın abadlığını, müasirləşməsini, Azərbaycan insanının sosiallaşmasını, rifahının yüksəlməsini, biliklərə yiyələnməsini istəyirdi. Cəmiyyətimizi gələcəyə hazırlamaqdan ötrü ardıcıl tədbirlər həyata keçirirdi. İndi bu istiqamətlərin hər biri üzrə böyük nəticələr göz önündədir. Azərbaycan başdan-başa simasını dəyişmiş, daha böyük nailiyyətləri irəlidə olan abad bir ölkədir. Vətənin hər yerində abad, işıqlı məktəblər öz qapılarını xalqın balalarının üzünə açır. Gənclərə təhsil almaq, fərdi inkişafla məşğul olub bilik və bacarıqlarını artırmaq, karyera qurmaq üçün əlverişli imkanlar yaradılır. Azərbaycanın zəngin yeraltı, yerüstü sərvətləri üzərində dövrümüzün və əslində, bütün zamanların ən dəyərli sərvəti - insan kapitalı formalaşdırılır.

Azərbaycan bu gün qüdrətli orduya malik, düşmən Ermənistan üzərində həm sosial-iqtisadi, həm hərbi, həm də diplomatiya sahəsində böyük üstünlüklərə malikdir. İndi beynəlxalq aləmdə sözümüz daha ucadan eşidilir, böyük güclər rəyimizlə hesablaşırlar. Azərbaycan gələcəklə bağlı aydın yola, dəqiq strateji istiqamətlərə malikdir. Ulu Öndərin bir zamanlar bütün dünyaya bəyan etdiyi kimi, Azərbaycan vətəndaşının ən gözəl sabahları öndədir. Azərbaycan dövlətinin ən qüdrətli zamanları irəlidədir! Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir!

*Bütün bunlar Heydər Əliyevin ideyaları işığında yaşanmış 50 ilin Azərbaycan xalqına bəxş etdiyi tarixi nailiyyətlərdir. Bu əfsanəvi 50 ilin ucalığından müstəqil Azərbaycan dövlətinin gələcək yüzilliklərinin aydın üfüqləri, bu gələcəyi yaradan siyasi dühanın əzəmətli abidəsi görünür.*

**Nurlana ƏLİYEVA,**
***Bakı Slavyan Universitetinin rektoru, professor, YAP Qadınlar Şurasının sədri***



**Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının müstəqil dövlətçilik rəmzi və milli iftixarıdır. Mənsub olduğu Azərbaycan xalqının və milli dövlət müstəqilliyimizin tarixində və taleyində Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Azərbaycan xalqının Ümummilli Lideri miqyası və şöhrəti qazanmış Heydər Əliyev xalqımızın və dövlətimizin tarixində şərəfli yer tutmuşdur. Tərəddüd etmədən demək olar ki, respublikamıza qırx ilə yaxın bir müddətdə rəhbərlik etmiş Heydər Əliyev Azərbaycan xalqının əbədiyyət rəmzidir.**

# Müstəqil dövlətçiliyin Şərq tərəfdaşlığı modeli

Xalqımızın dünyada tanıdılmasında və müstəqil dövlətimizin dünya miqyasında özünə yer tutmasında görkəmli dövlət xadimi Heydər Əliyevin müstəsna xidmətləri vardır. Müstəqil Azərbaycan Respublikasının geniş mənada dünya ölkələri ilə çoxcəhətli əlaqələrinin formalaşdırılaraq inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi məsələsi Ulu Öndərin həmişə diqqət mərkəzində olmuşdur. Bu böyük dühа demək olar ki, dünyanın inkişaf etmiş ölkələrinin hamısında rəsmi səfərlərdə olmuş və beynəlxalq aləmlə geniş əlaqələr yaradaraq ölkəmizə etibarlı dostlar və tərəfdaşlar qazandırmışdır. Qüdrətli bir siyasi şəxsiyyət və böyük dövlət xadimi olaraq Sovet İttifaqı ilə yanaşı, Qərb dövlətlərində də, Şərq ölkələrində də yaxşı tanınan Heydər Əliyev dünyanın nüfuzlu şəxsiyyətlərindən biri kimi qəbul olunmuşdur. Bütün bunlar ona müstəqil Azərbaycan Respublikasının rəhbəri kimi ölkəmizin dünya ölkələri ilə əlaqələrinin yenidən qurulmasında yaxından kömək etmişdir.

Azərbaycan Respublikası yenidən dövlət müstəqilliyi qazandıqdan sonra görkəmli dövlət xadimi Heydər Əliyevin dünya ölkələri ilə əlaqələr yaratmaq baxımından ən çox diqqət yetirdiyi faktor ölkəmizin qonşu dövlətlərlə münasibətlərinin tənzimlənməsi və daha da möhkəmləndirilməsi məsələsi olmuşdur. Bu cəhətdən taleyin hökmü ilə Azərbaycana qayıtmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışmış Heydər Əliyevin Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə yaratdığı əlaqələr Sovet İttifaqı dağıldıqdan sonra ölkəmizin beynəlxalq münasibətlərə dair addımlarında nümunə idi. Bu dahi şəxsiyyətin Türkiyə Cümhuriyyəti ilə əlaqələri Azərbaycanın qərbyönlü inkişafına açılan bir qapı idi. XX əsrdə müstəqillik taleyinin böyük sınaqlarından zəfərlərlə çıxmış Türkiyə Cümhuriyyətindəki respublika tipli dövlətçilik sistemi, çoxpartiyalılıq, bazar iqtisadiyyatı və sair kimi məsələlərdən yaradıcı şəkildə istifadə etməklə və Azərbaycan reallıqlarını mütləq əsas kimi qəbul etməklə ölkəmizdə yeni cəmiyyəti formalaşdırmaq Heydər Əliyevin dövlətçilik təlimində mühüm yer tutmuşdur. Eyni zamanda Heydər Əliyevin İran İslam Respublikası ilə yaratdığı iqtisadi-mədəni əlaqələr qonşu ölkə ilə etibarlı münasibətləri qoruyub saxlamaqla yanaşı, Asiya qitəsinə doğru əlaqələrin formalaşmasına da yol açmışdır.

Azərbaycanın da, ilk növbədə, Qərb dövlətləri cərgəsinə doğru inkişaf etdirilməsi Heydər Əliyev siyasətinin aparıcı istiqamətini təşkil etmişdir. Azərbaycanın Avropa Şurasına üzvlüyə qəbul edilməsi, Müstəqil Dövlətlər Birliyində təmsil olunması Heydər Əliyevin qərbyönlü müstəqil dövlət yaratmaq uğrundakı mübarizəsinin böyük təməlləridir. Avropanın inkişaf etmiş ölkələri və Qərbin nüfuzlu beynəlxalq təşkilatları ilə yaradılmış çoxcəhətli münasibətlər, ilk növbədə, Azərbaycanın gənc müstəqil dövlət kimi tanıdılmasında, Azərbaycan həqiqətlərinin çatdırılmasında və ölkəmizə bu inkişaf etmiş qitədə dostlar və tərəfdaşlar qazanılmasında mühüm rol oynamışdır.

Bununla belə, görkəmli dövlət xadimi Heydər Əliyevin beynəlxalq münasibətlərə dair siyasətində və fəaliyyətində Asiya faktoruna da daim yüksək diqqət yetirilmişdir. Ulu Öndərin Azərbaycan Respublikasının Asiya ölkələri ilə əlaqələrinə müsbət münasibəti müstəqillik dövründə Avropa Şurası tərəfindən həyata keçirilməsinə başlanılan Şərq tərəfdaşlığı siyasətinin müddəaları ilə səsləşdiyindən Qərbdən də dəstək almışdır. Geniş mənada Asiya ölkələri ilə əlaqələrin uğurla davam etdirilməsi həm də müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin Şərq dünyasına verdiyi xüsusi önəmin nəticəsi idi.

Asiya istiqamətində Heydər Əliyevin atdığı ilk böyük addımlar müstəqil Azərbaycan dövlətinin İran İslam Respublikası ilə çoxcəhətli əlaqələrinin yaradılması ilə başlanmışdır. Ulu Öndərin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən İran İslam Respublikası ilə yaratdığı möhkəm əlaqələr geniş mənada müstəqil Azərbaycanın Asiyaya, Şərqə doğru münasibətlərinin möhkəm əsaslarını təşkil etmişdir. Dövlət müstəqilliyinin başlanğıc dövrünün ən gərgin zamanlarında Heydər Əliyevin İran İslam Respublikasının o zamankı rəhbərləri ilə tarixi görüşləri, əldə etdiyi razılaşmalar, imzaladığı mühüm tarixi əhəmiyyətə malik sənədlər, açdığı yollar həm ağır blokada şəraitində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasını Ermənistanın haqsız təcavüzlərindən qorumuş, iqtisadi böhrandan xilas etməyə xidmət etmiş, həm də bu əbədi qonşu ölkə ilə qarşılıqlı etibarlı münasibətlərin möhkəm əsaslarını formalaşdırmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin möhkəm və etibarlı qonşuluq siyasətində İran İslam Respublikası ilə çoxcəhətli əlaqələrə xüsusi diqqət yetirməsi, bu ölkə ilə bir çox dövlətlərarası beynəlxalq layihələrin həyata keçirilməsinə ciddi fikir verməsi əsası Ulu Öndərimiz tərəfindən qoyulmuş müdrik siyasətin yeni tarixi şəraitdəki uğurlu davamıdır.

Bu gün Azərbaycan-İran əlaqələri bütün sahələr üzrə sürətlə inkişaf edir və hər iki ölkə bu əlaqələrdən qarşılıqlı şəkildə faydalanır. Eyni zamanda İran İslam Respublikası ilə Azərbaycan Respublikasının əlaqələri həm də dövlətimizin Şərq siyasətinin də mühüm göstəricisidir. Fikrimizcə, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı, Pakistan, Əfqanıstan, Banqladeş və sair kimi Şərqin müsəlman ölkələri ilə geniş əlaqələri İran İslam Respublikası ilə əlaqələrin böyük təcrübəsi əsasında formalaşdırılmışdır. Asiya ölkələri ilə əlaqələrdə İslam dəyərləri amilinin nəzərə alınması həm də müstəqil Azərbaycan dövlətində keçmiş sovet dövlətindəki ateizm təbliğatından fərqli olaraq, ölkəmizdə İslam-müsəlman sivilizasiyası amilinə diqqət yetirilməsini də gündəmdə saxlamağın nəzərə alınmasını şərtləndirmişdir. Ümummilli Lider Heydər Əliyevin müqəddəs Kəbə ziyarətinə getməsi, Bakıda Bibiheybət məscidinin memarlıq əsəri kimi yenidən inşasını təmin etməsi, Naxçıvanda Kazım Qarabəkir məscidinin açılışında nitq söyləməsi dünyəvi dövlət olan Azərbaycanda İslam dininin rolunu, yerini və əhəmiyyətini dəqiq müəyyən edib inkişaf etdirməyə nümunə sayılmağa layiqdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda VIII əsrdə tikilmiş qədim Şamaxı məscidini əsaslı şəkildə yenidən qurması, din-dövlət münasibətlərində tolerantlığı ön mövqeyə çəkməsi Azərbaycanda yeni cəmiyyət quruculuğunda böyük ənənələrin yaradıcı şəkildə inkişaf etdirilməsinin parlaq nəticəsidir. Artıq Azərbaycan Respublikası həm mədəniyyətlərarası, həm də dinlərarası dialoqun əsas mərkəzlərindən birinə çevrilmişdir. Dünya dini liderlərinin birinci və ikinci sammitlərinin Azərbaycanda keçirilməsi bu istiqamətdə aparılan uğurlu dövlət siyasətinin təntənəsidir. Bu, dünya dövlətləri içərisində Azərbaycanın nüfuzunun daha da artmasına meydan açmaqla bərabər, Azərbaycanda multikulturalizm və tolerantlığın daha da inkişaf etdirilməsinə özünün böyük töhfələrini vermişdir.

Biz Azərbaycan-Pakistan əlaqələrindəki qarşılıqlı etimada əsaslanan dostluq və əməkdaşlıq münasibətlərini xüsusilə yüksək qiymətləndiririk. Həm Ümummilli Lider Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Pakistana səfərləri, Pakistanın dövlət rəhbərlərinin Azərbaycanda imzaladıqları sənədlər, əldə etdikləri razılaşmalar bu ölkə ilə bütün sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər açmışdır. Pakistanla ölkəmizin hərbi, iqtisadi, diplomatik, mədəniyyət sahələrində atdığı birgə addımlar hər iki ölkə üçün əhəmiyyətli olmuşdur. Bu gün Azərbaycan üçün Pakistan ən etibarlı və əhəmiyyətli bir tərəfdaş ölkədir və dövlətlərarası münasibətlərimiz ardıcıl surətdə inkişaf etməkdədir.

Müstəqil Azərbaycan Respublikasının Asiyanın böyük dövlətləri ilə əlaqələrinin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur. Qərblə əlaqələrdə siyasət, Şərqlə əlaqələrdə isə iqtisadiyyat mühüm yer tutmuşdur. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi Heydər Əliyevin 7-10 mart 1994-cü il tarixində Çin Xalq Respublikasına səfəri, əslində, qədim İpək yolunun bərpası və iqtisadi əlaqələrin genişləndirilməsi baxımından müstəsna dərəcədə əhəmiyyətli hadisə idi. Səfər zamanı Çin Xalq Respublikasının Azərbaycanın ərazi bütövlüyünü tanımasını bəyan etməsi həmin tarixi dövrün mühüm əhəmiyyətə malik hadisəsi idi. Bundan başqa, Çin səfəri çərçivəsində sərmayələrin təşviqi, turizm, elmi-texniki əlaqələr, hava nəqliyyatı əlaqəsi, səhiyyə, teleradio sahələrində qarşılıqlı əməkdaşlığa dair imzalanmış sənədlər dövlətlərarası münasibətlərin mühüm bünövrəsini təşkil etmişdir. Ölkə rəhbəri Heydər Əliyevin səfər zamanı 9 mart 1994-cü ildə Pekin İctimai Elmlər Akademiyasındakı nitqində deyildiyi kimi, "Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının perspektivlərini müəyyənləşdirən mühüm addımlar atılmışdır. Bu, dostluq əlaqələrimizin gələcək inkişafının proqramıdır. Bütün bunlar Çin Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi deməkdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına səfərləri (mart 2005, avqust 2008, avqust 2014 və dekabr 2015) bu böyük Asiya dövləti ilə əlaqələrin üfüqlərini daha da genişləndirmişdir. Azərbaycan Respublikasının Çin Xalq Respublikası ilə əlaqələrinin genişlənməsi və Bakı-Tiflis-Qars dəmir yolunun çəkilişi ilə tarixi İpək yolunun əhəmiyyəti daha da artmışdır. Azərbaycan dövlətinin indiki çətin pandemiya dövründə Çin Xalq Respublikası ilə qarşılıqlı şəkildə əməkdaşlıq etməsi ölkələrimiz arasındakı etibarlı dostluq və əməkdaşlıq münasibətlərinin mühüm bir göstəricisidir. Koronavirus bəlası ilə mübarizədə göstərdiyi dəstəyə və həmrəyliyə görə Çin Xalq Respublikasının Sədri Si Szinpinin Azərbaycan Respublikasına xüsusi təşəkkür məktubu göndərməsi bu nəhəng ölkə ilə əlaqələrimizin qarşılıqlı dostluq münasibətlərinə çevrildiyini nümayiş etdirir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Asiya siyasətində Yaponiya ilə əlaqələrin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi də xüsusi yer tutur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 24-28 fevral 1998-ci il tarixində Yaponiyaya rəsmi səfəri Azərbaycan Respublikasının Asiya qitəsindəki tərəfdaşlığının daha da genişləndirilməsinə səbəb olmuşdur. Bu səfərdə də Heydər Əliyev Yaponiyanın ölkəmizin ərazi bütövlüyünü tanıması haqqında bəyanatının səslənməsinə nail olmuş və iqtisadi-mədəni əməkdaşlığın yeni üfüqləri açılmışdır. Yaponiyanın dünyada qəbul edilmiş şirkətləri ilə əlaqələrin yaradılması, mühüm sazişlərin bağlanması, neft sektorunda əməkdaşlığın müəyyən olunması o dövr üçün böyük əhəmiyyətə malik olan hadisələrdir.

Prezident İlham Əliyevin 10-17 mart 2006-cı ildə Yaponiyaya rəsmi dövlət səfəri ölkələrarası münasibətləri yeni səviyyəyə qaldırmışdır. Bundan sonra Yaponiya kapitalı Azərbaycanda müxtəlif sahələrdə daha aktiv şəkildə iştirak etməyə başlamışdır. Yaponiyanın Azərbaycanda həyata keçirdiyi sosial layihələr qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə güclü təkan vermişdir. Neft sektoru ilə bərabər, turizm və humanitar sahələrdə Yaponiyanın ölkəmizdə icra etdiyi mədəniyyət layihələri ölkələrarası münasibətlərin əhəmiyyətli çalarına çevrilmişdir.

Eyni zamanda Asiya qitəsində özünəməxsus mövqeyə malik olan Cənubi Koreya ilə əlaqələrin yaradılması və inkişaf etdirilməsi də Ulu Öndərimiz Heydər Əliyevin Şərq ölkələri ilə əlaqələrin genişləndirilməsinə dair strategiyasının davamıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə Cənubi Koreyaya səfəri nəticəsində bu inkişaf etmiş ölkə ilə əməkdaşlığın böyük perspektivləri müəyyən olunmuş və konkret proqramlar üzrə işbirliyinə geniş meydan açılmışdır. Hazırda Azərbaycan bazarında Cənubi Koreya faktorunun özünəməxsus yer tutması iqtisadi inkişafda yeni bir istiqamətin formalaşmasına imkan yaratmışdır. İnformasiya texnologiyaları sahəsində, elektron hökumət layihələrinin formalaşdırılmasında Cənubi Koreya ilə əlaqələrin ölkəmizdə daha da genişləndirilməsi müasir inkişafda Cənubi Koreya amilinin fərqli yerini müəyyən edir.

Cənubi Koreya Respublikasının maliyyə və texniki dəstəyi ilə 2019-cu ildə Bakı şəhərində tikilib istifadəyə verilmiş ən müasir peşə təhsili kompleksi ölkələrarası qarşılıqlı əlaqələrin yeni nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu müasir peşə təhsili kompleksinin açılışında iştirak etməsi və dərin məzmunlu nitq söyləməsi Cənubi Koreya ilə əlaqələrimizin yeni və parlaq bir səhifəsidir.

Asiyanın "kiçik əjdahaları" hesab olunan Sinqapur və Malayziya ilə Azərbaycan Respublikasının əlaqələrinin yaradılması və inkişaf etdirilməsi yeni tarixi epoxanın reallıqlarıdır. Prezident İlham Əliyevin 20-21 noyabr 2012-ci ildə Sinqapura səfəri və dövlət səviyyəsində aparılan işgüzar danışıqlar, bağlanmış müqavilələr ölkəmizin Asiyadakı mövqelərinin daha da möhkəmlənməsini təmin etmişdir. Respublikamızda gəmiqayırma sənayesinin yenidən qurulmasında Sinqapurun xüsusi yer tutması beynəlxalq əməkdaşlığımızın yeni və əhəmiyyətli səhifəsini təşkil edir.

Həmçinin Azərbaycan Respublikasının Malayziya ilə yaratdığı əlaqələr beynəlxalq siyasətimizdəki Asiya amilinin inkişafına xidmət edir. Ulu Öndər Heydər Əliyevin hələ 1994-cü ildə İslam Konfransı Təşkilatının Mərakeş krallığında keçirilmiş Zirvə toplantısında Malayziyanın Baş Naziri Mahatir bin Məhəmmədlə keçirilmiş görüşü ilə başlanan əlaqələr sonrakı illərdə daha da inkişaf etdirilmişdir. Beynəlxalq təşkilatlarla əlaqələrə və fövqəladə hallar üzrə əməkdaşlığa daha çox meydan açan Azərbaycan-Malayziya əməkdaşlığı qarşılıqlı münasibətlərin inkişafına sanballı töhfələr verir. Malayziyanın keçmiş və hazırkı Baş nazirlərinin 2018-2019-cu illərdə Azərbaycana səfərləri ölkələrarası münasibətlərimizin inkişafında yeni perspektivlər açır.

Azərbaycan Respublikasının Vyetnam Xalq Respublikası ilə əlaqələrinin genişləndirilməsi istiqamətində dövlət səviyyəsində həyata keçirilən tədbirlər Asiya üfüqlərində yeni Azərbaycanın açdığı imkanlardır. Hələ keçmiş Sovet hakimiyyəti illərində Azərbaycanın rəhbəri Heydər Əliyevin Vyetnam Xalq Respublikası ilə yaratdığı əlaqələr sonrakı dövrlərdə daha da inkişaf etdirilmişdir. Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin 1983-cü ildə Vyetnam Xalq Respublikasına səfəri tarixi hadisəyə çevrilmişdir. Demək olar ki, sonrakı bütün dövrlərdə Azərbaycan-Vyetnam əlaqələri irəliyə doğru inkişaf etmişdir. Uzun illər ərzində Azərbaycan Vyetnam Xalq Respublikasının neft sənayesi üçün ali təhsilli yüksək ixtisaslı mütəxəssislər hazırlayan əsas baza rolunu oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ildə Vyetnam Xalq Respublikasına dövlət səfəri ilə mühüm tarixi əhəmiyyətə malik olan ənənələr yenidən dirçəldilmişdir. Vyetnam Respublikasının rəsmi dövlət nümayəndələrinin və elm adamlarının 2017-2019-cu illərdə Azərbaycanda keçirdikləri işgüzar görüşlər qarşılıqlı əlaqələrimizin salnaməsinə yeni səhifələr əlavə etmişdir. Hazırda iki ölkə arasındakı kənd təsərrüfatı, qida sənayesi, neft-qaz emalı, yüngül sənaye sahələrində əməkdaşlıq yüksələn xətlə inkişaf edir və əhəmiyyətli töhfələr verir.

Bütün bunlar aydın surətdə göstərir ki, artıq müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində Asiya ölkələri ilə qarşılıqlı əlaqələrin böyük ənənələri və etibarlı münasibətləri formalaşmışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən möhkəm əsasları qoyulmuş beynəlxalq münasibətlərdə Şərq tərəfdaşlığı siyasəti müasir dövrdə ardıcıllıqla və yaradıcılıqla inkişaf etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük səyləri ilə ölkəmiz dünyanın bütün qitələrində və əksər ölkələrində olduğu kimi, Asiya qitəsində də əməkdaşlıq üfüqlərini daim genişləndirir. Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrində yaranmış etibarlı tərəfdaşlıq münasibətləri Asiya ilə çoxcəhətli əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edir. Müstəqil Azərbaycan dövlətinin sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv dövlətlər içərisində Asiya ölkələri ilə münasibətlərini daha da genişləndirməsi bu ecazkar qitədə ölkəmizin əlaqələrinə yeni imkanlar əlavə etmişdir. Beləliklə, Asiya ilə əlaqələr Azərbaycanın dünya birliyinə tam, geniş, masştablı strategiyasının və Şərq tərəfdaşlığına töhfələrinin ifadəsidir. Şərq və Qərb əlaqələrinin üzvi sintezi və vəhdəti Azərbaycan Respublikasının beynəlxalq münasibətlərə dair strategiyasının əsasını təşkil edir. İnformasiya texnologiyaları, elektron sənaye, demoqrafiya, miqrasiya, turizm kimi istiqamətlərin inkişaf etdirilməsində Asiya ağırlığı Qərb maarifçiliyi ilə birlikdə Azərbaycanda köklü ənənələrin üzərində ucaldılmış müasir dövlətçiliyin, yeni inkişafın zənginləşməsinə və sürətlənməsinə imkan yaradır. Müstəqil Azərbaycan dövləti yeni tarixi mərhələdə dünya ilə hərtərəfli inkişafın və qarşılıqlı əməkdaşlığın geniş imkanlarını nümayiş etdirir. Dünya dövlətləri və beynəlxalq təşkilatlarda qarşılıqlı əlaqələrin genişləndirilməsi Azərbaycan üçün qarşılıqlı etimadı və əməkdaşlığı möhkəmləndirmək baxımından prioritet məsələdir. Və Azərbaycan Respublikasının dünya ilə əlaqələri dostluğa, əməkdaşlığa və həmrəyliyə uğurla xidmət edir.

***Rza TALIBOV,***
***Siyasi elmlər üzrə fəlsəfə doktoru,***
***Bakı Dövlət Universitetinin dosenti,***
***Batumi Dövlət Universitetinin fəxri doktoru***

# Müqəddəs Taxt-Tacın Ramazan ayı münasibətilə müraciətində Papa Fransiskin Heydər Məscidindəki çıxışından fikirlər yer alıb

Müqəddəs Taxt-Tacın rəsmi internet səhifəsində Dinlərarası Dialoq üzrə Pontifik Şurasının prezidenti Kardinal Miguel Angel Ayuso Guiksotun Ramazan ayı münasibətilə dünya müsəlmanlarına ünvanlanmış müraciəti yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, ingilis, fransız, italyan və ərəb dillərində dərc olunmuş müraciətdə Roma Papası Fransiskin 2016-cı il oktyabrın 2-də Bakıya səfəri zamanı Heydər Məscidini ziyarət edərkən etdiyi çıxışa aşağıdakı istinad yer alır: "Bu baxımdan, Roma Papası Fransiskin 2016-cı il oktyabrın 2-də Bakıdakı Heydər məscidini ziyarət edərkən söylədiklərini xatırlatmağa dəyər: "Bu dua yerində qardaşlıq, dostluq şəraitində keçirilən görüşümüz dinlərin məsuliyyət hissi ilə davranan insanlar arasındakı münasibətlərə, onların xoş məramına əsaslanaraq birlikdə qura biləcəyi harmoniyaya güclü bir işarədir".

# Azərbaycan bütün dövlətləri bir daha dostluğa, əməkdaşlığa və qarşılıqlı dəstəyə çağırdı

## Qlobal pandemiya dövründə ölkələr arasında həmrəylik xüsusilə aktualdır

Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə keçirilən Zirvə görüşü günün vacib məsələsinə - koronavirusla mübarizəyə həsr olunmuşdur. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşən bu tədbiri üzv dövlətlər yekdilliklə dəstəkləmişlər. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşlar.

Əvvəla, xatırladaq ki, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının XVIII Zirvə görüşü keçən il oktyabrın 25-26-da Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanda keçirilib. Üzv dövlətlərin yekdil dəstəyi və razılığı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatının sədrliyini Azərbaycan Respublikası öz üzərinə götürüb. Dövlət başçısı çoxtərəfli diplomatiyanın təşviq olunmasını, üzv ölkələr arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsini Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin prioritetlərindən biri kimi müəyyən edib.

Bu günlərdə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə toplantısı Azərbaycanın beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atdığının, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutduğunun təsdiqidir.

Toplantıda bildirilmişdir ki, Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçirmişdir. Belə ki, Prezidentin sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Həmişə olduğu kimi, pandemiya dövründə də dövlət üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Bu məqsədlə çoxsaylı və çoxşaxəli tədbirlər həyata keçirilir.

Hazırda Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfəsini verir.

Təsadüfi deyil ki, dövlət başçısı sözügedən tədbirdə bu amansız bəla ilə mübarizə üçün çağırış etmişdir: "COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik".

Prezident İlham Əliyev pandemiya şəraitində ölkələr arasında ticarətin açıq saxlanılmasının və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsinin vacibliyini də vurğulamışdır. Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilmişdir və onlarca ölkəni birləşdirən şərq-qərb, şimal-cənub, şimal-qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynamışdır. Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

Prezident eyni zamanda bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması məqsədilə pandemiyadan sonrakı dövr üçün də iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq səylərinin artırılmasının vacibliyini diqqətə çatdırmışdır.

İndiki zamanda tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus Azərbaycan Prezidentinə müraciət edərək demişdir: "Biz Ümumdünya Səhiyyə Təşkilatına Sizin verdiyiniz dəstəyi yüksək dəyərləndiririk. Mən həmçinin fürsətdən istifadə edərək Azərbaycan xalqına, Azərbaycan hökumətinə bizə 5 milyon ABŞ dolları həcmində maliyyə dəstəyinə görə təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək Zati-alinizə təşəkkürümü bildirirəm ki, Siz təşkilatımıza əlavə olaraq 5 milyon ABŞ dolları həcmində yardım göstərmisiniz".

ÜST-ün Baş direktoru eyni zamanda vurğulamışdır ki, heç bir ölkə öz ölçüsündən, resurslarından, pul imkanlarından asılı olmayaraq, pandemiyaya qarşı təkbaşına mübarizə apara bilməz: "Biz həmrəy olmalıyıq, bütün siyasi sərhədləri aşaraq heç zaman görünmədiyi qədər bu mühüm işləri aparmalıyıq. Çünki virus özlüyündə iki əsas meyarın bir kombinasiyasıdır. O, sürətlə yayılır və o qatildir. Buna görə də bizə qlobal həmrəylik və birlik lazımdır. Bu baxımdan biz virusu önləməliyik, ondan öndə getməliyik".

Məhz bu məqsədlə də Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi hazırkı çətin dövrdə bütün dövlətləri bir daha dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə çağırmışdır. Bir daha qeyd etmişdir ki, qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir.

"Biz birlikdə pandemiyaya qalib gələcəyik", - deyən dövlət başçısı İlham Əliyev bir daha buna əminliyini bildirmişdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Daxili işlər orqanlarında xidmət etmiş Böyük Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib

Mayın 8-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun göstərişi ilə nazirliyin nümayəndələri faşizm üzərində Qələbədən sonra həyatlarını daxili işlər orqanlarında xidmətə sərf etmiş bir qrup Böyük Vətən müharibəsi iştirakçısının evində olublar.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, onlar nazir V.Eyvazovun səmimi təbriklərini və bayram hədiyyəsini veteranlara çatdırıblar.

Bildirilib ki, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədən 75 il keçir. Qələbənin əldə olunmasında Azərbaycan xalqının da böyük töhfəsi və rolu olub. Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra imzaladığı sərəncamla hər il mayın 9-u Qələbə Günü kimi rəsmi dövlət bayramı səviyyəsində qeyd edilməyə, müharibə veteranlarının sosial-məişət şəraitinin, maddi rifahının yaxşılaşdırılmasına başlanıb, onların müalicələrinin təşkili istiqamətində əsaslı tədbirlər həyata keçirilib, müvafiq fərman və sərəncamlar imzalanıb.

Ümummilli Liderin Böyük Vətən müharibəsi iştirakçılarına, müharibədə həlak olanların ailələrinə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Veteranlardan Müseyib İlyasov, Mehdi Mehdiyev, Əli Hacıyev, Əlikişi Cümşüdov, Səfər Abdullayev və Əzim İbrahimov göstərilən yüksək diqqət və qayğıya görə ölkəmizin başçısına və Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# Rusiyada fəaliyyət göstərən iş adamı, həmyerlimiz Qod Nisanovun təşəbbüsü ilə Azərbaycana 10 təcili tibbi yardım maşını göndərilib

Azərbaycanda koronavirus (COVID-19) infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində dövlətlə yanaşı, ictimaiyyətin ayrı-ayrı nümayəndələri tərəfindən göstərilən həmrəylik diqqət çəkir.

AZƏRTAC xəbər verir ki, dövlət tərəfindən görülən işlərə vətəndaşların növbəti dəstəyi isə Rusiyada yaşayan həmyerlimizdən gəlib. Rusiyada fəaliyyət göstərən iş adamı Qod Nisanovun təşəbbüsü ilə ölkəmizə 10 təcili tibbi yardım maşını göndərilib.

Xüsusi təyyarə ilə Bakıya çatdırılan maşınlar "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" - TƏBİB-in maddi-texniki bazasının gücləndirilməsi məqsədilə birliyin istifadəsinə verilib.

Hazırda qlobal səviyyədə COVID-19 pandemiyası ilə mübarizə aparıldığı bir dövrdə dövlətlərin və insanların həmrəylik nümayiş etdirməsi yüksək qiymətləndirilir. Çünki bütün zamanlarda hər bir çətinlik və təhlükə birgə səylər nəticəsində dəf olunub. Dünyada yeni növ koronavirus infeksiyasının yayıldığı bir dövrdə də COVID-19 xəstəliyi ilə mübarizə qarşılıqlı dəstək olduqda daha səmərəlidir.

# Xilaskarlıq və quruculuq məramı

Əvvəli 1-ci səh.

XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması məhz Ümummilli Lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla əsasını qoyduğu uzaqgörən siyasətin nəticəsidir. Hakimiyyətdə olduğu 34 il müddətində Ulu Öndər xalqının tarixi mənafeləri uğrunda əzmkar mübarizə aparmış və ictimai-siyasi proseslərdə real güc mərkəzi kimi özünü göstərmişdir.

Azərbaycanlı təfəkküründə əsrlər boyu aktuallığını qoruyub saxlayan ədalətli rəhbər arzusu da məhz Heydər Əliyev dühasının parlaq şəxsiyyətində reallığa qovuşmuş, Ümummilli Lider siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm və insanpərvərlik prinsiplərinə əsaslanan mükəmməl idarəçilik sisteminin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. Hələ 1969-cu ilin iyulun 14-də Azərbaycanda rəhbərliyə başlayan Heydər Əliyev respublikada qanunçuluğun gücləndirilməsinə başlamış, məmur özbaşınalığına, korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizə aparmışdır. Məhz bu mərhələdən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir.

Obyektivlik hissini itirməyən tarixçilər etiraf edirlər ki, Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix böyük strateqin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz Ulu Öndər Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir.

1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın quruculuq salnaməsinin ən dolğun və şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən qüdrətli dövlətə çevrilməsinin hazırkı möhkəm təməli də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı güclü iqtisadi bünövrəyə söykənir.

Keçmiş Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində də mühüm tədbirlər həyata keçirmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın İttifaq miqyasında öncül mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə təkan vermişdir.

Ümumilikdə, 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində respublikamızda onlarca zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tutmuş, respublikamızda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr bu günün özündə də milli iqtisadiyyatın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir.

Ümummilli Liderin yeritdiyi siyasətin dərinliyi və uzaq hədəflərə hesablanması da məhz onun elmi prinsiplər üzərində qurulması, zəngin intellektual potensiala söykənməsi ilə şərtlənirdi. Həmin illərdə respublikada məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlayan yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin iqtisadiyyatın bütün sahələrində tətbiqi Ulu Öndərin təhsil siyasətinin əsas mahiyyətini təşkil edirdi. Məhz Ümummilli Liderin şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başlamış və bu sahədə milliləşdirmə prosesinə start verilmişdir.

Bütün bunlar göstərir ki, respublikaya birinci rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyev qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmiş, bununla da respublika regionlarının tarazlı qaydada inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, demoqrafik inkişafa, kənd və qəsəbələrin sosial-mədəni simasının müasirləşməsinə dair strateji məqsədlərini ardıcıllıqla həyata keçirmişdir. Ulu Öndər Heydər Əliyev o dövrün ən ağır şərtləri, məhdudiyyətləri çərçivəsində xalqının gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni belə reallığa çevirmişdir.

Tarix boyu böyük siyasi liderlər üçün səciyyəvi keyfiyyətlərdən biri də onların xalq və dövlət üçün ən böhranlı, çətin sınaq anlarında məsuliyyəti çiyinlərinə götürmələri, bütöv bir xalqın, millətin xilaskarına çevrilmələri olmuşdur. Bu mənada Ümummilli Lider Heydər Əliyevin idarəçilik keyfiyyətləri sırasında onun ən çətin, millətin taleyi baxımından məsuliyyətli zamanlarda düzgün qərarlar qəbul etmək məharətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan özünün dövlət müstəqilliyinin bərpasından cəmi 2 il sonra - 1993-cü ildə çətin sınaqlarla üz-üzə qalanda xalqın yeganə xilaskar kimi Ulu Öndər Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də məhz bu gerçəklikdən qaynaqlanmışdır.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. İctimai-siyasi sabitliyin bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını irəli sürmüşdür.

Ulu Öndər keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılması təmin edilmişdir.

Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Ulu Öndər Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatlar aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlamış və 1994-cü ildən etibarən mərhələlərlə həyata keçirilmişdir.

Beynəlxalq hüququn müstəqil subyekti olan Azərbaycanda həmin dövrdə demokratik cəmiyyətin atributu olan, vətəndaş cəmiyyətinin bərqərar edilməsini, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən yeni milli Konstitusiyaya ehtiyac duyulurdu. Bu zərurəti düzgün qiymətləndirən Ümummilli Lider Heydər Əliyev dövlətin təməlinin möhkəm siyasi-hüquqi əsaslar üzərində qurulması üçün, ilk növbədə, müstəqil Azərbaycan Konstitusiyasının hazırlanaraq qəbul edilməsini vacib saymışdır. Onun rəhbərliyi altında 6 ay müddətində hazırlanan, 1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Ulu Öndər Heydər Əliyev yaxşı bilirdi ki, bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı keçid iqtisadiyyatlı ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasında, hökumətin qarşıya qoyduğu strateji məqsədlərin uğurla reallaşdırılmasında mühüm rol oynayır. 1995-ci ildən etibarən respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələləri daim diqqət mərkəzində saxlanılmışdır.



Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə 1997-ci ildə qüvvəyə minmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir. Kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün sonrakı mərhələdə "Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra mütərəqqi dəyişiklik və əlavələr edilmiş, habelə "Haqsız rəqabət haqqında", "İnvestisiyaların qorunması haqqında", "İstehlak bazarı haqqında" və digər zəruri qanunlar qəbul edilmişdir. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz və xüsusi risklilik tələb etməyən biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdır.

Ulu Öndər hakimiyyətə gəldiyi ilk dövrlərdən sahibkarlarla görüşür, onların qayğılarını, problemlərini öyrənir, mövcud çətinliklərinin həlli məqsədilə operativ qərarlar qəbul edirdi. Sahibkarlarla ilk belə səmimi görüşlərdən biri də 1996-cı ilin əvvəllərində keçirilmişdi. Həmin görüşdə iş adamları sahibkarlığın inkişafı sahəsində mövcud çətinlikləri diqqətə çatdırmış, səmərəli nəticələrə nail olmaq üçün təkliflər irəli sürmüşdülər. Ulu Öndər sahibkarları diqqətlə dinləmiş, özəl sektorun fəaliyyətinə mane olan neqativ amillərin aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət qurumlarına tapşırıqlar vermişdi. Eyni zamanda Heydər Əliyev həmin görüşdə sahibkarlıq subyektlərinə dövlət büdcəsindən güzəştli kreditlərin verilməsi, habelə dövlət-sahibkar münasibətlərinin institusionallaşması üçün Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması ilə bağlı təşəbbüslərimizə müsbət yanaşmış, bu yönümdə operativ qərarlar qəbul etmişdi. Ulu Öndərin sərəncamı ilə yaradılmış şuranın məqsədi ölkədə sahibkarlığın inkişafına nail olmaq, iş adamlarının dövlət başçısının yürütdüyü siyasətin həyata keçirilməsində səmərəli, fəal iştirakını istiqamətləndirmək, bu yolda mövcud olan problemləri araşdırmaq və onların həlli üçün təkliflər verməkdir.

1998-ci ildə keçirilmiş prezident seçkilərində Ulu Öndərin vəkili olmuş şəxs kimi əminliklə deyə bilərəm ki, onun rəhbərliyi ilə 1993-2003-cü illərdə yürüdülən siyasət iqtisadi islahatların və inkişafın mahiyyət etibarılə yeni - Azərbaycan modelinin formalaşmasına zəmin yaratmışdır. Bu modelin fərqləndirici xüsusiyyəti isə inkişaf üzrə müəyyən olunmuş istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi; iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması; sosialyönümlülüyün gözlənilməsi; milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir.

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev dühası bu gün cismən aramızda olmasa da, onun ölməz ideyaları xalqın uğurlu inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında toparlayır. Həm də onunla qürur duyuruq ki, Ümummilli Liderin Prezident cənab İlham Əliyev kimi xalqının, dövlətinin maraqlarını daim uca tutan, hər bir vətəndaşın mənafeyini nəzərə alan, bir sözlə, hər vədini əməli işi ilə doğruldan layiqli davamçısı var. Ölkəyə rəhbərlik etdiyi 17 ilə yaxın müddətdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini, reallığa adekvat olduğunu göstərmiş, onun ictimai rəydə alternativsiz rəhbər kimi qəbul edilməsini şərtləndirmişdir.

Son illər geosiyasi səbəblərlə bağlı neftin qiymətlərinin 2-3 dəfəyədək aşağı salınması və neft-qaz ölkələrinin süni böhranla üz-üzə qoyulması fonunda respublikamızın nümayiş etdirdiyi makroiqtisadi dayanıqlıq milli inkişaf modelinin qlobal təhdidlərə çevik müqavimət əzmini bir daha nümayiş etdirir. Realist siyasətçi kimi yeni dövrün çağırışlarını düzgün dəyərləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusən də ötən 5 ildə həyata keçirdiyi antiböhran tədbirləri özünün sistemli və ardıcıl olması ilə diqqəti çəkir. Dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın postneft dövrünə uyğunlaşdırılması, böhranın milli iqtisadiyyata şok təsirlərinin aradan qaldırılması, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədini önə çəkir.

Dövlət rəhbəri Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqsədini sadəcə deklorativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində konkret addımlar atır. Son illərdə imzalanmış "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" kimi konseptual əhəmiyyətli sənədlər də göstərir ki, cənab İlham Əliyev Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib hazırlanmasına çalışır.

İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı nəzərdə tutulmuş tədbirlərin ardıcıl şəkildə reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə regional inkişaf proqramları təsdiq edilərək uğurla icra olunur. Beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirən Azərbaycan hazırda dünyada tərəfdaş kimi tanınır. Respublikamız beynəlxalq miqyasda öhdəliklərinə sadiq olan, investisiyaların qorunmasına təminat verən dövlət kimi qəbul edilir. Bu da, öz növbəsində, respublikamızın investisiya cəlbediciliyinə müsbət təsirini göstərir.

Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft, Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Son 15 ildə reallaşdırılan ən mühüm layihələrdən olan "Cənub qaz dəhlizi" layihəsi enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii qaz təchizatçılarından birinə çevirməkdədir.

Ötən dövrdə respublikamızın tranzit imkanlarının reallaşması üçün digər iri layihələr də uğurla reallaşdırılmışdır. Bu baxımdan Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun tikintisi, TRASECA, Şimal-Cənub, Şərq-Qərb dəhlizləri çərçivəsində görülən işlər, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi xüsusi vurğulanmalıdır.

Bütün bunların nəticəsi olaraq Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarından olan Dünya İqtisadi Forumunun ötən il açıqladığı "2019-2020 Qlobal Rəqabətlilik Hesabatı"nda 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci yerdə qərarlaşmışdır.

Xüsusi vurğulamaq lazımdır ki, Nazirlər Kabinetinin 2018-ci ilin 11 aprel seçkilərindən sonra təsdiqlənmiş yeni tərkibi və əsaslı kadr əvəzlənmələri fonunda dövlət idarəetmə sisteminin tamamilə yenilənməsi prosesinə start verilmişdir. Cənab İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və digər mühüm qərarları qəbul edir, gəncləri dövlət idarəetməsinə irəli çəkir. Menecer təfəkkürlü, müasir dünyanın aktual çağırışlarını adekvat qiymətləndirməyi bacaran gənc və perspektivli kadrların mühüm postlara təyin edilməsi Azərbaycanda sistem xarakterli islahatlara etibarlı zəmin yaratmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən 2 ildə apardığı ciddi kadr dəyişiklikləri, məmurlara, dövlət rəsmilərinə fəaliyyətlərini məhz vətəndaşların mənafelərinin müdafiəsi barədə qəti tapşırıqlar verməsi ictimai fikirdə demokratik inkişafa xidmət edən islahatların uğurla gedəcəyinə qəti inam yaratmışdır. Dövlət başçısı idarəçiliyin təkmilləşdirilməsi prosesini daim diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin, xidmətlərin yaradılmasını da vacib sayır. Bunlar situasiyaların səmərəli şəkildə idarə olunması və idarəetmədə meydana çıxacaq ziddiyyətlərin aradan qaldırılması baxımından son dərəcə əhəmiyyətlidir.

Hüquqi dövlət quruculuğu siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin fəaliyyətində korrupsiyaya qarşı mübarizə, aşkarlıq və şəffaflığın təmini tədbirləri də xüsusi yer tutur. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində müxtəlif kateqoriyadan olan məmur təbəqəsinin və digər vətəndaşların sosial rifah tədbirlərinin genişləndirilməsi, qanunçuluğun gücləndirilməsi və maarifləndirmə yolu ilə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri xüsusi diqqətdə saxlanılır. Son 5-6 ayda bəzi rayonların rəhbər şəxslərinin korrupsiya və digər neqativ hallara görə həbs edilməsi bir daha göstərir ki, ölkənin müasirləşdirilməsi, idarəçiliyin şəffaflaşdırılması naminə ciddi siyasi iradə ortaya qoyulmuşdur. Edilən xəbərdarlıqlardan nəticə çıxarmayanlar, sosial cəhətdən aztəminatlı insanlara ayrılan yardımları mənimsəyənlər bundan sonra da sərt şəkildə cəzalandırılacaqlar.

Dövlət başçısı cənab İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edərkən bununla bağlı demişdir: "Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə, - hələ bu siqnallar araşdırılır, - vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu, cinayətdir, bu, bizim cəmiyyətimizin əsaslarını sarsıdan addımlardır, çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam, ilk növbədə, neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək".

Sistem xarakterli islahatların hazırkı mərhələsində mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması istəyi özünü daha qabarıq büruzə verir. İndiki mərhələdə dövlət başçısının başlıca tələbi yeniliklərlə ayaqlaşmaq, aparılan islahatların mahiyyətini düzgün dərk edərək ona dəstək vermək, bürokratik və neqativ amillərdən tamamilə uzaq olmaq, xalq üçün işləmək, hər bir vətəndaşın mənafeyini uca tutmaqdır. Bu mənada xatırlatmaq vacibdir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin hələ 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar olmuşdur. Bu təyinat mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması və islahatların sürətləndirilməsi baxımından əhəmiyyətli olmuş, Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun rəhbəri olaraq cəmiyyətdə qazanmış yüksək nüfuzu ilə dövlət idarəçiliyinə yeni nəfəs, müasirləşmə və innovativ ruh gətirmişdir.

2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanmasında, xüsusən də 2019-cu ilin əvvəlindən etibarən əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsində dövlət başçısı cənab İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür. Yürüdülən uğurlu iqtisadi siyasət - çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son aylarda ölkəmizin maliyyə imkanlarının daha da artması ilə paralel dövlət başçısı uğurlu sosial islahatlar paketinin reallaşdırılmasını təmin etmişdir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, son aylarda koronavirus infeksiyasının geniş yayılması ilə bağlı bütün dünya ölkələrində yaranmış ağır maliyyə-iqtisadi, mənəvi-psixoloji çətinliklər obyektiv proses kimi Azərbaycandan da yan keçməmişdir. Bununla belə, əminliklə deyə bilərik ki, dövlət başçısı cənab İlham Əliyevin ilk günlərdən pandemiyanın yayılma arealını və sürətini, mümkün riskləri düzgün analiz etməklə təsirli qabaqlayıcı tədbirlərə başlaması respublikamızın qlobal təhlükədən maksimum az itki ilə çıxmasını təmin etmişdir.

Hələ fevral ayından Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, infeksiyadan qorunmaq üçün əhaliyə sosial məsafə saxlamaq və evdə qalmaq kimi zəruri tədbirlərin əhəmiyyətinin geniş izahı, sərhədlərin bağlanması, aviareyslərin təxirə salınması, məktəblər, uşaq bağçaları, ali məktəblər, ictimai-iaşə müəssisələri, restoran və əyləncə mərkəzlərinin, ticarət obyektlərinin s. fəaliyyətinin müvəqqəti dayandırılması xalqın sağlamlığının qorunması baxımından əhəmiyyətli addımlar olmuşdur.

Şübhəsiz, koronavirus pandemiyası bəşəri bəla olduğundan ictimai sosial məsuliyyət və dövlət-vətəndaş həmrəyliyini tələb edir. Təcrübə göstərir ki, bu qlobal təhdidə qarşı ictimai həmrəylik nə qədər güclü və davamlı olarsa, bir o qədər uğurlu nəticələr əldə etmək mümkündür. Koronavirusla mübarizədə məhz bu iki amilin vəhdəti Azərbaycana ciddi uğur qazandırmışdır - dövlət başçısı tərəfindən vaxtında düzgün və qətiyyətli qərarların qəbulu və vətəndaşlar tərəfindən yüksək sosial məsuliyyət hissi ilə bu qərarların qeyd-şərtsiz icrası.

Koronavirus infeksiyası ilə mübarizənin səmərəli təşkili məqsədilə dövlət rəhbərinin 19 mart 2020-ci il tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, eləcə də dövlət başçısının və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın quruma ilk maliyyə ianəsi edən şəxslər olması cəmiyyətdə həmrəylik əhvali-ruhiyyəsini artırmışdır. Bu nəcib təşəbbüsə müxtəlif dövlət qurumları, özəl təşkilatlar, biznes strukturları, sahibkarlar, müxtəlif peşə sahibləri qoşulmaqla birlik və həmrəylik nümayiş etdirmişlər. Bu sosial aksiyalar Ramazan ayında da inamla davam etdirilir və aztəminatlı insanlar qayğı ilə əhatə olunurlar.

Əlbəttə, tətbiq edilmiş sosial izolyasiya tədbirləri iş yerləri müvəqqəti bağlanmış vətəndaşları, eləcə də ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələri olan sahibkarları da qayğılandırırdı. Amma dövlətimiz belə ağır məqamda heç kimi darda qoymayaraq hər kəsə yüksək qayğı və diqqətlə yanaşmışdır. Virusla mübarizə tədbirləri çərçivəsində əhalinin, eyni zamanda iş adamlarının mənafelərinin maksimum dərəcədə nəzərə alınması dövlətin sosialyönümlü mahiyyətini dolğun şəkildə əks etdirir. Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli sərəncamına əsasən, pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədi ilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketi qəbul olunmuş, sənəddə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlər, habelə yardımlar nəzərdə tutulmuşdur.

İqtisadçı alim və iş adamı olaraq hesab edirəm ki, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra vergi güzəştlərinin və vergi tətillərinin verilməsi; mikrosahibkarlıq subyektlərinə 2020-ci ilin yanvarın 1-dən 2021-ci ilin yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin edilməsi yolu ilə 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə keçid, həmçinin vergilərin, cari vergi ödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi dövlətimizin özəl sektora mühüm dəstəyidir. Bundan əlavə, koronavirus pandemiyasının bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə 2020-ci ilin 1 yanvar tarixindən etibarən bir il müddətində əmlak və torpaq vergiləri üzrə tam məbləğdə azadolma və digər mühüm güzəştlər nəzərdə tutulmuşdur.

Milli Məclisdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanuna edilmiş dəyişikliklə, - 2.1-ci maddədə göstərilən yoxlamalar istisna olmaqla, - Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamaların 2021-ci ilin yanvarın 1-dək dayandırılması da mühüm tədbirlər sırasındadır.

Dövlət başçısının daha bir nəcib göstərişinə əsasən, pandemiyadan zərər çəkmiş, iş yerini itirmiş və yaxud da işləməyən 600 min nəfərədək vətəndaşa 2 ay müddətində 190 manat məbləğində sosial ödəmənin verilməsi təmin olunur. Aztəminatlı ailələrə maliyyə yardımının göstərilməsi və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə dəstək də bu proqramın tərkib hissəsidir. Ünvanlı sosial yardım alanların sayının artırılması, özünüməşğulluq proqramlarına cəlb edilən ailələrin əhatəsinin genişləndirilməsi, ictimai əsaslı iş yerlərinin yaradılması və digər sosial tədbirlər yüzminlərlə insanın sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir. Eyni zamanda əhalinin elektrik enerjisinin kommunal limitinin artırılması proqramı da birbaşa sosial xarakterlidir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə respublikamızda tətbiq olunmuş xüsusi karantin rejiminin 04 may 2020-ci il tarixdən əsaslı dərəcədə yumşaldılması, bütün fərdi ticarət obyektlərinin fəaliyyətə başlaması, bölgələrdə karantin rejiminin ləğvi göstərir ki, Azərbaycan üzləşdiyi ağır sınaqdan üzüağ çıxır. Bu gün böyük qürur hissi ilə qeyd edə bilərik ki, respublikamızın pandemiyanın qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirlər dünyada mütərəqqi model kimi qəbul olunur və yüksək dəyərləndirilir. Əldə olunan nəticələr vətəndaşlarda, o cümlədən qədirbilən Sumqayıt sakinlərində böyük razılıq hissi doğurur.

Bu gün əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda regionun sürətlə inkişaf edən, yeniləşən, müasirləşən dövlətinə çevrilmişdir. Respublikamız pandemiya dövründə iqtisadi müvazinətini qoruyub saxlayır, sosial və infrastruktur yönümlü layihələr həyata keçirir və mümkün risklərə qarşı qabaqlayıcı tədbirlər görür.

*Cəmiyyətin bütün sahələrində özünü göstərən dirçəliş, intibah, şəffaflıq meyilləri sosial-mədəni sferada da özünü qabarıq şəkildə büruzə verir. Ən başlıcası, bu gün cəmiyyətimizin bütövlüyü və monolitliyi - xalq-iqtidar birliyi ölkəmizin üzləşdiyi qlobal təhdidlərə qarşı əzmkar müqaviməti təmin edərək mövcud çətinliklərin qısa zamanda aradan qalxacağına əminlik yaradır.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***

# Azərbaycan Prezidenti və Pakistan Prezidenti koronavirusla mübarizə sahəsində həyata keçirilən tədbirlərdən danışıblar



**Mayın 8-də Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Pakistan Prezidenti Arif Alvi Prezident İlham Əliyevin təşəbbüsü ilə bu yaxınlarda Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunmuş videokonfransının keçirilməsi münasibətilə təbriklərini çatdırdı və konfransın pandemiya ilə mübarizə sahəsində səylərin gücləndirilməsi baxımından önəmini qeyd etdi.

Prezident İlham Əliyev bu tədbirin ölkələr arasında həmrəyliyin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə böyük töhfə verdiyini bildirdi.

Dövlət başçıları beynəlxalq səviyyədə ölkələrimizin bundan sonra da bir-birilərinin mövqeyini dəstəkləyəcəklərinə əminliklərini ifadə etdilər.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev və Prezident Arif Alvi koronavirusla mübarizə sahəsində həyata keçirilən tədbirlərdən danışdılar, ikitərəfli münasibətlərin perspektivləri, o cümlədən iqtisadi və ticarət əlaqələrinin inkişafı ilə bağlı fikir mübadiləsi apardılar.

***Prezidentin Mətbuat xidməti***

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Banklar haqqında" və "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 12-ci, 16-cı, 17-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1361-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908) 61.3-cü və 965.2.3-cü maddələrinə "haqları" sözündən sonra "və işsizlikdən sığorta haqları" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli Qanunu) 477-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 477-1.1.1-ci, 477-1.1.3-cü və 477-1.1.6-cı maddələr ləğv edilsin;

2.2. 477-1.1.7-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"477-1.1.7. sığorta haqqının hesablanmasını və uçotunu aparmamasına, hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat verməməsinə, habelə sığorta ödənişi üçün əsas olan sənədlərin və məlumatların qorunub saxlanılmasını təmin etməməsinə görə - ".

**Maddə 3.** "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 460; 2001, № 1, maddə 25, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2006, № 3, maddə 225; 2007, № 5, maddə 401; 2008, № 5, maddə 348; 2010, № 4, maddə 276; 2015, № 4, maddə 355, № 11, maddə 1260; 2017, № 3, maddə 332, № 5, maddə 736; 2018, № 4, maddə 652, № 12 (I kitab), maddə 2529; 2019, № 1, maddə 28, № 4, maddə 600, № 6, maddə 993) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 35-ci maddənin 5-ci hissəsində "sığortası" sözü "sığorta haqları və işsizlikdən sığorta haqları" sözləri ilə əvəz edilsin;

3.2. 41-1-ci maddənin 4-cü hissəsinin "ç" bəndinə və 53-cü maddənin 1-ci hissəsinin "ç" bəndinin ikinci abzasının birinci cümləsinə "haqları" sözündən sonra "və işsizlikdən sığorta haqları" sözləri əlavə edilsin.

**Maddə 4.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365) 82.1.7-ci maddəsində "və məcburi dövlət sosial sığortası" sözləri ", məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 209; 2010, № 4, maddə 276; 2014, № 11, maddə 1349) 8.1.1-ci maddəsinə "haqlarının" sözündən sonra ", işsizlikdən sığorta haqqlarının" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Banklar haqqında" və "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 62-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 25 avqust tarixli 386 nömrəli və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Banklar haqqında" və "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 62-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609; 2001, № 10, maddə 640; 2003, № 8, maddə 435, № 10, maddə 552; 2004, № 6, maddə 435; 2005, № 2, maddə 64, № 5, maddə 403; 2006, № 7, maddə 590, № 12, maddə 1034; 2007, № 3, maddə 228, № 6, maddə 606, № 11, maddə 1110, № 12, maddə 1246; 2008, № 6, maddə 493; 2009, № 3, maddə 163, № 5, maddə 324; 2010, № 5, maddə 399, № 7, maddələr 610, 628; 2011, № 8, maddə 751; 2012, № 6, maddə 535; 2014, № 6, maddə 626; 2016, № 9, maddə 1464, № 12, maddə 2071; 2017, № 2, maddə 186; 2018, № 1, maddə 43, № 2, maddə 171, № 7 (I kitab), maddə 1448; 2019, № 4, maddə 617, № 7, maddə 1239) 3.4-cü bəndində "dövlət büdcəsinə məcburi ödənişlər üzrə borclara münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi, büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları üzrə borclara münasibətdə isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 mart tarixli 962 nömrəli, 19 mart tarixli 964 və 965 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "473.3" rəqəmlərindən sonra ", 477-1.1.7 (hər iki halda)" sözləri əlavə edilsin;

2.2. 4.33-cü bəndə "müvafiq icra hakimiyyəti orqanı" sözlərindən sonra ", 477-1.1.7-ci maddəsində (hər iki halda) "orqan (qurum)" sözləri əlavə edilsin;

2.3. 5.4-cü bənddə "477-1-ci" sözləri "477-1.1.2-ci, 477-1.1.4-cü, 477-1.1.5-ci, 477-1.2-ci" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 5.58-1-ci bənd əlavə edilsin:

"5.58-1. həmin Məcəllənin 477-1.1.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2020-ci il*

# *Hikmət HACIYEV:* "Özünü demokratik adlandıran Ermənistan hakimiyyəti, ilk növbədə, faşist cəlladlarına ucaldılmış heykəlləri sökməlidir"

Özünü demokratik adlandıran Ermənistanın indiki hakimiyyəti, ilk növbədə, faşist cəlladlarına ucaldılmış heykəlləri sökməlidir.

Bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan Xarici İşlər Nazirliyinin açıqlaması ilə əlaqədar AZƏRTAC-a şərhində bildirib.

Hikmət Hacıyev deyib: "Birinci dəfə deyil ki, MDB dövlətlərinin II Dünya müharibəsi veteranları icması faşist cəlladı Qaregin Njdeyə abidə ucaldılması məsələsini qaldırıb. Bir neçə il əvvəl Azərbaycan veteranları MDB ölkələrindən olan veteranlara faşist generalı Qaregin Njdenin şərəfinə Yerevanda abidə qoyulması ilə bağlı məktub ünvanlamışdı.

Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 11-də Aşqabadda MDB-nin Zirvə görüşündəki məlum çıxışı MDB dövlət başçılarının diqqətini bu məsələyə cəlb etmək məqsədi daşıyırdı. Sevindirici haldır ki, Rusiyanın Armavir şəhərində erməni kilsəsi tərəfindən zəbt edilmiş ərazidə Qaregin Njdeyə qoyulmuş memorial lövhənin götürülməsi ilə əlaqədar qərar qəbul edilmişdir.

Njdenin faşist cəlladı olduğunu sübut edən kifayət qədər sənədlər var. Sovet İttifaqı tərəfindən 25 il müddətinə həbs edilmiş Qaregin Njdeyə bəraət verilməmişdir. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim etmişdir. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim Respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb".

Qaregin Njdenin formalaşdırdığı irqçi təmayüllü şovinist təlimi Ermənistanın sabiq hakim Respublikaçılar partiyasının ideoloji əsasını təşkil edir. Faşizmdən və irqçi "Ari" ideologiyasından qaynaqlanan bu təlim "Tseğakron" (millətçi, dini və bütpərəst mistizminin irqçi birləşməsi) və ya "Njdeizm" adlanır. "Njdeizm" adı altında bu irqçi ideologiya Ermənistanda orta və ali məktəb proqramına daxil edilib və gənc nəsil hələ də bu ruhda tərbiyə edilir.

Digər faşist cəlladı və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın rəhbərliyi altında erməni legionu faşist ordusunun tərkibində



Krımda və Qafqazda əməliyyatlarda iştirak etmişdir. Drastamat Kanayanın da şərəfinə Ermənistanda abidələr ucaldılmışdır. Ermənistan Müdafiə Nazirliyinin Milli Strateji Araşdırmalar İnstitutu faşist cəlladı Kanayanın adını daşıyır. Həmçinin Ermənistan Müdafiə Nazirliyi Kanayanın şərəfinə medal buraxmışdır.

Özünü demokratik adlandıran Ermənistanın indiki hakimiyyəti Qaregin Njdeyə və ya Drastamat Kanayana ucaldılmış abidələri sökmür. İnanmırıq ki, Ermənistan hakimiyyətinin buna cəsarəti çatsın. Sovet dövründə və müstəqillik illərində Ermənistan hakimiyyətinin yalnız Azərbaycan xalqına məxsus tarixi torpaqlarda, indiki Ermənistan ərazisində Azərbaycan xalqına aid tarixi abidələri dağıtmağa cəsarəti çatmışdır.

Orta əsr Azərbaycan şəhərlərindən olan İrəvandakı (hazırda Yerevan) Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə "yenidən təmir edilib". Dağıdılmış memarlıq abidələri arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi və "Sərdar sarayı" və ya "Xan sarayı" saraylar kompleksi də vardır. İrəvanın Sərdar məscidi də sistemli dağıntıya məruz qalmış və 2014-cü ildə tamamilə dağıdılmışdır. Ermənistan ictimaiyyəti niyə sual vermir ki, Yerevanda bir dənə də olsun tarixi abidə yoxdur. Çünki bu abidələr məhv edilmişdir və bütün bunlar danılmaz faktlardır.

Həmçinin Ermənistanda olan, Azərbaycan xalqına məxsus qədim və yeni dövr qəbiristanlıqlar məhv edilib. Aşıq Ələsgərin tarixi Azərbaycan torpağı olan Göyçə mahalındakı qəbri də onların sırasındadır. Ermənistan ərazisində olan tarixi Azərbaycan toponimlərinin adları dəyişdirilib və erməni adları ilə əvəz edilib. Ermənistandakı şəhərlərin və yaşayış məskənlərinin tarixi adları qaytarılmalıdır.

Ermənistan tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ətraf yeddi rayonu, Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun yeddi kəndi və Naxçıvanın Kərki kəndinin müvəqqəti işğalı nəticəsində 738 tarixi abidə, 83 min 500-dən çox eksponata malik 28 muzey, 4 şəkil qalereyası, 14 xatirə kompleksi və 1107 mədəniyyət müəssisəsi daxil olmaqla, 1891 maddi-mədəniyyət abidəsi və məscidlər talan edilib və vandalizmə məruz qalıb.

1992-ci il mayın 8-də Azərbaycanın mədəniyyət mərkəzlərindən olan Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Hərbi əməliyyatların dərhal ardınca Şuşa şəhərində mədrəsələri ilə birgə Yuxarı və Aşağı Gövhərağa məscidi, Vaqif Mavzoleyi, Natəvanın evi, karvansaray kimi arxeoloji abidələr dağıdılıb, yandırılıb və talan edilib.

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bütün əraziləri işğaldan azad ediləcək, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini təmin edəcək və tarixi ədalət bərpa olunacaq.

Prezident İlham Əliyevin MDB dövlət başçılarının Zirvə görüşündə qeyd etdiyi kimi, özünü demokratik seçilmiş təqdim edən yeni Ermənistan hakimiyyəti, ilk növbədə, özünü bu ləkədən, bu rüsvayçılıqdan təmizləməli və faşist cəlladlarına ucaldılmış heykəlləri sökməlidir".

# Azərbaycanda koronavirusa daha 75 yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 75 yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 2279 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1576 nəfər müalicə olunaraq sağalıb, 28 nəfər vəfat edib, 675 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 39 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 181.530 test aparılıb.

# *Operativ Qərargah:* "Bakı Metropoliteninin fəaliyyəti mayın 9-dan etibarən bərpa edilir"

Yeni növ koronavirus infeksiyası (COVID-19) ilə əlaqədar Azərbaycan Respublikası ərazisində tətbiq olunan xüsusi karantin rejiminin mərhələli yumşalma planına və mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq Bakı Metropoliteninin fəaliyyətinin 2020-ci il mayın 9-da saat 06.00-dan etibarən bərpa edilməsinə dair qərar verilib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Bakı Metropoliteni pandemiya dövründə fəaliyyətini Operativ Qərargahın tələb və qaydalarına, o cümlədən "İctimai nəqliyyatda koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstəriş"ə uyğun olaraq həyata keçirməlidir.

Eyni zamanda, metro stansiyalarına yalnız yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayışla tərk edən sərnişinlərin girişinə icazə verilməlidir.

Sərnişinlərin metro stansiyası ərazisində, eləcə də qatarlarda qoruyucu maskalardan istifadəsi və sosial məsafəni gözləməsi mütləqdir.

Biz birlikdə güclüyük!



# Prezidentdən sərt xəbərdarlıq

## İlham Əliyev karantin rejiminin yenidən sərtləşdiriləcəyini, qaydaları pozanlara qarşı daha ağır cəza tədbirlərinin görülə biləcəyini bəyan etdi

*Bəşəriyyəti ağır sınaq qarşısında qoyan yeni tip pandemiya səbəbindən aylardır dünya dövlətləri ciddi təşviş içərisindədir. Elmin bu qədər inkişaf etdiyi dövrdə müasir dünya insanı beş aydır koronavirus adlı bəlaya qarşı vaksin tapa bilmir. Yalnız pandemiyaya qarşı qabaqlayıcı tədbirlər görən, iqtisadiyyatını deyil, insan sağlamlığını əsas tutan bəzi ölkələrin bu sınaqdan az itki ilə çıxmaqla bağlı mübarizəsində müsbət dinamika müşahidə olunmaqdadır.*

### Pandemiyaya qarşı ən mütərəqqi və insansevər təcrübə

Sevindirici haldır ki, Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmiz nəinki milli səviyyədə koronavirusla mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda regional və qlobal miqyasda pandemiyaya qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir, təcrübəsini bölüşür. Pandemiyaya qarşı mübarizədə Azərbaycan 10-dan artıq ölkəyə yardım edib.

Son 2 ayda Prezident İlham Əliyevin təşəbbüsü ilə videokonfrans formatında keçirilən Türk Şurası və Qoşulmama Hərəkatının zirvə görüşlərinin mövzusunun da koronavirusa qarşı mübarizəyə həsr olunması bir daha təsdiq etdi ki, Azərbaycan bu istiqamətdə dünyanı birləşdirir, təcrübəsini istənilən dövlətlə bölüşür. Bununla da ölkəmiz dünyaya nümayiş etdirdi ki, sözü ilə əməli vəhdət təşkil edən etibarlı tərəfdaşdır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində təcrübəsi ən mütərəqqi və ən insansevər təcrübədir. Çünki vaxtında epidemiyaya qarşı həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində ölkədə virusa yoluxma ilə sağalma arasındakı müsbət dinamika, yeni sağalanların sayının yoluxanların sayından çox olması bunu deməyə əsas verir. Digər dövlətlərdə elan olunmuş sərt karantin rejimi davam etdirildiyi halda ölkəmizdə bəzi qadağaların götürülməsi, karantin rejiminin yumşaldılması da deyilənləri təsdiq edir.

### Ölkəmizdə virusun ikinci dalğasının başlama ehtimalı artır

Vətəndaş məsuliyyətsizliyi, sanitar-epidemioloji, tibbi-profilaktik tədbirlərə əməl edilməməsi, elan edilmiş qadağalara məhəl qoyulmaması yenidən arzuolunmaz vəziyyətin yaranmasına səbəb olub. May ayının 31-dək davam etdirilməsi nəzərdə tutulan yumşaldılmış karantin rejimi heç bir həftə keçməmiş xoşagəlməz nəticələrlə, yoluxma sayının artması ilə müşayiət olunur.

Görünən odur ki, məhdudiyyətlərin aradan qaldırılması ilə ölkədə epidemiyanın ikinci dalğasının başlama ehtimalı artır. Çünki koronavirusun yayılması uzunmüddətli prosesdir və bu səbəbdən də mövcud qaydalara riayət olunması, zəruri profilaktik tədbirlərin davam etdirilməsi mütləqdir.

Bu vəziyyət, əlbəttə ki, ilk olaraq ölkə rəhbərliyində ciddi narahatçılıq yaradıb. Çünki dövlət koronavirusla mübarizədə insan sağlamlığını əsas tutaraq əlindən gələni etdiyi halda vətəndaşlarda yaranmış arxayınçılıq, etinasızlıq yalnız məyusluq doğurur.

Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı zamanı Prezident İlham Əliyevin ölkədəki mövcud durumu dəyərləndirərkən söylədiyi fikirlərdən də bəlli oldu ki, dövlət başçısı bu vəziyyətdən çox narahatdır: "Son günlərin mənzərəsi, sözün düzü, məni çox üzür və narahat edir. Çünki son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur".

Hər zaman vətəndaşın qayğısına qalan, şad gündə də, dar gündə də onun yanında olan, hətta pandemiya dövründə müstəqillik tarixinin ən böyük maliyyə (3,5 milyard manatdan çox) tutumlu sosial-iqtisadi paketini təqdim edərək işləməyən vətəndaşa aylıq maaşını verən, bütün sahibkarlıq subyektlərini dəstəkləyən dövlət başçısı yenə də xalqın durumundan narahatdır. Ona görə ki, bəzi məsuliyyətsiz vətəndaşların qaydalara əməl etməməsi bütün xalqı yenidən təhlükəyə sürükləyir.

Düzdür, əvvəllər vətəndaşlar koronavirusa görə qorxu hissi keçirirdilər və bu səbəbdən də qaydalara ciddi əməl etməklə yoluxmamağa çalışırdılar. Hazırda isə görünən odur ki, vətəndaşlarda elə bil qorxu hissi azalıb. Sanki insanlarda psixoloji arxayınlıq yaranıb ki, virusun yayılması prosesi sona çatıb. İctimai nəqliyyatda və ayrı-ayrı məkanlarda maska taxılmır, sosial məsafə saxlanılmır. Məhz bu məsuliyyətsizlik dövləti ciddi tədbirlər görməyə, karantin rejimini daha da, yəni əvvəlkindən çox sərtləşdirməyə sövq edir.

Cənab İlham Əliyev də elə bu durumu əsas gətirərək məsuliyyətsiz vətəndaşlara ciddi xəbərdarlıq etdi və karantin rejimini pozanlara qarşı cəzaların daha da sərtləşdirilməsi ilə bağlı aidiyyəti qurumlara tapşırıq verdi: "Biz belə münasibətə dözə bilmərik. Bu, zarafat deyil. Hər kəs bunu çox ciddi qəbul etməlidir. Belə adamlara qarşı ciddi cəza tədbirləri görüləcək. Mən bu gün bütün aidiyyəti orqanlara müraciət edərək deyirəm, cəza tədbirlərini sərtləşdirin. Biz vətəndaşları qorumalıyıq. Biz imkan verə bilmərik ki, hansısa intizamı pozan, məsuliyyətsiz adama görə vətəndaşlarımız xəstələnsin, ölsün. Ona görə bu qaydalara hər kəs riayət etməlidir, özü də bundan sonra uzun müddət ərzində".

Yəni bu dinamika kəskin artarsa, dövlət tərəfindən karantin rejimi əvvəlki vəziyyətinə gətiriləcək və daha da sərtləşdiriləcək, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək.

### Mayın 31-dən sonra da karantin rejimi uzadıla bilər

Göründüyü kimi, karantin rejimi əsasən regionlar üçün yumşaldığından yoluxma faktlarının da daha çox bölgələrdə yüksəlməsi müşahidə olunur. Ona görə də dövlət regionlarda yenidən nəzarəti gücləndirə bilər. Hətta bölgələrdə karantin rejimi ilə bağlı sərtləşdirici tədbirlər istisna deyil.

Karantin rejiminin müddətinə gəlincə isə, Prezident vurğuladı ki, rejim ən azı mayın 31-nə qədər qüvvədə olacaq və ondan sonra əgər lazım gəlsə, yenə də uzadılacaq.

Dövlət başçısı bildirdi ki, ölkəmizdə formalaşdırılmış müasir səhiyyə sistemi koronavirusla mübarizə sahəsində bütün lazımi tədbirləri görməyə imkan verir. Ancaq koronavirusun yayılmaması üçün vətəndaşların şəxsi məsuliyyəti mühüm şərtdir. Bu səbəbdən də maska taxmaq, sosial məsafə saxlamaq, tez-tez əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qayda olmalıdır. Çünki Azərbaycan dövləti üçün başlıca məsələ vətəndaşların sağlamlığıdır. Ona görə də maarifləndirmə işləri daha geniş vüsət almalıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusla mübarizədə birinci mərhələni qələbə ilə başa vurub

**Bütün dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizə aparılsa da, hələ də infeksiyaya yoluxma halları davam edir. Artıq dünyada bu virusa yoluxanların sayı 3 932 984 nəfərə çatıb, 271 029 nəfər isə onun qurbanı olub.**



Ən çox yoluxma və ölüm halları Avropda qeydə alınıb. İkinci yerdə Cənubi və Şimali Amerika qərarlaşıb. Üçüncü yeri Qərbi Sakit okean regionu tutur. Ölkələr üzrə hesabatda ən çox yoluxma halları ABŞ, İspaniya, İtaliya, Böyük Britaniya, Rusiya, Almaniya, Fransa, Türkiyə, Braziliya və İranda qeydə alınıb.

### "Karantin rejimi ən azı mayın 31-nə qədər qüvvədə olacaq"

Ölkəmizdə son günlər gündəlik xəstələnmə sayının sağalma sayını üstələməsi müşahidə olunmaqdadır. Bu da ciddi narahatçılıq doğurur. Pandemiya ilə mübarizənin gedişində mənfi dinamikanın başlaması karantin qaydalarının yumşaldılması ilə əlaqələndirilir. Bir sıra məhdudiyyətlərin aradan qaldırılması ilə insanların küçələrə axışması, baş verənləri sanki unutması, sosial məsafəni gözləməməsi, maskadan istifadə etməməsi əldə olunan nailiyyətləri heçə endirir.

Ötən gün Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında çıxışı zamanı Prezident İlham Əliyev ölkədə koronavirusla mübarizə çərçivəsində görülən işlərdən danışarkən bu mövzuya da toxunub. Yoluxma hallarının geniş yayılmasının qarşısının alınması üçün karantin rejiminin sərtləşdirildiyini diqqətə çatdıran dövlət başçısı məqsədə nail olunduğunu və virusla mübarizədə birinci mərhələni az itkilərlə başa vurduğumuzu, qalib gəldiyimizi deyib. 3 həftə ərzində hər gün sağalanların sayının yoluxanların sayından xeyli çox olduğunu gördükdə isə ölkədə yumşalma tədbirləri görülməyə başlanıb: "Ancaq əfsuslar olsun ki, bəzi adamlar bunu karantin rejiminin ləğvi kimi qəbul etdilər. Əfsuslar olsun ki, bəzi adamlar karantin rejiminə əməl etmirlər. Yumşalma tədbirləri yalnız bir məqsədi güdürdü ki, insanların öyrəşdiyi həyat tərzi müəyyən dərəcədə bərpa olunsun. Karantin rejiminin yumşaldılması o demək deyil ki, karantin başa çatıb, xeyr. Karantin rejimi ən azı mayın 31-nə qədər qüvvədə olacaq və ondan sonra əgər lazım olarsa, uzadılacaq. Ona görə son günlərin mənzərəsi, sözün düzü, məni çox üzür və narahat edir. Çünki son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur və əgər bu dinamika kəskin artarsa, - mən bunu açıq demək istəyirəm və hər kəs bunu bilsin, - biz məcbur olub karantin rejimini əvvəlki vəziyyətə gətirəcəyik, sərtləşdirəcəyik, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək ki, biz vəziyyəti daim nəzarətdə saxlayaq".

### Maska taxmaq, məsafə saxlamaq bir qayda olmalıdır

"Azərbaycan dövlətinin siyasəti və Operativ Qərargahın bu işlərə gündəlik rəhbərlik etməsi əsas bir məqsədi güdür ki, biz vətəndaşların həyatını, sağlamlığını qoruyaq" deyən Prezidentin sözlərinə görə, bəzi məsuliyyətsiz vətəndaşlar qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, özlərini elə aparırlar ki, sanki virus artıq məhv olub. Dövlət başçısı karantin qaydalarını pozanlara qarşı ciddi tədbirlər görüləcəyinə dair xəbərdarlıq edib: "Hamı bunu bilsin və nəticə çıxarsın. Biz imkan verə bilmərik ki, hansısa məsuliyyətsiz vətəndaşlara görə insanların həyatı risk altına düşsün. Qətiyyən mümkün deyil".

Dövlət başçısı bildirib ki, vətəndaşlar şəxsi gigiyenaya riayət etməlidirlər. Maska taxmaq, məsafə saxlamaq, gündə bir neçə dəfə sabunla əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qayda olmalıdır. Koronavirusun yayılmaması üçün vətəndaşların şəxsi məsuliyyəti mühüm şərtdir: "Ona görə mən hesab edirəm ki, bütün kompleks tədbirlər, vətəndaşların məsuliyyəti və nizam-intizamı nəticəsində biz bundan sonra da bu vəziyyəti nəzarət altında saxlaya biləcəyik. Çünki burada məsələ ancaq dövlət qurumlarının fəaliyyətindən asılı deyil. Dövlət qurumları, vətəndaş cəmiyyəti, vətəndaşlar, biz bir nöqtəyə vurmalıyıq".

### Tibbi maska taxmayanlar ictimai nəqliyyata buraxılmayacaq

Dünəndən ölkə ərazisində polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən tibbi maskadan istifadə etməyənlərə qarşı reydlərə start verilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi Ehsan Zahidov açıqlamasında bildirib ki, reydlər mayın 1-dən ölkə ərazisində tətbiq edilən xüsusi sanitar rejimin tələblərinə uyğun həyata keçirilir: "Reydlərdə vətəndaşlardan evdən çıxarkən, qapalı məkanlarda, xüsusilə iaşə müəssisələrində, ictimai nəqliyyatda nəfəs yollarını qoruyan tibbi maskadan mütləq qaydada istifadə etmək, insanlarla təmas zamanı 2 metrlik ara məsafəsini saxlamaq, bütövlükdə karantin rejimi dövrü üçün müəyyən edilmiş qaydalara ciddi riayət etmək tələb olunur. Bu qaydalara riayət etməyən vətəndaşlarımız barəsində inzibati qaydada tədbirlər görüləcək. Eləcə də tibbi maskadan istifadə etməyənlərin ictimai nəqliyyata və qapalı məkanlara girişinə məhdudiyyətlər qoyulacaq".

### 434 sürücü karantin rejimini pozub

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 07.05.2020-ci il saat 00:00-dan 08.05.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 434 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 49435 hərəkət iştirakçısı inzibati qaydada cəzalandırılıb.

### Şərtlərin yumşaldılması əhalidə arxayınlıq yaratmamalıdır

Ölkədə koronavirusun geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşın sağlamlığını qorumaq üçün lazımi tədbirlər həyata keçirilir. Məhz pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində dövlət tərəfindən vaxtında atılan addımlar, eləcə də karantin rejiminin tətbiqi nəticəsində COVID-19-la bağlı sanitar-epidemioloji vəziyyət nəzarət altına alınıb, kütləvi yoluxma hallarının azaldılmasına nail olunub. Xəstəliklə bağlı müsbət tendensiya yarandığı üçün karantin rejimi yumşaldılıb, müəyyən məhdudiyyətlər aradan qaldırılıb. Lakin şərtlərin yumşaldılması heç də əhalidə arxayınlıq yaratmamalıdır. Qoyulan qaydalara riayət etmək, gərəksiz halda evdən çıxmamaq, küçədə sosial məsafəni saxlamaq, tibbi maska taxmaq, şəxsi gigiyenanı gözləmək hər birimizin şəxsi məsuliyyəti, vətəndaşlıq borcudur. Məsuliyyətli olaq, özümüzü, ailəmizi, ətrafımızı, dolayısı ilə xalqımızı gözəgörünməz düşməndən qoruyaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Lider qətiyyəti



**Dünyanın pandemiya təhlükəsi ilə üzüzə qaldığı bir zamanda ölkəmizdə müşahidə edilən müsbət tendensiya, heç şübhəsiz, müdrik idarəçiliyin göstəricisidir. Faktiki olaraq dünya bəşəriyyət ölümcül təhlükə ilə qarşılaşıb və insan həyatının qorunması ən önəmli məsələyə çevrilib. Hər bir sahədə lazımi tədbirlər görülüb. Bununla insan həyatı təhlükədən hifz edilsə də, dünya iqtisadiyyatını böhran vəziyyətinə düşüb.**

Lakin belə bir zamanda Azərbaycanda istər pandemiya ilə mübarizə, insanlarımızın həyatının qorunması, istər iqtisadiyyatımızın davamlılığının təmin edilməsi, istərsə də dövlət təhlükəsizliyinə yönəlmiş cinayətkarlığın qarşısının alınması işləri yüksək peşəkarlıqla icra edilir. Bu, Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsidir. Məncə, bu günlər həyata keçirilən çoxşaxəli işlər böhran zamanı idarəetmənin ən ideal nümunəsidir.

Hər bir kəsə bəllidir ki, dövlət rəhbərinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apardığı struktur islahatlarının, onların qarşısında qoyduğu yeni tələblərin məqsədi dövlət müstəqilliyini daha da möhkəmləndirmək və vətəndaş məmnunluğunu artırmaqdır. Prezidentinə güvənən və onun siyasətini dəstəkləyən Azərbaycan vətəndaşları əmindirlər ki, dövlət başçısının qanunverici, icraedici və məhkəmə hakimiyyəti, habelə maliyyə sistemində apardığı islahatlar dövlət idarəetməsinin səmərəliliyini artıraraq ilk növbədə vətəndaşların maraqlarına xidmət edəcək və ölkənin davamlı inkişafına zəmin yaradacaqdır. Bu islahatlar pandemiya şəraitində də belə dayandırılmamışdır.

Hazırda bütün dövlət orqanları, hakimiyyətin bütün qolları Azərbaycanın COVID-19 adlı qlobal bəladan maksimum az zərərlə çıxması üçün əməli tədbirlər görürlər. Bu işə xilaskarımız Heydər Əliyevin adını daşıyan Fond və bu fondun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva başda olmaqla ləyaqətli iş adamları, şirkətlər, yardımsevər insanlar qoşulublar. Pandemiyadan xilas ümumxalq işinə çevrilib.

Lakin ürəkağrısı ilə demək lazımdır ki, belə bir durumda dövlətin, Heydər Əliyev Fondunun insanlarımıza uzatdığı xeyirxah əli kəsən, kasıbın, imkansızın qisməti olan və süfrəsinə qoyacağı bir parça çörəyə göz dikən məmurlar da vardır. Onlar bu əməlləri ilə dövlətimizə, dövlətin dayaqlarına zərbə vuran ən qatı cinayətkarlar və bu xalqa, millətə, dövlətə xəyanət edən insanlardır. Onların da cəzası, şübhəsiz, ağır olacaq. Çünki buna Prezident İlham Əliyevin qətiyyəti və geridönməz siyasəti əsas verir. Bu prosesdə dərs çıxarası və nümunə götürüləsi çox önəmli məqamlar vardır. Prezident İlham Əliyev çıxışlarının birində vurğulamışdır ki, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bir gün də dayanmır. Bu mübarizənin artıq yaxşı nəticələri var, daha da yaxşı nəticələri olacaqdır. Biz bu böyük bəlanı ölkəmizdən yığışdırmalıyıq, təmizləməliyik. Elə etməliyik ki, Azərbaycan hər sahədə - həm siyasi, həm iqtisadi, həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə sahəsində nümunə olsun və olacaqdır.

Bu sözlər indi artıq öz real təsdiqini tapır. Davamlı olaraq aparılan bu mübarizədə Prezidentin sərgilədiyi iki cəhət dövlətinin sabahını düşünən bir gənc kimi mənim də diqqətimi cəlb edir. Bunlardan biri qətiyyət, digəri isə mərhəmətdir. Cənab Prezident tez-tez istər insanlarla görüşlərində, hansısa bir müəssisənin açılışında, yaxud da qəbullarda məmurlara dəfələrlə bildirib ki, bu əməllərindən əl çəksinlər, bu yoldan qayıtsınlar. Çünki onların hər bir əməlindən Prezident xəbərdardır. Burada ehtiyac içində olan insanların ruzisinə göz dikən məmurlarla mübarizədə Prezidentin göstərdiyi qətiyyət daha çox önəm kəsb edir. Çünki hələ illər öncə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam!" deyərək başlatdığı missiyanı məhz xalqa arxalanaraq davam etdirir və bu da cənab İlham Əliyevin müqəddəs amalına çevrilib. Məhz bu amal Azərbaycanı korrupsiya kimi dövləti içindən yeyən bir bəladan, xalqı hakimiyyətə qarşı qaldıran əsas problemdən xilas edəcək. Bu məsələdə bütün Azərbaycan xalqı, xüsusən bu ölkənin sabahı olan gənclik pandemiya şəraitində yaşasa da belə, dövlətini düşünərək Prezidentin yanında olmağı özünün borcu sayır. "Mən Azərbaycan gəncliyinə inanıram" deyən İlham Əliyev həm gəncliyi dövlətə qarşı çıxan, xalqın rifahına zərbə vuran məmurlara qarşı amansız olmağa səsləyir, həm də bu haqq işində onlardan güc alır. Çünki son dövrlərdə müxtəlif istiqamətlərdə gənc kadrlara göstərilən etimad öz müsbət nəticələrini verməkdədir. Xalqa arxalanmaq, xalqdan güc almaq cənab İlham Əliyevi bu işlərdə daha mətanətli və güclü edir.

Cənab Prezidentin həyata keçirdiyi antikorrupsiya siyasəti hazırda ölkəmizdə belə bir qənaət formalaşdırıb: indi Azərbaycanda məmur olmaq imtiyaz deyil, məsuliyyətdir. Xalq, dövlət və ədalət mühakiməsi qarşısında məsuliyyət. Lakin Prezidentin dəfələrlə bildirməsinə baxmayaraq, bunu hələ də dərk etməyən məmurlar qalmaqdadır. Onların hər birinin qanunazidd əməlləri ilə Dövlət Təhlükəsizlik Xidməti məşğul olur. Bu artıq dövlətin korrupsioner məmurlara qarşı apardığı siyasətdə qətiyyətin göstəricisidir. Çünki dövlətin, xalqın malını mənimsəyən şəxslər məhz dövlətin sütunlarına, hakimiyyətin mənbəyinə zərbə vururlar. Onların cəzası da dövlət əleyhinə cinayət kimi təsbit edilir və göründüyü kimi, cəzalandırma bu istiqamətdən aparılır.

Azərbaycan dövlətinin sabahı, Azərbaycan vətəndaşının rifahı üçün gördüyünüz işlərdə Tanrı da, xalq da daim Sizinlə olacaq. Yorulmayasınız, cənab Prezident!

***Sərraf HÜSEYNOV,***
***Azərbaycan Dillər Universiteti rektorunun müşaviri,***
***ADU üzrə YAP ilk ərazi təşkilatının sədri***

# Heydər Əliyev xalqımızın şərəf və ləyaqət rəmzidir

## Sahibə QAFAROVA: "Ulu Öndərin qüdrətli zəkasından güc almış inkişaf strategiyası İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik yollarında ardıcıl irəliləməsini, xalqımızın daha firavan günlərə qovuşmasını təmin edir"

**Mayın 8-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Deputatları salamlayan spiker Sahibə Qafarova iclasın həm kədərli, həm də əlamətdar hadisələr ərəfəsində keçirildiyini bildirdi.**




### Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək

Spiker qeyd etdi ki, mayın 8-də Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 28-ci ildönümü tamam olur. "Şuşa şəhərinin işğalı Dağlıq Qarabağ bölgəsini Azərbaycandan qoparıb Ermənistana birləşdirmək və yerli azərbaycanlı əhalini ata-baba torpaqlarından qovub çıxarmaq üçün həyata keçirilən hərbi təcavüzün bir mərhələsini təşkil etmişdir. Tarixən bütün Qarabağ bölgəsinin mərkəzi şəhəri olan Şuşanın işğalı ilə erməni şovinistləri Azərbaycanın böyük bir bölgəsinin tam etnik təmizlənməsini başa çatdırmışlar.

"Ermənistandan və Azərbaycanın işğal edilmiş ərazilərindən didərgin salınmış 1 milyondan çox soydaşımızın 22 min nəfəri Şuşa sakinidir. Onlardan biri bu gün bizimlə bərabərdir. Əsra Məmmədli Şuşada doğulmasa da, ruhən Şuşaya bağlıdır və doğma yurdunun həsrəti ilə yaşayır", - deyə Sahibə Qafarova bildirdi.

Əslən Şuşadan olan Əsra Məmmədli iclasda çıxış etdi. O dedi: "Mən Şuşadanam. Atam da, anam da, babam da, ulu babam da Şuşadandır. Babalarımın əcdadları da Şuşadandır. Amma təəssüf ki, mən Şuşada doğulmamışam. Nəinki, doğulmamışam, heç Şuşanı görməmişəm də. Sizcə, bu necə hissdir? Mən Şuşamız barədə yalnız ata-anamın və nənə-babalarımın danışdıqları qədər bilirəm. Bu isə o deməkdir ki, mən də atam və ulu babalarım qədər Şuşalıyam. Bilirəm ki, məni çox gözəl anlayırsınız. Məni hiss etməyinizi istəyirəm. Mənim səsimi dünyaya çatdırın.

Çatdırın ki, mənim çəkdiyim ağrı-acını, yaşadığım hissləri digər ölkələrdə yaxşı anlasınlar, yaxşı duysunlar. Qoy duysunlar ki, şuşalı olub, Şuşanı görməmişəm. Şuşalıyam, fəqət anam mənə Şuşada layla oxumayıb.Şuşalıyam, lakin Cıdır düzündə, gül-çiçək arasında ayaqyalın qaçmaq da mənə nəsib olmayıb. Şuşalıyam, Şuşanın qarlı, dumanlı dağlarını görməmişəm. Şuşalıyam, Şuşanın bulaqlarının suyunu içməmişəm. Şuşalıyam, Xarı bülbülün çiçək açmasını görməmişəm. Şuşalıyam, Şuşada Qarabağ şikəstəsini eşitməmişəm.

Hiss edirsiniz məni? Qoy Dünya da anlasın və hiss etsin ki, Şuşa mənim doğma torpağımdır. Qoy hamı anlasın və hiss etsin ki, Şuşa Azərbaycandır! Qarabağ Azərbaycandır! Torpaq isə müzakirə olunmur".

Sahibə Qafarova bildirdi ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasət nəticəsində ölkəmizin ərazi bütövlüyü tezliklə bərpa ediləcək: "Bütün Qarabağ bölgəsi, o cümlədən onun nadir incisi olan Şuşa şəhəri işğaldan azad ediləcək, qaçqın və köçkün soydaşlarımız doğma yurdlarına qayıdacaq, bölgədə uzunmüddətli möhkəm sülh bərqərar olacaqdır".

Sonra Şuşa şəhərinin müdafiəsi zamanı həlak olmuş şəhidlərimizin xatirəsi sükutla yad edildi.

### Xalqımız qələbəyə böyük töhfələr verib

Sahibə Qafarova qeyd etdi ki, mayın 9-da faşizm üzərində Qələbənin 75-ci ildönümü də tamam olur. Ulu Öndər Heydər Əliyevin "Tarix bu gün də bilməlidir ki, Azərbaycanın İkinci Dünya müharibəsində xidmətləri, fəaliyyəti və rolu çox böyük olmuşdur" sözlərini sitat gətirən spiker bildirdi ki, xalqımız bu qələbəyə böyük töhfələr verib. "Müharibə dövründə Azərbaycandan 680 mindən çox adam cəbhəyə çağırılmışdır. Onların 40 min nəfəri cəbhəyə könüllü getmişdi. 320 minə qədər həmvətənimiz döyüş meydanlarından geriyə qayıtmamışdır. Müharibə illərində əsgərlərimiz böyük qəhrəmanlıq göstərmişlər. 400 mindən çox azərbaycanlı döyüş ordenləri və medalları ilə təltif edilmiş, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Azərbaycanda 5 milli diviziya təşkil edilmişdi. Bu diviziyalardan biri - məşhur 416-cı Azərbaycan Taqanroq diviziyası Berlinə ilk daxil olan hərbi birliklərin sırasında olmuşdur. Azərbaycanın oğul və qızları faşizmə qarşı müqavimət hərəkatında da fəal iştirak etmişlər. Onlar müxtəlif ölkələrdə partizan dəstələrində vuruşmuşlar. Təkcə Fransanın antifaşist hərəkatında 3 mindən çox azərbaycanlı iştirak etmişdir.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı ordunun ehtiyaclarına uyğunlaşdırılmışdı. Bakıdan cəbhəyə 75 milyon ton neft və 22 milyon ton benzin göndərilmişdir. O dövrdə döyüşlərdə iştirak edən hər 5 təyyarədən, tankdan, avtomaşından və hərbi gəmidən dördü Azərbaycanda istehsal edilmiş yanacaqla işləyirdi. Azərbaycan müəssisələrində 130 növ silah, sursat və başqa hərbi ləvazimatlar istehsal edilirdi", - deyə Sahibə Qafarova bildirdi.

Diqqətə çatdırıldı ki, bu gün müharibə veteranları cəmiyyətimizin ən hörmətli üzvləri kimi dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə onlara, eləcə də müharibədə həlak olmuş və ya vəfat etmiş döyüşçülərin dul arvadlarına və arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə mütəmadi maddi yardım verilir. Bununla yanaşı, müharibə veteranları mənzil və fərdi minik avtomobilləri ilə təmin olunur və digər güzəştlərdən istifadə edirlər.

Qələbə günü münasibətilə müharibə veteranlarını təbrik edən, qəhrəmanlıqla vuruşmuş, arxa cəbhədə fədakarlıq göstərmiş xalqımızın oğul və qızlarına minnətdarlıq duyğularını ifadə edən Milli Məclisin Sədri dedi: "Biz əminik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə yaxın zamanda Azərbaycanın tarixinə yeni bir qələbə günü, erməni faşizminin məğlub edilməsi, Qarabağın azad edilməsi, haqq-ədalətin bərpa olunması ilə bağlı bayram günü daxil olacaqdır".

### Müstəqil Azərbaycan bu gün etibarlı əllərdədir

May ayının 10-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olacaq. Bu barədə danışan Sahibə Qafarova dedi: "Heydər Əliyev Azərbaycan xalqının öz tarixi ərzində yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Xalqımızın yaradıcı zəkasını və enerjisini təcəssüm etdirən Ulu Öndər millətimizin şərəf və ləyaqət rəmzinə çevrilmişdir. Onun sayəsində xalqımız əvvəlcə dövlət müstəqilliyinin möhkəm təməlini yaratmış, sonra isə müstəqil milli dövlətçiliyini qoruyub saxlamış və ardıcıl inkişaf yoluna çıxarmışdır.

1960-cı illərin axırlarında və 1990-cı illərin əvvəllərində Ulu Öndərin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın çox ağır sınaqlara çəkildiyi dövrlərə təsadüf etmişdir. Hər dəfə də Heydər Əliyev ona bəslənən ümidləri doğruldaraq, xilaskarlıq və quruculuq missiyasını uğurla həyata keçirmiş və əsl milli lider olduğunu sübuta yetirmişdir.

Ulu Öndərin zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti bu gün etibarlı əllərdədir, başladığı bütün işlər eyni əzm və iradə ilə davam etdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə çevirmişdir.

Azərbaycanın xoşbəxt gələcəyi İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyev siyasi xətti ilə bağlıdır. Ulu Öndərin qüdrətli zəkasından güc almış inkişaf strategiyası İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik yollarında ardıcıl irəliləməsini, xalqımızın daha firavan günlərə qovuşmasını təmin edir".

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Jalə Əliyeva, Soltan Məmmədov, Tahir Kərimli, Naqif Həmzəyev, Sahib Alıyev, Məlahət İbrahimqızı, Cavid Osmanov cari məsələlərlə bağlı fikirlərini bildirdilər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İlk olaraq "GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim edildi. Məsələ ilə bağlı parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat verdi.

Qanun layihəsi təsdiq edildi.

### Qanun layihələri ikinci və üçüncü oxunuşlarda təsdiq olundu

İclasda "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" qanun layihəsi, "Sosial sığorta haqqında" və "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələri üçüncü oxunuşda təsdiq olundu.

"Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının 1996-cı il 17 mart tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olundu.

Deputatlar Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə də müsbət münasibət bildirdilər.

Daha sonra Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda təsdiq olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Əli HÜSEYNLİ: "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və SES-lərinin tikintisi, istifadəsi məsələsi ən yüksək səviyyədə tənzimlənir

**Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli son günlərdə yerli mətbuatda Azərbaycanla İran arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi məsələsi ətrafında yaranan müzakirələrlə bağlı KİV-ə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***- Son günlərdə yerli mətbuatda Azərbaycanla İran arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi məsələsi ətrafında müzakirələr yaranıb. Bildirilir ki, bu məsələ ilə bağlı Azərbaycan və İran hökumətləri arasında saziş də imzalanıb. Sazişdə nə deyilir?***

- Birincisi, "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi və istifadəsi məsələsi ən yüksək səviyyədə tənzimlənir. Bu barədə Azərbaycan və İran arasında beynəlxalq sənəd imzalanıb. İkincisi, sazişdə BMT qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsi bir daha dəqiq formada təsdiq edilir. Üçüncüsü isə, saziş hidroqovşaqları və su elektrik stansiyalarında su və enerji ehtiyatlarının qorunmasının və istismarının müvəqqəti və ya daimi olaraq üçüncü ölkənin fiziki və hüquqi şəxslərinə verilməsini qadağan edir. Yəni, hər iki hidroqovşaqdan və su elektrik stansiyalarından istifadə yalnız Azərbaycana və İrana məxsusdur.

Bütün bunlarla yanaşı, hazırkı dövlət sərhəd xətti hidroqovşaqlar su ilə doldurulduqdan suyun səthində müəyyən ediləcək, nişanlanacaq və hər iki ölkənin dövlət sərhədi olacaq. Yəni, su elektrik stansiyalarından 3-cü dövlətin istifadəsi mümkün deyil. Saziş və ya sazişin müddəaları ilə tanış olmaq istəyənlər e-qanun.az internet səhifəsinə daxil olaraq beynəlxalq sənədlə tanış ola bilərlər.

***- Bəs Sizcə bu qurğuların tikintisi hansı zərurətdən irəli gəlir və indiki geosiyasi vəziyyətdə İran-Azərbaycan münasibətlərinə bu məsələ necə təsir göstərə bilər?***

- Qeyd edilən hidroqovşaqların tikilməsi məsələsi yeni məsələ deyil. Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin tarixçəsi keçmiş SSRİ dövrünə təsadüf edir. 1988-ci ildə isə SSRİ və İran arasında iqtisadi, ticarət və elmi-texniki əməkdaşlıq haqqında uzunmüddətli saziş bağlanıb və həmin sazişə əsasən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının tikintisi və istismarı üzrə qarşılıqlı razılıq əldə edilib. Daha sonra texnoloji avadanlıqların köhnəlməsi və istehsalatdan çıxarılması ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1992-ci ildə verdiyi tapşırığa əsasən müstəqil ekspert qrupu yaradılıb və layihələr yenidən işlənib. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalından sonra Azərbaycanla İran arasında bu istiqamətdə əməkdaşlıq dayandırılıb. Sonrakı dövr ərzində yuxarıda qeyd edilən hidroqovşaqların və su elektrik stansiyalarının tikintisi üzrə işlər İran tərəfindən aparılıb. 2016-cı ilin fevralında isə Azərbaycan Respublikası və İran İslam Respublikası Hökumətləri arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb. Bu, məhz iki dövlət arasında dostluq münasibətlərinin nəticəsində baş tutub.

***- Bəs, nə üçün bu saziş 4 il sonra mətbuatın gündəminə düşüb? Bunun səbəbi nədir?***

- Görünür, həmin ərazilərdə aparılan intensiv işlər Ermənistan və ölkəmizə düşmən mövqeyi tutanları qıcıqlandırıb. Eyni zamanda, yerli ictimaiyyətdə bu məsələ ətrafında gedən proseslərə nəzər saldıqda dövriyyəyə buraxılmış bir sıra fikirlərin məlumatsızlıqdan və qeyri-peşəkarlıqdan qaynaqlandığını demək mümkündür. Həmçinin bu məsələyə münasibət bildirən bir sıra "ekspertlərin" siyasi və hüquqi savadı aşağı səviyyədədir. Lakin bilərəkdən bu kampaniyada iştirak etmək və ya tərkib hissəsi olmaq yolverilməzdir.

Məsələ isə kifayət qədər aydın və birmənalıdır. 2016-cı ilin fevral ayında imzalanmış saziş Azərbaycanın ərazi bütövlüyünə əsaslanan və onu qəbul edən beynəlxalq sənəddir. Bu saziş dövlətimizin işğal olunmuş əraziləri üzərində suveren hüquqlarını və yurisdiksiyasını təsdiq edən sənəddir. Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən və qəbul edən istənilən fikir, bəyanat, beynəlxalq təşkilatların qətnamələri və xüsusən iki dövlət arasında imzalanmış beynəlxalq sazişlər Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına ağır zərbədir.

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti onlayn iclası keçirilib

**Mayın 8-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti onlayn iclası keçirilib.**

Parlamentdən AZƏRTAC-a bildiriblər ki, komitə sədri Hicran Hüseynova iclası açaraq gündəlik barədə məlumat verib.

Onlayn iclasda vurğulanıb ki, "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və toxumalarının transplantasiyası haqqında" qanunlarda və 1997-ci il 3 oktyabr tarixli qanunla təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə sənədlər "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 2018-ci 31 may tarixli qanunun tətbiqi ilə əlaqədar hazırlanıb.

Sənədlərdə edilən dəyişiklikləri şərh edən Hicran Hüseynova qeyd edib ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun ölkəmizin qoşulduğu beynəlxalq sənədlərin tələblərinə uyğun olmaqla, bu sahədə mütərəqqi dünya təcrübəsinə uyğun qanunvericiliyin formalaşdırılmasına xidmət edir. Həmin qanunla bu sahədə mövcud olan bir sıra terminlər dəqiqləşdirilib, o cümlədən "əlil" ifadəsi əvəzinə "əlilliyi olan şəxs", "əlillik qrupu" ifadəsi əvəzinə "əlillik dərəcəsi", "qüsur" sözü əvəzinə "pozuntu" sözündən istifadə edilib. Bu da əlilliklə bağlı dövlət siyasətinin mühüm prinsiplərindən olan əlillik əlamətinə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına, onların şərəf və ləyaqətinin müdafiəsinə yönəlib.

Komitə üzvləri Jalə Əliyeva, Rauf Əliyev, Sədaqət Vəliyeva, Rəşad Mahmudov, Sevil Mikayılova, Nigar Arpadarai, Ramin Məmmədov, Tamam Cəfərova, Könül Nurullayeva, Pərvin Kərimzadə sənədlə bağlı çıxış edərək fikirlərini bildirib, qanunlara təklif olunan texniki və terminoloji baxımdan uyğunlaşdırma xarakterli düzəlişləri razılıqla qarşılayıblar.

Onlayn iclasın sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# FHN-in 112 - qaynar telefon xəttinə psixoloji yardımla bağlı 750-dək zəng daxil olub

**Xəbər verildiyi kimi, ölkəmizdə mövcud karantin rejimində psixoloji problemlər yaşayan vətəndaşlara dəstək olmaq məqsədilə Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən aprelin 8-dən etibarən 112 - qaynar telefon xətti vasitəsilə nazirliyin peşəkar psixoloqları tərəfindən təcili psixoloji yardımın göstərilməsi işi təşkil olunub.**

FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, növbəlilik əsasında 24 saat fasiləsiz xidmət aparan FHN-in xüsusi hazırlıqlı psixoloqları vərəndaşlara lazımi psixoloji yardım göstərirlər. Fəaliyyət göstərdiyi ötən bir ay ərzində psixoloji yardımla bağlı Bakı şəhəri və respublikanın müxtəlif regionlarından qaynar xəttə 750-yə qədər müraciət daxil olub. Müraciətlər əsasən COVID-19 infeksiyasına özlərinin və yaxınlarının yoluxma riskindən qorxuya düşən, yaşlı valideynlərinə görə gərginlik keçirən, təklikdən, ünsiyyət azlığından və tənhalıqdan əziyyət çəkən, psixoloqlarla üzbəüz danışmaqdan sıxılan, psixosomatik əlamətlər yaşayan və digər psixoloji problemlərlə üzləşən vətəndaşlar tərəfindən olub.

Qeyd edək ki, psixoloji yardımın təşkil olunmasında əsas məqsəd vətəndaşları psixoloji problemləri ilə tək qoymamaq, mənəvi dəstək olmaq, karantin rejiminə uyğunlaşmaqda onlara kömək etməkdən ibarətdir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 26 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari, Tovuz rayonunun Koxanəbi kəndlərində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Kəngərli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# DİN: "Karantin və sanitar rejimi dövrü üçün müəyyən edilmiş qaydalara ciddi riayət olunmalıdır"

Qeyd edildiyi kimi, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən 2020-ci il mayın 1-dən ölkə ərazisində xüsusi sanitar rejim tətbiq edilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə əhalinin sanitar qaydalara əməl etməsi üçün paytaxt Bakı, eləcə də respublikanın bütün şəhər və rayonlarında polis, həmçinin Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən tədbirlər davam etdirilir. Belə ki, maddi yardımların verilməsi ilə bağlı paytaxt və rayonlarda poçt məntəqələrinin, bankların, idarələrin qarşısına toplaşan vətəndaşlara polis əməkdaşları tərəfindən sanitar rejiminin tələbləri izah olunub, sosial məsafənin qorunması tələb edilib. Belə tədbirlər zamanı polislər və Daxili Qoşunların hərbi qulluqçuları paytaxtda, həmçinin bölgələrdə vətəndaşlara tibbi maskalar da paylayıblar.

Nazirlik vətəndaşlardan bir daha tələb edir ki, evdən çıxarkən, qapalı məkanlarda, iaşə müəssisələrində, ictimai nəqliyyatda, xüsusən mayın 9-da fəaliyyəti bərpa olunacaq Bakı Metropoliteninin ərazisində olan zaman nəfəs yollarını qoruyan tibbi maskadan mütləq qaydada istifadə edilməli, insanlarla təmas zamanı 2 metrlik ara məsafəsi saxlanılmalı, bütövlükdə karantin və sanitar rejimi dövrü üçün müəyyən edilmiş qaydalara ciddi riayət olunmalıdır.

1945 Faşizm üzərində Qələbədən 75 il keçir 2020

# Qürur dolu tarix



Onlar 681 min nəfər idilər.

1941-1945-ci illərdə Azərbaycandan Böyük Vətən müharibəsinə yollananların - çağırılanların və könüllü gedənlərin sayıdır bu. Rəşadət göstərənlərin - sağ qalanların və həlak olanların statistikada aydın göstəricisidir.

Onlar uğrunda vuruşduqları SSRİ-yə vətən demişdilər. Dövrün, zamanın tələbi belə idi... Bir də ki, vətəndaşı olduqları Azərbaycan Sovet İttifaqı adlanan həmin nəhəng dövlətin tərkibində idi, orada birləşən 15 respublikadan biri idi.

Onlar vətən bildikləri o böyük ölkəni düşməndən azad etməyə getmişdilər... O dövrdə Hitler faşizmi Azərbaycana doğru da can atırdı. Fikrində Bakının "qara qızıl"ı - nefti vardı. Hər bir Azərbaycan oğlu düşmən üzərinə şığıyanda məhz bunu düşünürdü. Doğma yurdun sərvətinin əldən getməməsi uğrunda vuruşurdu.

Azərbaycanı təmsil edən döyüşçülərdən 170 min nəfəri SSRİ-nin sanballı orden və medalları ilə təltif olundu. O cümlədən 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Hər orden və medalın arxasında isə hünər və rəşadət dayanırdı. Yüzlərin, minlərin arasında seçilənlərin qəhrəmanlığı əks olunurdu.

Odlu müharibə yollarında, qanlı döyüş meydanlarında dəfələrlə yaralananlar da az olmadı. Hospitallara düşdülər, cəbhəyə dönmək əzmi ilə sağalıb yenidən döyüşə qatıldılar. Növbəti yaraları almaqdan heç də qorxmadılar, qələbə əzmi ilə döyüşdülər.

Müharibə sona çatandan sonra vətənə döndülər. Hərəsi bir sahəni qurub-yaratmaq meydanına çevirdi. Dinc əməklə məşğul olan kim, qurub-tikən kim, elmlə, sənətlə, təsərrüfatla məşğul olan kim...

* * *

Mayın 9-da faşizm üzərində qələbənin 75-ci ildönümü tamamlanır.

Böyük Vətən müharibəsi təkcə keçmiş ittifaq üçün yox, müasir dünyamız üçün də aktualdır. Dünya da bizim ümumi vətənimizdir və bu, bütün dünyanı özünə vətən bilənlərin apardığı savaş, qazandığı qələbə idi.

Azərbaycanda elə bir ailə tapılmaz ki, bu müharibədən kənarda qalsın. Onun məşəqqətlərini yaşamasın. Faşizm üzərində qələbə bütün bu əziyyətlərin, fədakarlıqların əvəzidir. Bu 75 ilin hər anında hər bir soydaşımızın ağır zəhməti, ürəyinin qanı, alnının təri, qəhrəmanlığı var. Bunu heç zaman unutmamalı, unudulmağa qoymamalıyıq.

## Altı milli diviziyadan biri - 416

1941-1945-ci illər müharibəsində Azərbaycanın 6 milli diviziyası iştirak edərək böyük qəhrəmanlıq göstərib. Bunlar 77-ci, 402-ci, 271-ci, 396-cı atıcı diviziyaları, 223-cü Belqrad və 416-cı Taqanroq atıcı diviziyaları idi.

416-cı diviziya Zaqafqaziya Hərbi Dairəsi komandanlığının 1942-ci il 22 fevral tarixli əmrinə əsasən Ucar rayonunda formalaşdırılmışdı. Diviziyanın şəxsi heyətinin 92 faizi azərbaycanlılar idi. Burada fəhlələr, kolxozçular və qismən də ziyalılar üstünlük təşkil edirdi. Diviziyada təcrübəli zabit və əsgərlər olsa da, onların sayı çox deyildi. Bölmələr təxminən yarım il döyüş hazırlığı keçmişdilər.

Döyüş yoluna isə milli diviziya Qafqazdan başladı. 1942-ci il sentyabrın əvvəllərində 44-cü ordunun tərkibinə daxil edilərək Şimali Qafqazdakı Xasavyurt rayonuna göndərildi. Onda Qafqaz uğrunda döyüşlərin ən şiddətli günləri idi. Almaniyanın "Cənub" ordu qrupu komandanlığına 1942-ci ilin 25 sentyabrında Bakını zəbt etmək əmri verilmişdi. Hitlerçilər bu əmri yerinə yetirməkdən ötrü azğınlıq göstərirdilər. Hələ iyuldan başlayaraq general-feldmarşal Jistin komandanlığı altında "A" ordular qrupu yaradılmışdı. Qrupun ən birinci vəzifəsi Donun arxasına keçmiş sovet qoşunlarını Rostovun cənub və cənub-şərq rayonunda mühasirəyə alıb sıradan çıxarmaq idi.

Tərkibində əsasən tank və motorlu birləşmələr olan digər güclü qruplaşmanın qarşısında Qroznını və Mahaçqalanı ələ keçirmək, qüvvələrin bir hissəsi ilə isə Osetiyanın və Gürcüstanın hərbi yollarını kəsmək vəzifəsi qoyulmuşdu. Bu istiqamətdə hücumun son məqsədi Bakıya yiyələnmək idi.

1942-ci ilin oktyabrında 416-cı diviziya 58-ci ordunun tərkibinə daxil edilərək, Sulak çayının şərq sahilində düşmənin Mahaçqala istiqamətindəki hücumlarına qarşı mövqedə yerləşdirildi. Həmin ilin noyabrında yenidən 44-cü ordunun tərkibinə daxil edildi və təcili olaraq Terek stansiyası zonasında yeni döyüş xəttinə göndərildi. 1942-ci ilin 26 noyabrında diviziya ilk böyük hücuma keçdi. Həmin gün bu hərbi hissənin döyüşçüləri Novo-Lednov-Kapustin xəttində 69-cu Qafqaz suvari diviziyasını əvəz edərək düşmənlə döyüşə girdilər. Dekabrın 5-də axşama yaxın diviziya mühüm sayılan təpəyə yiyələndi və İşşevskaya stansiyasına çıxdı.

## O, necə "Taqanroq diviziyası" oldu?

1943-cü il yanvarın əvvəlinədək diviziyanın döyüşçüləri Qafqazdan Azov sahilinə qədər olan məsafəni gərgin vuruşlarla keçərək növbəti döyüşlərə hazırlaşdılar. Bu dövrdə diviziyanın komandirlərindən biri polkovnik (az sonra general-mayor) Tərlan Əliyarbəyov olmuşdu. 1942-ci ilin noyabrında Şimali Qafqazdan başlanan əks-hücumlar nəticəsində üç ay ərzində Şimali Qafqaz düşməndən azad edildi. Bu qələbə Rostov istiqamətində döyüşlərə başlamaq üçün şərait yaratdı. 1943-cü ilin 21 fevralında 416-cı diviziya hərbi əməliyyatların ikinci dövrünə hazırlaşmağa başladı. Bunun üçün diviziyaya Azərbaycandan daha 1500 nəfər yeni döyüşçü də göndərildi. 416-cı diviziya 1943-cü ilin 17 avqustunda Taqanroq istiqamətində başlanmış hücumlarda fəal iştirak edərək böyük qəhrəmanlıq göstərdi. Avqustun 30-da Taqanroq şəhərini düşməndən azad etdi. Bu qələbənin, göstərdiyi qəhrəmanlığın şərəfinə 416-cı atıcı diviziyasına "Taqanroq diviziyası" fəxri adı verildi.

Diviziya 1943-cü il sentyabr ayının 7-də hitlerçilərin 3-cü Dağ atıcı diviziyası tərəfindən müdafiə olunan güclü istehkam xəttinə çatdı. Düşmən istehkamları Markupol və Osipenko şəhərlərinə gedən yolları bağlamışdı. Sentyabrın 8-9-da Azərbaycan diviziyası düşmənin müqavimətini qıra bildi. Faşistlərin 10 əks-hücumuna mərdliklə sinə gərən döyüşçülərimiz qazandıqları mövqeləri əldə saxlamağa müvəffəq oldular. Bu döyüşlərdə düşmənin 4 mindən çox əsgər və zabiti məhv edildi. Xeyli sayda döyüş texnikası ələ keçirildi. 1943-cü ilin sentyabrında milli diviziyaya Azərbaycandan daha 2500 nəfər yeni döyüşçü qoşuldu. Müvafiq hazırlıqdan sonra onlar da oktyabrın 10-dan növbəti döyüşlərə başladılar. Milli diviziya bu dəfə də Nikolayev şəhərinin düşməndən azad edilməsində şücaət göstərdi. Daha sonra isə düşməni Konstantinovka ətrafında darmadağın edib, tank hissələrinin köməyi ilə Melitopolu azadlığa çıxartdı.

## Döyüş yolu davam edir

1944-cü ilin yanvarında 416-cı diviziya 3-cü Ukrayna cəbhəsində 5-ci zərbə ordusu tərkibində hücuma başlayaraq Dnestr çayını keçdi. Bu döyüşlərdəki qəhrəmanlıqlarına görə döyüşçülər Mikayıl Ələkbərov, Bahəddin Mirzəyev, A.Vəliyev, Fəriz Səfərov və Ağaşirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Həmin ilin 9 aprelində diviziya Odessa şəhəri yaxınlığına çatdı və onun düşməndən azad edilməsində fəal iştirak etdi. Bu qələbəyə görə II dərəcəli "Suvorov" ordeni ilə təltif olundu. 1944-cü ilin yayından başlayaraq 416-cı diviziya 3-cü Ukrayna cəbhəsi tərkibində həyata keçirilmiş məşhur Yassa-Kişinyov döyüş əməliyyatında, Moldovanın paytaxtı Kişinyov şəhərinin, eləcə də bütün Moldovanın azad edilməsində qəhrəmanlıq göstərdi. 1945-ci ilin martında diviziyanın 1054-cü alayı "Qırmızı Bayraq" ordeninə, 1368-ci alayı "Boqdan Xmelnitski" ordeninə, 44-cü divizionu isə "Aleksandr Nevski" ordeninə layiq görüldü.



## Berlinə doğru

1945-ci ilin yanvarından sovet ordusu artıq bütün cəbhə boyu hücuma keçmişdi. Əsas istiqamət isə Varşava-Berlin idi. 416-cı diviziya da I Belorusiya cəbhəsinə daxil olan 5-ci zərbə ordusu tərkibində Visla çayı istiqamətində hücumu davam etdirərək, Varşavanın azad edilməsində iştirak etdi və Oder çayının qərb sahilinə çıxaraq düşmənin Kyustrin şəhərini tutdu. Mayın 1-də Berlinə ilk daxil olan hərbi hissələrdən biri də məhz 416-cı diviziya idi. Digər hissələrlə qarşılıqlı əlaqə yaradaraq diviziya mayın 3-də səhər hitlerçilərin son mövqelərini də darmadağın etməklə Brandenburq darvazası üzərinə qırmızı bayraq sancdı. Qələbə bayrağını taxanlar 416-cı milli diviziyadan leytenant A.Məcidovla onun Məmmədov və Əhmədzadə adlı döyüşçüləri oldular. Brandenburq qapıları önündə keçirilmiş mitinqdə general V.P.Züvanov çıxış edərək demişdi: "Berlin uğrunda tarixi döyüşdə sonuncu güllə məhz burada - Brandenburq qapıları önündə atıldı. Bu sonuncu gülləni də məhz qəhrəman Azərbaycan xalqının övladları atdı".

Kayzerin sarayı üzərinə qələbə bayrağını sancan zaman isə əfsus ki, diviziyanın döyüşçüsü, leytenant Vahab Osmanov faşist gülləsindən həlak oldu. Buna qədər isə diviziyanın əsgər və zabitləri Reyxsbankın, Daxili İşlər Nazirliyinin, Berlin Dövlət Universitetinin, SSRİ-nin keçmiş səfirliyinin, Maliyyə Nazirliyinin və digər dövlət qurumlarının binalarını azad etmişdilər.

Beləliklə, xronologiyadan bu diviziyanın Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdiyini görürük. 416-cı Azərbaycan milli diviziyası general Dmitri Sızranovun komandirliyi ilə yaradılmışdı. Burada hərbi komissar və siyasi şöbənin rəisi vəzifələri polkovnik Rəşid Məcidova həvalə olunmuşdu. Sonrakı dövrlərdə isə diviziyaya və onun alaylarına general-mayorlar Tərlan Əliyarbəyov, Heybət Heybətov, Hacıbaba Zeynalov (diviziyanın qərargah rəisi) komandirlik etmişlər. Qeydlərimizdən də göründüyü kimi, Azərbaycanın ardıcıl köməyi, yeni azərbaycanlı döyüşçülərin qoşulması hesabına 416-cı Taqanroq diviziyası müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bilmişdi.

## Odlu-alovlu 30 ay

416-cı milli diviziya cəbhədə 30 ay fasiləsiz döyüşlər aparmış, Bakıdan Berlinə qədər minlərlə kilometr yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox böyük və orta çaydan keçərək düşmənin 23 mindən çox canlı qüvvəsini, 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 anbarını məhv etmiş, külli miqdarda qənimət ələ keçirmişdi.

Diviziyanın 1368-ci atıcı alayı "Qırmızı Bayraq" ordeni, 1054-cü topçu alayı "Suvorov" ordeni, 444-cü əlahiddə topçu divizionu "Boqdan Xmelnitski" ordeni, 348-ci əlahiddə sanitar batalyonu "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi. Diviziyanın 14396 nəfər əsgər və komandiri də keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuşdular. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları da verilmişdi.

416-cı Taqanroq diviziyasını bu sətirlərin müəllifi üçün dəyərli edən faktlardan biri də budur ki, digər cəsur soydaşlarımızla yanaşı, atam Əbdül Zeynalov da bu diviziyanın tərkibində Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, "Qırmızı Bayraq"lı və "Suvorov" ordenli 1054-cü artilleriya polkunda vuruşmuşdu.

* * *

Bu gün 416-cı diviziyanın döyüş yolu üzərindəki müxtəlif şəhərlərdə onun qələbələri şərəfinə xatirə abidələri ucalır. Taqanroq şəhəri yaxınlığındakı Sanbek yüksəkliyində diviziyanın xatirə ansamblı yaradılıb. Taqanroqda, Kiyevdə, Nikolayevdə, Odessa şəhərlərində və Moskvada bu diviziyaya həsr olunmuş şöhrət muzeyləri təşkil edilib.

Bu, ata-babalarımızın öz canları-qanları bahasına yaratdıqları tarixdir. Bu tarixlə hər zaman qürur duya bilərik.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu

1941-1945-ci illər müharibəsinin başlanmasından xeyli əvvəl SSRİ-də müharibəyə hazırlıqla əlaqədar hərbi sənayeni gücləndirmək məqsədilə mühüm tədbirlər planlaşdırılmışdı. 1939-cu il martın 10-21-də keçirilən Sov.İKP-nin XVIII qurultayında SSRİ-də xalq təsərrüfatının inkişafına dair III beşillik plana (1938-1942-ci illər) baxıldı. Həmin planın həyata keçirilməsi istehsal sahələrində, o cümlədən hərbi sənaye sahəsində məsuliyyətin artırılmasını tələb edirdi. Bu səbəbdən də ölkənin müdafiəsi üçün külli miqdarda vəsait ayrıldı. Birinci beşillikdə bu sahəyə 4,9 milyard rubl və yaxud büdcə vəsaitinin 5,4 faizi, 2-ci beşillikdə 47 milyard rubl və yaxud bütün büdcənin 12,6 faizi ayrılmışdısa, 3-cü beşilliyin 3 ayında ayrılan vəsait büdcənin 26,4 faizini təşkil edirdi. 1939-cu ildə müdafiə xərclərinə 34,5 milyard rubl, 1940-cı ildə 56,9 milyard rubl, 1941-ci ildə 83 milyard rubl və yaxud bütün büdcənin 43,4 faiz həcmində vəsait ayrıldı.

Ordunun təkmilləşdirilməsi davam etdirildi və əsaslı dəyişikliklər edildi. 1940-cı ildə yaradılan mexanikləşdirilmiş korpusa tank və motorlaşdırılmış diviziyalar daxil edildi. İri hava desant hərbi hissələri, hava hücumundan müdafiə hissələri, hərbi hava qüvvələri birləşmələri yaradıldı. 1941-1945-ci illər müharibəsi ərəfəsində müxtəlif ixtisaslı kadrların hazırlanması diqqət mərkəzində oldu. 19 hərbi akademiyada, 10 mülki institutların hərbi fakültələrində, 7 ali hərbi dəniz məktəbində hərbi kadrların hazırlanması təşkil olunmuşdu.

1939-cu il avqustun 2-də Azərbaycan K(b)P MK bürosu ehtiyatda olan siyasi heyətə rus dilinin öyrədilməsi məsələsini müzakirə etdi. Rus dilinin öyrənilməsinə diqqətin artırılmasının bir səbəbi də ÜİK(b)P və SSRİ XKS-nin 7 mart 1938-ci il qərarına əsasən milli hərbi hissələrin ləğv edilməsi və bütün milli respublikaların və dairələrin əsgərlərinin ümumi əsaslarla, bütün xalqlarla bərabər hüquqda həqiqi hərbi xidmətə çağırılmağa başlanması oldu.

Ölkənin iqtisadi potensialının artırılmasında xalq təsərrüfatı üçün ixtisaslı kadrların hazırlanması mühüm əhəmiyyətə malik idi. SSRİ miqyasında hərbi gücü artırmaq məqsədilə SSRİ Ali Soveti Rəyasət Heyəti 1940-cı il oktyabrın 2-də "SSRİ dövlət əmək ehtiyatları haqqında" fərman verdi. Fərmana görə, fabrik- zavod və dəmiryol məktəblərində ildə 800 mindən bir milyonadək ixtisaslı fəhlənin hazırlanması planlaşdırılırdı. 1940-cı il oktyabrın 3-də Azərbaycan K(b)P MK SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını həyata keçirmək məqsədilə məsələ müzakirə etdi. 1941-1945-ci il müharibəsi ərəfəsində respublikadakı 42 təlim mərkəzində, 28 fabrik-zavod, 12 peşə və 2 dəmiryol təhsil məktəbində 13 mindən çox gənc oğlan və qız təhsilə cəlb olundu.

Müharibə ərəfəsində Azərbaycanın nəqliyyat sistemində əsaslı dəyişikliklər baş verirdi. Sənayenin ümumi həcmi artdı. Bundan başqa, Azərbaycan 30-cu illərin əvvəlində geridə qalmış aqrar ölkə idi və yavaş-yavaş sənaye respublikasına çevrilirdi.

Dövrün mühüm xarakterik xüsusiyyətlərindən biri də əhalinin kənd təsərrüfatı işlərinə, xüsusilə pambıqçılıq, tütünçülük və üzümçülük sahələrinə cəlbi sahəsində həyata keçirilən tədbirlər idi. Rusiya kəndlərindən əhalinin köçürülməsi milli siyasətdə mühüm halqanı təşkil edirdi. Müharibə ərəfəsində yaranan sosial gərginlik və aclıqla üz-üzə qalan rus kəndliləri yeni sənaye obyektlərində işləmək üçün ölkənin bir sıra rayonlarına, o cümlədən Azərbaycana göndərilirdi. Məlumatlara görə, birinci beşillikdə (1928-1932-ci illər) Bakıda əhalinin sayı gəlmələrin hesabına, xüsusilə Rusiyadan gələnlərin hesabına 380 min nəfər artmışdı. Ümumiyyətlə, 1926-1939-cu illərdə gələnlər hesabına respublikanın əhalisi 32,3 faiz çoxalmışdı. Sadalanan səbəblər şəhər və kənd əhalisi arasında çəkini dəyişdirdi. 1939-cu il məlumatına görə, şəhər əhalisi təxminən 550 min nəfər artmış, kənd əhalisi isə 130 min nəfər azalmışdır.

Müharibə ərəfəsi Azərbaycan xalqının repressiyası ilə yadda qaldı. 1937-ci ildə "əksinqilabçı millətçi-burjua" təşkilatının üzvü kimi 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru repressiyaya məruz qaldı.

1937-1938-ci illər repressiyaları zamanı Azərbaycan xalqının milli-mənəvi sərvətlərinə, mədəniyyətinə, adət və ənənələrinə güclü zərbə vuruldu. Repressiyaların təşkilinin kökündə qeyri-azərbaycanlılar, xüsusilə ermənilər dayanırdı. İstintaq-əməliyyat aparatının əsasını ermənilər təşkil edirdi. Məsələn, Göyçay rayonunda Vartanyan, Nuxada Markaryan, Qaryagində Vartanyan, Şahbuzda Qriqoryan, Balakəndə Sərkisyan, Astarada Avanesov, Lerikdə Xaçaturov, Ağcabədidə Sərkisov, Zəngilanda Zaproryan, Markaryan, Kaçiçyan, Cəbrayılda Avanesov, Djiqaryan, Astraxanbazarda Avakyan, İsrailyan, Puşkində Zəkiyan, Yardımlıda Sevoinyan, Samuxda Petrosyan, Masallıda Aşot Avanesyan, Füzulidə Saakov, Şaxanyan, Vartanov, Qazaxda Qriqoryan, Naxçıvanda Baqdasarov, İsrailyan, İoneysan, Evoyan, Ağacanov, Seyranov, Akopov, Paqgosov, Bakıda Avanesov, Arutyunov istintaq-əməliyyat qrupunun rəhbəri olmuşlar. Respublikanın 51 rayonundan 31-də XDİK rayon şöbəsinin rəhbəri erməni idi.

Totalitar dövlət olan SSRİ-də hakimiyyətdə kimin olması o qədər də önəmli olmamışdır. İmperiyanın qorunması həmişə başlıca məqsəd idi. Stalin ölkə lideri kimi rus imperializminə qulluq edirdi. Ona görə də Azərbaycanın sovetlər imperiyası tərkibində olduğu dövrdə həyata keçirilən tədbirlər, xüsusilə müharibə ərəfəsində sərvətlərin talan olunması məntiqi nəticədir. Mərkəzi hakimiyyətdə toplaşan erməni-gürcü qruplaşması rus şovinistlərinin təhriki ilə ikili siyasət yeritmiş, Azərbaycanın sərvətlərindən və insan resurslarından məkrli məqsədlər üçün istifadə etmişlər.

1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3,4 milyon nəfər idi. Müharibə başlayanda respublikada hərbi səfərbərlik ümumxalq hərəkatına çevrildi. Minlərlə oğlan və qız hərbi komissarlıqlara ərizə ilə müraciət edərək cəbhəyə getdilər. Müharibənin başlanğıcında təqribən 40 min adam könüllü surətdə əsgər köynəyi geyindi, təqribən 200 min adam xalq qoşununa yazıldı. Müharibənin birinci ilində Azərbaycan K(b)P 40 min kommunisti cəbhəyə göndərdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycandan ordu sıralarına 678.950 nəfər kişi, 11 mindən artıq qadın səfərbərliyə alındı, 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata gəldi. Hərbi hissələr üçün 15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü hazırlandı. Azərbaycan SSR ərazisində 87 batalyon, 1123 özünümüdafiə dəstəsi, 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar formalaşdırıldı.

Brest qalasının müdafiəsi əfsanələrə bənzər qəhrəmanlıq nümunələri ilə 1941-1945-ci illər müharibəsi tarixinə daxil oldu. Qalanın müdafiəsində Azərbaycanın 44 gənci iştirak etdi. İ.Səfərov, A.İmanov, M.Məmmədov, M.İbrahimov, H.Haqverdiyev, M.Qədirov, Ə.Əliyev, D.Abdullayev və başqaları xüsusi mərdlik göstərərək qəhrəmanlıqla həlak oldu.

Leninqradın alman-faşist işğalçılarından 900 günlük müdafiəsi müharibə tarixinin parlaq səhifələrindən birini təşkil etdi. Leninqrad uğrunda döyüşlərin qəhrəmanlarından biri Hüseyn Əliyev oldu. Hüseyn Balaəmi oğlu Əliyev ölümündən sonra "Lenin" ordeni ilə təltif edilmişdir.

Leninqradın müdafiəsində azərbaycanlı döyüşçülər - Bakı aeroklubunun yetirmələri Hüseyn Bağırov, Yevgeni Sıqanqov, Asəf Səmədov, Aleksandr Şitov, snayperçi Məmmədəli Abbasov, qvardiya baş leytenantı Volodya Bağırov, "Lenin" ordeni ilə təltif edilmiş İlyas İsmayılov, Məhərrəm Bayramov, Ələkbər Nadirov, sualtı qayıqçılardan biri 2-ci ranq kapitan M.İ.Hacıyev və başqaları iştirak etdilər.

Vermaxt Leninqrad uğrunda döyüşlərlə bərabər Moskva altında da xeyli qüvvə cəmləşdirmişdi. Moskvanın tutulması planının şərti kod adı "Tayfun" idi. Moskvanı müdafiə edən Bakı Hava Hücumundan müdafiə qüvvələrinin zenit artilleriya alayının döyüşçüləri düşmənin 40 təyyarəsini vurdu, 104 düşmən təyyarəsi zədələndi. Moskvaya yeni hərbi hissələr, silahlar, döyüş sursatları, ərzaq göndərilməyə başlandı. Bu sahədə Bakı xüsusilə fərqləndi. DMK-nin 1941-ci il noyabr tarixli tapşırığına əsasən Bakıda "PPŞ" (Pulemyot-Pistolet Şnaqina) hazırlayan zavod yaradıldı. Burada məşhur "Katyuşa" minomyotu üçün milyona yaxın mərmi hazırlandı.

Azərbaycanlı döyüşçülər Moskva uğrunda döyüşlərdə igidlik göstərdilər. Belələrinin önündə İsrafil Məmmədov dayanırdı. Zenit batareyasının komandiri leytenant Məmmədrəsul Paşayev Moskvanın səmasını qoruyurdu, təltif olunmuşdu.

Moskvanın müdafiəsində pulemyotçu İdris Vəliyev, zenitçi serjant Seyfəli Əlibalayev, həkim və tibb bacıları Aliyə Rüstəmbəyova, S.Qarayeva və b. iştirak etdilər. Bakıda təyyarəçilik kursunda təhsil almış Leyla Ələsgər qızı Məmmədbəyova, Zülexa Seyidməmmədova mərdlik nümunələri göstərdilər.

1942-ci il iyunun 22-də Sevastopolda ilk düşmən təyyarələri göründü, Sevastopol altında gərgin döyüşlər başladı. Sevastopol müdafiəçilərinin içərisində starşina Xankişiyev, qvardiya yefreytoru Həsən Həsənov, Nurəli Mirzəyev, Hacıyev, Kərimov, İbrahimov, top nişançısı Fəzli Əhmədov, batalyonun kəşfiyyatçısı Aslan Vəliyev, top nişançısı Denis Baxışov, doldurucu İsmayıl Məmmədov da var idi. Alfa Şirazi, hərbi həkim Sara İbrahimova, tibb bacıları Pakizə Manafova, Ə.Həsənova, B.Mircavadova, R.Əhmədova, Ş.Əsgərova, R.Gözəlova və onlarla başqaları yüzlərlə yaralını ölümün pəncəsindən aldılar.

Stalinqrad vuruşması (1942-ci ilin iyulundan-1943-cü ilin fevralın 2-dək) davam etdi. Moskva ətrafındakı vuruşmalarda göstərdiyi hərbi təşkilatçılıq və şəxsi igidliyinə görə podpolkovnik rütbəsi almış Həzi Aslanovun 55-ci əlahiddə tank alayı Stalinqrad vuruşmasında feldmarşal Manşteynin ordusunun darmadağın edilməsində yüksək hərbi məharət göstərdi, xüsusi döyüş nümayiş etdirdi.

Stalinqrad vuruşmasında Azərbaycan xalqının mərd oğulları - təyyarəçilər Nuru Əliyev və Tacəddin Əfəndiyev, minomyotçu Şamil Hüseynov, topçu Xeyrulla Şahgəldiyev və başqaları döyüşlərdə qəhrəmanlıq göstərdilər. Stalinqrad vuruşmasında A.Axundov, A.Abbasov, M.Qəribov, M.İsrafilzadə, A.Əliyev, B.Ələsgərov, Ə.Kərimov, B.Muxtarov, A.Mustafayev, Ə.Həmidov, Ə.Hüseynov, M.Cəfərov və başqaları igidliklə döyüşdülər. Top nişançıları F.Əhmədov və Baxışov, top sürücüsü Şahvəliyev, kəşfiyyatçı A.Vəliyev, doldurucu İ.Məmmədov, snayperçi Balaoğlan Abbasov və b. qəhrəmancasına həlak oldular.

Azərbaycan qadınları kişilərlə çiyin-çiyinə döyüşdülər. Həlimə Rzayeva, Zərifə Camalbəyova, ana və qız Bəyim və Səlimə Əlizadələr, Böyükxanım Bağırova Stalinqrad döyüşlərində iştirak etdilər.

Stalinqrad əməliyyatı 1942-ci il noyabrın 19-dan 1943-cü il fevral ayının 2-nə qədər davam etdi. "Koltso" adlanan bu əməliyyat 2 fevralda düşmənin tam darmadağın edilməsi ilə nəticələndi. Cəbhənin qoşunları 131 min adam, o cümlədən 2,5 mindən çox zabit və başda feldmarşal Pauls olmaqla 24 general əsir götürdülər. Əsirlərdən 1 nəfər general-polkovnik, 1 nəfər general-leytenant, 2 nəfər polkovnik-leytenant, 4 nəfər kapitan, 1.444 nəfər ober-leytenant, 182 nəfər leytenant idi. 16.500 nəfərdən artıq azərbaycanlı döyüşçü "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu. Stalinqradın müdafiəsinə görə 112 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Təltif olunanlar arasında Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanov da vardı.



Qafqaz döyüşlərində digər xalqlar və millətlərdən yaranan diviziyalar fəal iştirak etdi. Onların arasında Azərbaycanın 77, 223, 402 və 416-cı, 242, 392, 394 və 414-cü qırıcı atıcı və dağ-atıcı diviziyaları da vardı. Qafqaz uğrunda döyüşlərdə yüksək döyüş məharəti göstərən azərbaycanlı əsgərlərdən biri Qafur Nəsir oğlu Məmmədov idi. İsrafil Məmmədov, Ədilə Babayeva, Humay Əlibəyli, Böyükxanım Bağırova, Roza İbadovanın döyüş yolu Şimali Qafqazdan başladı, Donbas, Çerkass, Voroşilovqrad şəhərlərinin, Ukraynanın yüzlərlə kəndinin alınmasında iştirak etdilər.

Krımın azad edilməsində Azərbaycanda təşkil olunmuş 77-ci və 227-ci atıcı diviziyalar iştirak etdilər.

1945-ci ilin mart ayında Berlinə hücumu davam etdirmək üçün şərait yarandı. Mayın 1-də axşam 301-ci diviziyanın alayları 148-ci və 230-cu diviziyalarla qarşılıqlı əlaqədə faşist Reyxi başçılarının son sığınacağı olan baş komandanlıq qərargahını - İmperiya Dəftərxanasının binasını və bunkerini ələ keçirmək uğrunda döyüşə başladılar. 9-cu atıcı korpusun siyasi şöbəsinin təlimatçısı mayor Anna Vladimirovna Nikulina qələbə bayrağını İmperiya Dəftərxanasının binasına sancdı. Aprelin 30-da 3 dəfə Reyxstaqa hücum edildi. Reyxstaqı alan diviziyanın serjantları M.A.Yeorov və M.V.Kantariya bayrağı Rexstaqa sancdılar. Mayın 1-də müxbirlər binanın üzərində onlarla bayraq saymışdılar. Hansının birinci sancıldığı bu günədək mübahisəlidir. SİTA-nın müxbiri Yevgeni Xaldeyin məşhur 2 may 1945-ci il tarixli "Qələbə bayrağı Reyxstaqda" fotoşəklində bayrağın sancılmasında dağıstanlı Abdulkərim İsmayılov, kiyevli Aleksey Kovalyov və Minskdən olan Aleksey Qoriçekin də iştirak etdiyi göstərilir.

Müharibə illərində 6.200 partizan dəstəsi və gizli qrup fəaliyyət göstərmişdi. Krasnodonda fəaliyyət göstərən "Gənc qvardiya"nın üzvlərindən biri Əli Dadaşov idi. 8-ci Azərbaycan partizan dəstəsinin üzvləri 1943-cü ilin əvvəlində Krımın Kuybışev rayonunda hərbi düşərgədə saxlanılan 800 hərbi əsir arasında olan zabit Əliyev Məmməd Kərim oğlu, Hacıyev Sahib Cəbrayıl oğlu, Rzayev Hüseyn Məmməd oğlu düşərgədə hərbi əsirlərdən gizli təşkilat yaratmışdılar. 1943-cü il senyabrın 18-də Məmməd Əliyev və Mahmud Həsənov "Krasnıy partizan" dəstəsi təşkil etdilər. 1943-cü il noyabrın 7-də dəstə Cənubi Krımda 8-ci Azərbaycan partizan dəstəsi adı ilə 7-ci partizan briqadasına daxil oldu. Dəstənin komandiri Məmməd Əliyev, komissarı Əbdülkərim Əşirov, qərargah rəisi Sahib Hacıyev idi. Ümumilikdə 8-ci Azərbaycan partizan dəstəsi 7 ay ərzində düşmən arxasında 32 döyüş əməliyyatı keçirmişdi. 1.225 nəfər düşmən əsgər və zabiti məhv edilmiş, 451 nəfər əsir götürülmüşdü. Partizanların əməliyyatı nəticəsində 9.700 metr rabitə xətti sıradan çıxarılmış, 7 top, 11 minomyot, 12 pulemyot, 500 vahid digər atıcı silah və 11.000 patron ələ keçirilmişdi.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən partizan dəstəsinin tərkibində 500 nəfər azərbaycanlı döyüşçü olmuşdur.

Uritski adına partizan dəstəsinin komandiri Hümmət Namazov, döyüş dostları R.Əsgərov, Ə.Məhərrəmov, S.Bağırov, Q.İmanov, M.Tağıyev, T.Quliyev, M.Daşdəmirov, Ş.Vəliyev, M.Bayramov və başqaları qəhrəmanlıqla vuruşmuşlar.

Almaniyanın "Ştrans" düşərgəsində saxlanılan M.Hüseynzadə, S.İsmayılov, R.Ağazadə, M.Seyidov, M.Qulubəyov və başqaları hərbi əsirlər arasında iş aparırdılar. Nəticədə hərbi hissələrdəki gizli antifaşist təşkilatlarının üzvləri qaçaraq partizanlara qoşulmuşdular. Belə partizanlardan biri də Mehdi Hənifə oğlu Hüseynzadə idi.

Mehdi Hüseynzadə (Mixaylo) Ukrayna, Polşa, İtaliya və Yuqoslaviyada hərbi əsir düşərgələrində olan sovet əsirlərinin qaçmasına köməklik edir, yoldaşları ilə birlikdə Yuqoslaviya partizanlarına qoşulur. Faşist zabiti forması geyərək tez-tez almanların qərargahında olan Mehdi düşmən ordularının hərəkətlərinə dair kəşfiyyat materialları toplayır, qoşunların hərəkət planlarını öyrənərək partizanlara xəbər verir və onlara zərbələr endirirdi. "Opiçina" kinoteatrı partladılarkən 80 nəfər faşist məhv olmuşdur. 1944-cü ilin payızında Mehdinin başçılıq etdiyi bir qrup partizanın Udine şəhərindəki faşist həbsxanasına hücumu nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsiri azad edilir. M.Hüseynzadə 1944-cü il noyabr ayının 2-də düşmənlə qeyri-bərabər döyüşlərin birində indiki Sloveniyanın Vitovle kəndində həlak olur. Noyabrın 16-da onun cəsədi Çepovani kəndində dəfn edilir. Çox təəssüflər olsun ki, Mehdi Hüseynzadənin qəhrəmanlığı sovet rəhbərliyi tərəfindən vaxtında qiymətləndirilmədi.

Müharibə qurtaran kimi Dövlət Təhlükəsizlik Komitəsi 1946-cı ildə olduqca təhlükəli hesab etdiyi bir "casus" haqqında material toplamağa başladı. "Casus"un axtarışı işində onun 1943-1944-cü illərdə Almaniyanın Ştrans məntəqəsində yerləşən Azərbaycan Milli Legionunda təbliğat-təşviqat şöbəsində işlədiyi, legionları Hitler Almaniyasına vicdanla xidmətə çağırdığı bildirilirdi. "Casus" kimi axtarışda olan Mehdi Hüseynzadə idi.

Mehdinin son məktubu Stalinqraddan gəlib. Onun bacısı oğlu Mehdi Əzizbəyov yazırdı ki, dayısı əsir düşməyib. Kəşfiyyatçı kimi almanlar tərəfə atılıb. ...Onun dostları danışırdılar ki, Mehdi almanlar tərəfə keçəndən sonra SSRİ ilə əlaqə saxlamayıb. Mehdi Hüseynzadə 162-ci "Türküstan" diviziyasına yazılıb. Onun bacarığını görən almanlar Mehdini Potsdama 3 aylıq hərbi məktəbə göndəriblər. Bu kursdan sonra yenidən "Türküstan" diviziyasına təbliğat-təşviqat işinə göndərilib. Başqa sözlə, əsl həqiqəti bilməyən SSRİ DTK Mehdi Hüseynzadəni "Vətən xaini" hesab edir. Müharibə qurtarandan 9 il sonra - 1954-cü ildə Dövlət Təhlükəsizlik Nazirliyinin baş müvəkkili, bölmə rəisi V.Banserev Mehdi ilə legionda və partizan hərəkatında iştirak edən şahidləri yenidən dindirir və onlar öz ifadələrində 1944-cü ildə Almaniya hökumətinin müttəfiqi İtaliyanın məğlubiyyətindən, bundan sonra tərkibində fəaliyyət göstərdikləri 162-ci "Türküstan" diviziyasının Adriatik dənizinin sahillərinə göndərilməsindən danışır, İtaliya ilə Yuqoslaviyanın sərhədində olarkən kəskin hava şəraitinə dözməyən Mehdinin xəstələnməsindən də söz açırlar.

Mehdi Hüseynzadə haqqında olan axtarış işi 8 il çəkir. Sonda işinin nəticəsi onun qəhrəman olduğunu üzə çıxardı. İtaliya Kommunist Partiyasının katibi Palmiro Tolyati, Yuqoslaviya Xalq Azadlıq Hərəkatının lideri və Kommunist Partiyasının katibi Broz Tito SSRİ hökumətinə Mehdinin şücaətləri əks olunmuş sənədlər təqdim etdilər. Bütün bunlardan sonra "Casus axtarış əməliyyatı" səmtini dəyişdi. Artıq axtarış işi "Geroy" adlandırılırdı. Müharibədən sonra (1952-ci ildə) Moskvaya gələn İtaliya Kommunist Partiyasının Baş katibi Palmiro Tolyatti müharibə illərində İtaliyada "Mixaylo" adı ilə İtaliya müqavimət hərəkatı sıralarında bir azərbaycanlı gəncin misilsiz qəhrəmanlığı və şücaəti haqqında məlumat verir. Mehdinin ölüm xəbəri 1954-cü ildə dəqiqləşdirilir. Onun məlumatlarından sonra İtaliya müqavimət hərəkatının rəhbərlərindən olan Karlos Lubinonun köməyi ilə M.Hüseynzadə haqqında materiallar toplandı və SSRİ rəhbərliyinə təqdim olundu.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli fərmanı ilə Mehdi Hüseynzadə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür.

***Ardı 14-cü səh.***

**1945 Faşizm üzərində Qələbədən 75 il keçir 2020**

# 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu

Əvvəli 13-cü səh.



Azərbaycanlı döyüşçülər Fransada müqavimət hərəkatında iştirak ediblər. Fransanın cənubunda, Rodez rayonunda ilk Azərbaycan alayı formalaşmışdı. 1942-ci ilin yayında Polşanın Edlin şəhərində azərbaycanlı hərbi əsirlərdən gizli antifaşist təşkilatı yaranmışdı. Təşkilatın üzvləri Hadı Qiyasbəyov, İsmayıl Heydərov, Hüseynrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev və başqaları Fransa şəhərlərinin faşistlərdən azad edilməsində iştirak etdilər.

Fransa müqavimət hərəkatının iştirakçılarından biri, müharibə illərində əsir düşməsinə baxmayaraq döyüş dostlarının köməyi ilə əsirlikdən qaçaraq fransız partizanlara qoşulan "Xarqo" ləqəbli döyüşçü Ə.Cəbrayılov, İtaliya müqavimət hərəkatında iştirak etmiş Nəsir Abdullayev, Məmməd Bağırov, Həmzə Əsgərov, Əli Babayev, Şahbaba Məcidov, Tahir İsayev, Həsən Kamalov və başqaları faşistlərə qarşı cəsarətlə vuruşmuşdular.

Müharibənin ilk illərində Baş Komandan Stalinin 1941-ci il 18 oktyabr tarixli əmrinə əsasən bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli diviziyalar yaradıldı. Bu diviziyaların əsas heyətini azərbaycanlılar təşkil edirdi. 77, 223, 271, 396, 402 və 416-cı milli diviziyalar müxtəlif orduların tərkibində döyüş əməliyyatlarında iştirak etdilər.

1944-cü il aprel ayının 13-də Simferopol uğrunda döyüşdə fərqləndiyi üçün Ali Baş Komandanlıq tərəfindən 77-ci diviziyaya mayın 24-də fəxri "Simferopol" adı verildi, diviziyanın 613 əsgər və zabiti döyüş mükafatları ilə təltif olundu. Qafqaz uğrunda vuruşmalarda 60 əsgər və zabitə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Təqribən 600 döyüşçü "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olundu.

77-ci diviziyanın döyüşçülərindən 1941-1945-ci illərdə 11 nəfər "Lenin", 2 nəfər "Qızıl Ulduz", 68 nəfər "Qırmızı Bayraq", 15 nəfər "Suvorov" və "Aleksandr Nevski", 1 nəfər "Boqdan Xmelnitski", 101 nəfər I dərəcəli, 238 nəfər II dərəcəli "Vətən müharibəsi", 1.149 nəfər "Qırmızı Ulduz", 30 nəfər 2-ci dərəcəli "Şöhrət", 412 nəfər 3-cü dərəcəli "Şöhrət" ordeni, 208 nəfər "İgidliyə görə", 1.131 nəfər "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur. Döyüşçülərdən 8 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Baş Komandanlığın 1941-ci il 18 oktyabr tarixli əmri ilə 46-cı ordunun Gürcüstan SSR-dən gəlmiş 168-ci ehtiyat alayı əsasında yaradılan 223-cü diviziyaya təcrübəli rəislər komandanlıq etmişlər. Diviziyanın komandiri polkovnik Romanov V.S., hərbi komissarı alay komissarı Əliyev M.A., qərargah rəisi podpolkovnik Preobrajenski N.Q. idi. Diviziyanın qərargahı Bakı şəhərində yerləşirdi.

1941-ci il dekabrın 23-də 223-cü diviziya Bakının neft yataqlarının müdafiəsi üçün şəhərin hüdudlarından kənarda hazırlanan müdafiə xəttində yerləşdirilir. 1942-ci il fevralın 22-də diviziya komandirliyini Vladimir Pavloviç Züvanov (Heybət Atamoğlan oğlu Heybətov) qəbul edir.

223-cü Azərbaycan atıcı diviziyası Belqradın alınmasındakı döyüş rəşadətinə görə ona "Belqrad" diviziyası fəxri adı verilmişdir. Diviziya döyüşçülərinin fədakarlığı, yüksək döyüş məharəti və igidliyinə görə 20 nəfər azərbaycanlı döyüşçüyə, o cümlədən A.Vəzirov, M.Vəliyev, A.Quliyev, M.Abdullayev, B.Mirzəyev, M.Cəbiyev və X.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Bakıdan Praqaya qədər 6 dövlətin - Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexoslovakiyanın ərazisindən keçən 223-cü diviziyanın döyüş yolu 5.000 kilometrə bərabərdir. 30 aylıq döyüşlər zamanı diviziya sahəsi 10.000 kvadrat kilometr olan 400-dən çox yaşayış məntəqəsinin, 19 şəhər, o cümlədən Mozdok, Georgiyevski, Dneprodzerjinsk, Benderı, Kotovskoye, Konstansa, Şumin, Rqotino, Bor, Yaqodino, Belqrad, Kralyevo, Budapeşt, Komarom, Vyana və digər şəhərlərin azad olunmasında iştirak etmişdir. 223-cü diviziya döyüş yolunda irili-xırdalı 50-dən artıq çaydan, o cümlədən 4 dəfə Dunaydan keçmişdir. Alman faşistləri ilə döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri 45 mindən çox alman əsgərini məhv etmiş, 43.800 nəfər əsgər və zabiti əsir götürmüş, düşmənin 28 təyyarəsi, 113 tank və döyüş maşını, 549 səhra topu, 311 minaatan qurğusu, 1.152 pulemyotu, 25 mindən çox avtomaşını sıradan çıxarılmışdır.

402-ci Azərbaycan milli atıcı diviziyası 1941-ci ilin oktyabr ayınadək İranda dislokasiya olunmuşdu. 1941-ci ilin oktyabr ayının əvvəllərində vətənə qayıdan diviziya Naxçıvan-Culfa-Bakı-Qudermes marşrutu ilə müharibə zonasına yola salınmışdır. Diviziyada azərbaycanlılar 55 faiz, ermənilər 18,6 faiz, ruslar 12 faiz, ukraynalılar 3,6 faiz, gürcülər 3,2 faiz, digər millətlərdən olanlar 1,7 faiz təşkil edirdi. Şəxsi heyətin 45 faizi təlim görməmişdi. 1943-1944-cü illərdə 402-ci diviziyadan digər milli diviziyaların tərkibini tamamlamaq və möhkəmləndirmək, döyüşçü və komandirlər hazırlamaq üçün əsas ehtiyat baza kimi istifadə olunmuşdur. Diviziya 1943-cü ildə 2.200 nəfər, 1944-cü ildə 1.500 nəfər yeni çağırışçını qəbul edərək döyüşə hazırlamışdır.

"Qırmızı Əmək bayraq"lı və II dərəcəli "Suvorov" ordenli 416-cı diviziya 1942-ci ilin mart-sentyabr aylarında yaradılmış milli diviziyadır. Müxtəlif vaxtlarda S.P.Starojilov, V.T.Maslov, T.A.Əliyarbəyov, D.M.Sızranov, H.M.Zeynalov, P.M.Ryabov, R.Ə.Məcidov və b. diviziyanın komandanları, qərargah rəisi və siyasi rəhbəri olmuşlar. Diviziyanın tərkibindəki döyüşçülərin 11.050 nəfəri azərbaycanlı, 291 nəfəri rus, 225 nəfəri erməni, 110 nəfəri gürcü, 99 nəfəri ukraynalı, 72 nəfəri tatar, 28 nəfəri yəhudi, 23 nəfəri belarus idi. 1942-ci ilin iyun ayında diviziya Qafqazda döyüşən 44-cü ordunun tərkibinə daxil edilmişdir.

Müharibə dövründə alman-faşist işğalçılarına qarşı fədakarlıqla vuruşduqlarına görə diviziyanın 152 döyüşçü qadınından 45 nəfər "Qızıl Ulduz" ordeni, 42 nəfər "İgidliyə görə", "Döyüş xidmətlərinə görə" medalları ilə təltif olundu. 17 qadın zabit rütbəsi aldı. Reyxstaq divarlarına avtoqraf yazanlar sırasında Böyükxanım Mircavadova və Rəhimə Aslan qızı Babayeva da vardı. Rəhimə Babayeva "Döyüş xidmətlərinə görə" Qafqazın, Berlinin, Almaniyanın alınmasına görə medalları ilə təltif olunmuşdu.

Berlin əməliyyatında iştirak edən 416-cı diviziya 1945-ci il aprelin 20-də Klosserdorfu tutub Reyxstaq istiqamətində hücumu davam etdirdi. 1945-ci il mayın 2-də diviziyanın bölmələri Brandenburq darvazasına qələbə bayrağı sancdılar.

1942-ci il aprelin 20-dən 1945-ci il mayın 2-dək Qafqaz dağlarından Berlinədək döyüş yolu keçən 416-cı diviziya 1942-ci il sentyabrın 30-dan 1945-ci il mayın 2-dək olan dövrdə düşmənin 22.996 nəfər əsgər və zabitini məhv etmişdi. 1943-cü il avqustun 30-da Taqanroq şəhərinin azad edilməsində göstərdiyi əsgəri igidliyə görə "Taqanroq" diviziyası fəxri adı verilən diviziya "Qırmızı Bayraq" ordeninə layiq görülmüşdür.

416-cı diviziyanın döyüşçülərindən 8 nəfər "Sovet İttifaqı Qəhrəmanı" adı aldı, 11 nəfər "Lenin", 358 nəfər "Qırmızı Əmək Bayrağı", 3 nəfər 2-ci dərəcəli "Kutuzov", 47 nəfər "Aleksandr Nevski", 540 nəfər 1-ci dərəcəli "Vətən müharibəsi", 1.756 nəfər 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 5.205 nəfər "Qızıl Ulduz" nişanı, 5.666 nəfər isə "İgidliyə görə" və "Hərbi xidmətlərinə görə" medalı ilə təltif olundu. Ümumiyyətlə, diviziyanın təşkil olunduğu gündən Qələbə gününədək 14.369 nəfər müxtəlif orden və medallarla təltif edildi.

1941-ci ilin yazında Bakı neft mədənlərinin istismarının təşkil olunması məqsədilə almanlar xüsusi idarə - "Vestfalen qərargahı"nı yaratdılar. 1941-ci il iyulun 16-da keçirilən yığıncaqda qeyd olundu ki, "Bakı vilayəti" "alman konsessiyası olmalıdır". "Felmi" planına uyğun olaraq Bakının ələ keçirilməsi tarixi 25 sentyabr 1942-ci il müəyyənləşdirildi. 1942-ci ildə faşist Almaniyasının Bakını ələ keçirmək cəhdləri bu planların tərkib hissəsi idi.

Faşist Almaniyası Bakı neftinin müharibədəki roluna yüksək qiymət verdiyindən Vermaxtın planında Qafqazın ələ keçirilməsi, neft rayonlarını zəbt etmək mühüm yer tuturdu. Müharibə ədəbiyyatının təhlili, döyüş əməliyyatlarına dair xəritələr və sərkərdələrin hesabatları belə qənaətə gəlməyə əsas verir ki, Hitler Almaniyası təkcə müharibənin ilk yarımilində deyil, həmçinin müharibənin gedişi prosesində də Bakı məsələsini "yaddan çıxarmamışdı".

Bakı nefti Fransa və İngiltərənin hərbi-strateji planlarında xüsusi yer tuturdu. Hitler Almaniyası Parisi ələ keçirən zaman - 1940-cı ilin iyun ayında kiçik La Şarite şəhər vağzalında alman yefreytor Parisdən aparılan gizli fransız arxivini, o cümlədən ingilis-fransız danışıqlarının yazısını ələ keçirir. Fransız qərargahının gizli sənədlərindən məlum olur ki, Fransa və İngiltərənin planında Qafqazın və Bakının neft sənayesinin ələ keçirilməsi əsas yerlərdən birini tuturmuş.

Belə bir fikir də hökm sürürdü ki, əgər Stalinqrad vuruşmasında sovet ordusu məğlub olsaydı, türklər Bakını tutacaqdılar. "Böyük gənələr" ("Bolğşie klehi") əməliyyatına görə almanlar Bakını ələ keçirdikdən sonra İranın və Yaxın Şərqin neft yataqlarına türklərsiz sahib olmağı planlaşdırırdı. Ancaq bir şeyi unutmaq olmaz ki, əgər türklər Bakını tutsaydılar, döyüşlərin gedişində neft hasilatının ritmi pozular, neftin emalı və daşınmasında ləngimələr baş verərdi. Yox, əgər Türkiyə Stalinqrad döyüşünün getdiyi vaxtda, 1942-ci ildə hərbi əməliyyatlara başlasaydı, bir sıra Avropa dövlətlərinin müharibədən çıxması SSRİ üçün əhəmiyyətsiz olardı. Fikrimizcə, bu, Azərbaycan SSR-ə, Bakı neftinə olan siyasi qısqanclıqla bağlı idi. Təbii ki, bütün planlardan SSRİ rəhbərliyinin xəbəri var idi. Başqa sözlə, Bakı həm müttəfiqlərin, həm də Stalinin hədəfində idi və Qafqazın müdafiəsinə dair bir sıra tədbirlər görülürdü.

2019-cu il oktyabrın 11-də Aşqabadda, MDB dövlət başçılarının sammiti zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Böyük Vətən müharibəsində qələbəyə verdiyi töhfədən, Hitlerin Bakını almağa necə can atmasından və Ermənistanda faşist Qaregin Njdeyə heykəl qoyulmasından danışarkən bildirib ki, "Ən dağıdıcı və qanlı müharibənin cəbhələrində, habelə arxa cəbhədə bizim xalqlarımız qəhrəmanlıq və mərdlik göstəriblər, bu da sonrakı nəsillər üçün nümunədir. Azərbaycan faşizm üzərində qələbəyə layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğul və qızı Böyük Vətən müharibəsinin cəbhələrində döyüşüblər. Onların yarısı öz canlarını bizim ümumi qələbəmiz naminə qurban verib". Prezident çıxışında onu da xatırladıb ki, Azərbaycan o vaxt bütün ölkəni yanacaqla təmin edirdi. Cəbhənin ehtiyacları üçün zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. "Bunlarsız sovet ordusu düşmənə qalib gələ bilməzdi". Azərbaycan Prezidenti hərbi kinoxronikanın məşhur kadrlarını - Hitlerə tort gətirilməsini də xatırladıb. Tortun üstündə dənizi xatırladan çökək var, orada alman dilində "Xəzər dənizi" yazılıb. Həmin çökəkdə maye qara şokolad və "Bakı" adı var. Hitler qaşıqla şokoladı götürür və tortun üstünə tökür, sonra xaç şəklində şokoladı götürüb onu "Bakı" yazılan yerə sancır. "Bu da faşistlərin Azərbaycanın neft yataqlarını ələ keçirmək planını göstərir, habelə bildiyimiz kimi, onların Şimali Qafqazın neft yataqlarını tutmaq planları da olub". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüş iştirakçılarının yaddaşını təzələyərək bildirib ki, əgər faşistlər Bakını ələ keçirsəydi, sovet ordusu yanacaqsız qalardı. Bakı isə havaya uçardı. Çünki sovet hökuməti bu fövqəladə halda bütün neft yataqlarını minalamışdı ki, düşmənə qismət olmasın. Azərbaycan Respublikasının Prezidenti vurğulayıb ki, Azərbaycanda müharibədə həlak olanlara heykəllər qoyurlar və müharibə veteranlarına böyük qayğı göstərilir.

1941-ci ilin sonunda Azərbaycanda 130 adda silah, sursat, hərbi mərmi və əşya istehsal olunurdu. 1941-ci il noyabrın 8-nə kimi 35 min qutu yandırıcı butulka, 14 min patron ehtiyatı hazırlandı, istehsal gücü sutkada 10 min butulkaya çatdırıldı.

1942-1944-cü illərdə cəbhəyə 11 milyon vahid döyüş sursatı göndərildi. 1942-ci ilin iyulunda Bakıda rekord müddətdə xalq arasında "Katyuşa" kimi məşhur olan qvardiya minomyotu istehsal edən yeni 160 nömrəli zavod yaradıldı. Bakıda qısa müddətdə "UTİ-4" B təyyarəsi bazasında 15 B döyüş variantı "UTİ-4" tipində yığıldı. 1942-ci ilin yanvarında Bakı zavodu 20 "UTİ-4" maşını buraxdı, fevralda buraxılış 2 dəfə artdı. Bir müddət sonra Bakıda "YAK" ("ƏK") qırıcıları yığılmağa başladı. Müxtəlif tipli 782 təyyarə təmir olunaraq cəbhəyə göndərildi.

Müharibə respublikanın xalq maarifi orqanlarının işində bir sıra çətinliklər yaratdı. Bir sıra məktəb binalarının hospital və hərbi-tədris məntəqələrinin sərəncamına verilməsi nəticəsində çoxnövbəli məşğələlər təşkil olundu.

Müharibə illərində rus dillinin tədrisinə diqqət artırıldı.

Azərbaycan elmi öz işini müharibə şəraitinə uyğun qurdu. SSRİ EA-nın Azərbaycan filialı, onun elmi-tədqiqat institutları, ali məktəblər, ümumiyyətlə, respublikanın bütün elmi potensialı orduya xidmət məqsədlərinə tabe edildi.

1941-1945-ci illərdə 63 yeni kimya və neft-kimya sənayesi müəssisəsi istifadəyə verildi. 300-dən artıq mühüm ixtira işləndi və istehsalata tətbiq olundu. Nəticədə 100 növ kimya məhsulları, o cümlədən 36 növ yağ, 26 növ yandırıcı və partlayıcı vasitə, 9 adda aviasiya benzini, 8 adda dizel yanacağının kütləvi istehsalına başlandı.

Müharibə illərində fəal iştirakına, cəbhənin və xalq təsərrüfatının vacib məhsullarla təmin edilməsindəki fəaliyyətinə görə Y.Məmmədəliyev, X.Qutırya "Lenin" ordeni ilə təltif olundular. Kimyaçı alimlərdən Y.Məmmədəliyev, X.Qutırya, M.Kardin, L.Solovyov, A.Markin Dövlət mükafatına layiq görüldülər. Onlarca kimyaçı mühəndis və fəhlə orden və medallarla təltif olundu.

1945-ci ilin martında Azərbaycan SSR Elmlər Akademiyasının təsis olunması Azərbaycan elminin qələbəsi demək idi.

1941-ci ildə respublikada 66 hərbi hospital yaradıldı. Müharibə illərində respublikada donor hərəkatı genişləndi. 1941-1945-ci illər ərzində yaralı döyüşçülər üçün cəbhəyə 41.609 litr qan göndərildi, 7.229 litr qanı əvəz edən preparatlar hazırlandı. Müharibə dövründə respublikanın 149.170 vətəndaşı donorçu oldu.

1942-ci ilin yanvarında tibb elmləri doktoru, professor Əziz Əliyevin sədrliyi ilə "Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi" yaradıldı.

Müharibənin ilk günlərindən səfərbərliklə əlaqədar keçirilən mitinq və yığıncaqlarda alovlu nitqlərlə çıxış edən yazıçılar faşizmin mahiyyətini başa salır, onların törətdikləri vəhşilikləri göstərərək xalqı mübarizəyə çağırırdılar. Qafqaz uğrunda gedən gərgin döyüşlərdə - 1942-ci ilin payızında S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, M.Hüseyn, Z.Xəlil, Məmməd Əkbər, Ə.Məmmədxanlı döyüşçülərlə birgə idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət cənub cəbhəsində - Sevastopol və Kerç müdafiəçilərinin yanında oldular.

Müharibə illərində bəstəkarların amansız mübarizəyə səsləyən və vətənpərvərlik mövzusunda yazılan əsərləri arxa və ön cəbhənin yaxın dostuna çevrildi. Ü.Hacıbəyovun Nizaminin mətninə yazdığı və qələbəyə həsr etdiyi "Sənsiz ", "Sevgili canan", Ə.Bədəlbəylinin B.Zeyd-manla birgə yazdığı "Xalqın qəzəbi", Niyazinin "Xosrov və Şirin" operası, "Döyüşdə" simfonik əsəri, S.Rüstəmovun "Cəbhə eşqi" əsəri, "Cəbhəyə", "İrəli", "Qəzəl", "Qəhrəmanlar marşı" mahnıları, Ağabacı Rzayevanın "Cəngi", "Vətən nəğməsi", "Dilbərim", "Gözlərin" mahnıları müharibə dövrünün əsərləridir. Müharibə illərində Moskva konservatoriyasının tələbəsi olan Qara Qarayev və Cövdət Hacıyevin bəstələdiyi "Vətən operası" (libretto müəllifi İ.Hidayətzadə) əsəri 1946-cı ildə Dövlət mükafatına layiq görüldü.

Faşizmə qarşı mübarizədə 121 nəfər Azərbaycan SSR vətəndaşı (onlardan 43 nəfəri azərbaycanlıdır) Sovet İttifaqı Qəhrəmanı adına, Həzi Aslanov isə bu ada iki dəfə (1942 və 1991) layiq görüldü, 30 nəfər (onlardan 15 nəfəri azərbaycanlıdır) "Şöhrət" ordeninin tam üç dərəcəsinin kavaleri oldu. Azərbaycanlılar Fransa, İtaliya və digər dövlətlərin orden və medallarını almışlar. Azərbaycan oğul və qızları ön cəbhədə qəhrəmanlıq göstərmiş, arxa cəbhə zəhmətkeşləri isə ön cəbhəni ərzaqla, yanacaq və digər məhsullarla, silah və sursatla təmin etmişlər. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "...İkinci dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır. Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyə gedən yol olmuşdur. Azərbaycan yüksək inkişaf yolu ilə getdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu".

"Sovet İttifaqı qəhrəmanları Həzi Aslanovun, Mehdi Hüseynzadənin, İsrafil Məmmədovun, Qafur Məmmədovun, Gəray Əsədovun və çox-çox başqa azərbaycanlıların şanlı hünərləri xalqımızın yaxşı yadındadır".

*Mais ƏMRAHOV,*
*AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan mədəniyyəti tarixi" şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor*

# O, yüksək nüfuz sahibi idi



**Xalqımız hər zaman elin ağsaqqalı, ağbirçəyi məsələsinə olduqca ciddi əhəmiyyət vermişdir. Hər bir kənddə, qəsəbədə, şəhərdə ağsaqqal, ağbirçək sözü, mövqeyi üstün olub, hansısa problemin həll edilməsində böyük rol oynayıb.**

Belə gözəl ağsaqqallardan biri də Ağdamda adını hər kəsin böyük rəğbətlə çəkdiyi, haqqında sevə-sevə xatirələr danışdığı, gənclərə örnək göstərilən görkəmli ziyalımız Surxay Qurbanovdur. Faşizm üzərində qələbənin 75 illiyi qeyd edilən bu günlərdə, qələbənin qazanılmasında ölüm-dirim mübarizəsi aparan belə insanlarımızı xatırlamaq borcumuzdur.

Ağdamlılar Surxay müəllimlə fəxr edirlər. Onu bu zirvəyə qaldıran ləyaqəti, prinsipiallığı, yüksək insanı keyfiyyətləri olub. 1912-ci ildə anadan olub. Görünür elə ilk uşaqlıq illərində onun nəsli-nəcabəti, ailəsində olan milli ruh, ona qarşı olan qayğı qəlbini olduqca gözəl formalaşdırıb.

Məktəbdə müəllimlərin də sevimlisi olub və görünür bu münasibət də onun müəllimlərə, təhsilə məhəbbətini artırıb. Həmin dövrün kadrlara olan ehtiyacı hesabına, bir əlacı şagird kimi seçilən Surxay Qurbanov hələ gənc yaşlarından - 1930-cu ildə pedaqoji fəaliyyətə başlayıb. Ağcabədi, Ağdam rayonlarında müəllim, dərs hissə müdiri, məktəb direktoru kimi vəzifələrdə çalışıb. Eyni zamanda rayonda çıxan "Lenin yolu" qəzetində məsul katib vəzifəsində işləyib. Mənəviyyatlı bir ailə başçısı, gözəl insani keyfiyyətlərə malik Surxay Qurbanov o zaman istər bir müəllim kimi, istərsə də rayon Partiya Komitəsinin orqanı olan qəzetin məsul işçisi kimi əhali arasında böyük nüfuz qazanmışdı.

1941-ci ildə müharibə başlayan gündən cəbhəyə getdi. 1945-ci ilin avqust ayına kimi faşizmə qarşı aparılan bu müharibədə iştirak etdi. Artıq 29 yaşlı, geniş həyat təcrübəsi olan bir insan kimi müharibəyə qatılan bu gənc tezliklə orduda da fərqlənməyə, seçilməyə başladı. Əvvəlcə Sovet-İran sərhədində qulluq etdi. Çünki o zaman belə bir ehtimal da vardı ki, almanlar Bakı neftinə görə İran tərəfdən hücum edə bilərlər. Bu sakitlik dövründə o bir topçu kimi hərbin sirlərini dərindən öyrəndi.

1942-ci ilin iyun ayında almanlar Şimali Qafqaza hücum edib Mozdok, İşşorovski, Budyonnu rayonlarını işğal etdilər. O zaman Surxay Qurbanovun qulluq etdiyi batalyon da Şimali Qafqaza, almanlarla ölüm-dirim mübarizəsinə göndərildi. İyun ayında Terek çayını keçəndən sonra qızğın döyüş meydanına düşdü. Tez-tez baş verən döyüşlərdə o öz şəxsi keyfiyyətləri və artıq qazandığı böyük təcrübə hesabına cəsur döyüşçü kimi fərqlənməyə başladı. Surxay Qurbanov 1943-cü ilin mart ayında 269-cu qvardiyaçı zenit topçu alayının tərkibində Novorossiyskə, "Kiçik torpaq" adı ilə məşhur olan döyüş zonasına göndərildi. Bu ölümlə üzüzə dayanmaq demək idi. Sentyabr ayındakı amansız döyüşlərin birində o, pulemyotu ilə vurub düşmən təyyarəsini saldı. Buna görə də "İgidliyə görə" medalı ilə təltif olundu.

Daha sonra Surxay Qurbanovun mübarizə meydanı Ukrayna cəbhələrində olmuşdur. Baş verən xeyli döyüşlərin biri haqda ayrıca danışmağa ehtiyac vardır. Bu döyüş 1944-cü ildə Çexoslovakiya sərhədində olub. 14 oktyabrda Surxay Qurbanov öz iki köməkçisi ilə alayın qərargahından 3 km aralıda ön xəttə idi. Qərargahın xəbəri olmadan düşmən xeyli sayda artıq qoşunla onlara qarşı hücuma keçmişdi. Onlar bir neçə saat döyüşməli oldular. Surxay Qurbanov və köməkçiləri, necə deyərlər, son patrona qədər vuruşdular. Onların pulemyotunun qalxanına, dəbilqələrinə dəyən düşmən gülləsinin sayı- hesabı yox idi. Son 50 patron qalanda qərara aldılar ki, əllərindəki qumbara ilə həm özlərini, həm də öz pulemyotlarını partlatsınlar. Buna hazırlaşdıqları zaman, taledən, arxadan kömək gəldi. Onlar düşməni qovdular. Məlum oldu ki, onun dəstəsi düşmənin 102 əsgərini və 4 pulemyotunu məhv edib. Bu görünməmiş bir qəhrəmanlıq idi. Buna görə Surxay Qurbanov Sovet İttifaqı Qəhrəmanı adı almağa təqdim edildi. Təəssüf ki, hansısa fitnəkarların (bəlkə yenə də ermənilərin) maneçiliyi üzündən ona bu ad verilmədi. Amma olduqca böyük əhəmiyyət daşıyan "Birinci dərəcəli Böyük Vətən müharibəsi" ordeni ilə təltif olundu. Qalxanında saysız-hesabsız güllənin izi olan pulemyotu isə "kiçik zabit Qurbanovun pulemyotu" qeydi ilə II Dünya müharibəsinin rəşadətini əks etdirən muzeyə göndərildi.

Onun həyatındakı ən əlamətdar döyüşlərdən biri də Karpatda, aprel ayında baş verdi. Surxay Qurbanov tərkibində olduğu vzvodun komandiri ilə, gecə vaxtı kəşfiyyata getdikləri zaman ayın solğun işığında görürlər ki, bir neçə əsgər səngər qazır. Düşündülər ki, özlərinin başqa hissədən olan döyüşçüləridir. Rus dilində səsləsələr də, cavab almadılar. Onlara yaxınlaşanda səngər qazanların hamısı səngərə tullandılar. Amma bir nəfər torpağın üstündə oturub siqaret çəkirdi. Onu rus dilində səslədilər. O isə cəld ayağa durub: "Əllər yuxarı, rus!", - deyə bağırdı və vzvod komandirinin üstünə atıldı. Surxay Qurbanov ona güllə ata bilmirdi ki, komandirinə dəyər. Ona görə də özü hər ikisinin üzərinə atıldı və onları birlikdə qolları arasında sıxmağa başladı. Bundan istifadə edən komandir canını qurtardı və arxaya qaçdı. Surxay Qurbanov atəş açmaq istəyəndə tapança açılmadı. Düşmənsə artıq ona güc gəlməyə başlamışdı. Bu zaman o tapançanın qundağı ilə vurub düşmənin başını partlatdı və öldürdü. O, əlbəyaxa döyüşdə qəhrəmanlıq göstərib, öz həyatını riskə qoyaraq komandirini xilas etdiyinə görə "Qırmızı ulduz" ordeni ilə təltif edildi. Cəbhədə olduğu müddət ərzində üç dəfə yaralansa da, yenə də mübarizəni davam etdirmişdir. Bir qəhrəman pulemyotçu kimi Ümumittifaq səviyyədə tanınmışdır.

O, öz elinə yalnız 1945-ci ilin avqust ayında qayıda bildi. Əvvəllər də camaatın böyük rəğbətini qazanmış, indi isə müharibədən sinəsində yüksək ranqlı orden medallarla qayıtmış Surxay Qurbanovu əhali həm də qəhrəman kimi qarşıladı. Yenə də, çox sevdiyi təhsil sahəsində çalışmağa başladı. Amma bir müddət sonra təhsil sahəsindən ayrılmalı oldu. Böyük ehtiyac olduğuna görə prokurorluq sistemində işə təyin etdilər. O, bu sahədə də öz qabiliyyətini, bacarığını göstərdi. Ümumittifaq Qiyabi Hüquq İnstitutunu da bitirdi. Artıq dünyanın, müharibənin dərsləri hesabına xeyli müdrikləşmiş Surxay Qurbanov tezliklə ciddi bir prokurorluq işçisi kimi tanındı və vəzifədə irəli çəkildi. Gəncə Vilayət Prokurorluğunda İstintaq şöbəsinin rəisi vəzifəsinə təyin edildi. Amma bir az sonra bu vəzifədən getdi.

Öz ruhu, qəlbi ilə maarif sisteminə bağlı olan Surxay Qurbanov Ağdam rayon Xalq Maarif Şöbəsinə müraciət etdi. Rayonda, camaat arasında nüfuzunu nəzərə alaraq onu inspektor vəzifəsinə götürdülər. 1957-ci ilə qədər bu vəzifədə işlədi. 1957-ci ilin avqust ayından ömrünün sonuna - 1977-ci ilə qədər Ağdamda 3 saylı məktəbin direktoru vəzifəsində çalışdı. Təhsil sahəsindəki uğurlu fəaliyyətinə görə "Əməkdar müəllim" və "Qabaqcıl maarif xadimi" adlarına layiq görüldü. Amma onun fəaliyyəti təkcə məktəb direktorluğu ilə məhdudlaşmamışdır. Surxay müəllim Ağdam ictimaiyyətinin ən nüfuzlu, hörmətli ağsaqqallarından biri kimi fərqlənmişdir. İstər dövlət siyasətinin həyata keçirilməsində, istərsə də camaatın xeyir-şər işlərində ən fəal insanlardan biri olmuşdur. Hər bir insanın yaxın dostu, məsləhətçisi olmuş, onlara əlindən gələn qədər kömək etmişdir.

Surxay müəllim, eyni zamanda, öz əxlaqi, mənəvi keyfiyyətləri ilə tanınan nümunəvi bir ailə başçısı olmuşdur. Atalarının adına layiq, onun nüfuzunu daha da yüksəldən 7 övladının hər biri vətəninə sədaqəti ilə seçilən, ölkəmizdə tanınan adlı-sanlı insanlar kimi yetişmişlər. Surxay Qurbanov 65 yaşında qəflətən vəfat etmişdir. Onun dəfni Ağdamda olduqca böyük izdihamla keçmişdir.

Belə insanlarımızı heç vaxt unuda bilmərik. Onları daima yad etməli və böyüyən yeni nəslə nümunə olaraq göstərməliyik.

*Əhməd QƏŞƏMOĞLU*

# İki müharibənin iştirakçısı

Yusifovlar ailəsi hər il 9 May - Qələbə Gününü böyük təntənə ilə qeyd edir. Nəslin fəxri olan qəhrəmanımız Əjdər Yusifov 1941-ci il iyunun 22-də başlanan Böyük Vətən müharibəsindən əvvəl atası Abas Hacıağa oğlu ilə birlikdə Fin müharibəsinin iştirakçısı olub. 1937-ci ildə Əjdər Bakıda Yasamal (keçmiş Oktyabr rayonu) Rayon Hərbi Komissarlığı tərəfindən əsgəri xidmətə çağırılanda ailəli idi, oğlu Arif iki yaşına yenicə qədəm qoymuşdu. Əjdər əsgəri borcunu Gürcüstanda yerinə yetirirdi. Bu zaman o, SSRİ Müdafiə Nazirliyinin əmrinə əsasən Fin müharibəsinə səfərbər olunur. Bundan xəbər tutan atası Abas kişi Gürcüstana gedir, təkidlə könüllü olaraq "...Mən də oğlumla müharibəyə gedəcəyəm, onu tək buraxa bilmərəm", - deyib cəbhəyə yollanır. Ata və oğul 1938-1939-cu illərdə bir səngərdə finlərə qarşı vuruşurlar.



Böyük Vətən müharibəsi başlayanda ata ilə oğulun yolları ayrılır. Yaşlı olduğu üçün Abas Hacıağa oğlu ordudan tərxis olunaraq Azərbaycana, ailəsinin yanına qayıdır. Əjdər Yusifov isə qəfildən SSRİ-yə hücum edən Hitler ordusuna qarşı döyüşlərə yollanır.

Ukrayna, Belorusiya, Moldaviya və Pribaltika respublikaları faşistlər tərəfindən zəbt edildikdən sonra düşmən "qara qızıl" mənbəyi olan Bakını tutmağa çalışırdı. Həmin ərəfədə Əjdər Yusifov 416-cı milli atıcı diviziyanın əsgəri idi. Xatirələrində yazır: "1942-ci ilin noyabrında Mozdok ətrafında Kopustino kəndində ilk sınaqdan çıxdıq. Ağır döyüşlərdən sonra 1943-cü il yanvarın 30-da Mozdok, onun ardınca Nalqin azad edildi. Həmin ilin yanvar-fevral aylarında Stavropol, Lvov, Rostov əhalisini əsarətdən azad etdik, Taqanroq şəhərinə doğru istiqamət götürdük. 1943-cü ilin avqustunda Taqanroq alman faşistlərindən azad olundu..."

Qarşıda çətin bir döyüş - Berlin əməliyyatı gözlənilirdi. Dəhşətli müharibənin taleyini də həmin əməliyyat müəyyənləşdirməli idi. Rota komandiri Əjdər Yusifovun pulemyotçular dəstəsinə "nəyin bahasına olursa-olsun Kustrin ətrafında yerləşən hərbi düşərgədəki əsirlərin azad olunmasına kömək etmək" tapşırılmışdı. Əvvəlcə piyadaların düşərgəyə maneəsiz hərəkəti təmin edilməli idi. Azərbaycanlı döyüşçü Əjdər özünə əlverişli mövqe seçib almanların əks-hücumunu soyuqqanlılıqla dəf edir... İşğalçılar geri çəkilmək məcburiyyətində qalırlar, əsirlər azad edilir. Lakin düşmən Kustrini əldən vermək istəmirdi. Hər küçə uğrunda şiddətli mübarizə gedirdi. Sovet ordusunun hücumuna tab gətirə bilməyən almanlar geri çəkilir, əsgərlərimizin tikdikləri panton körpülərini dağıdıb məhv edirdilər.

Çayda üzən maşınlardan istifadə etmək lazım gəlir. Diviziyanın çayın o biri sahilinə keçməsi üçün Əjdər minomyotçular və topçularla birlikdə rəhbərlik etdiyi pulemyotçular dəstəsini çayın kənarındakı dağın ətrafında yerləşdirir və onların çayı təhlükəsiz keçməsini təmin edir. Beləliklə, faşist yuvasına doğru gedən yoldakı əsas maneələrdən biri də aradan qaldırılır. Buna görə Ali Baş Komandanın 12 mart 1945-ci il tarixli əmri ilə Əjdər Yusifovun pulemyotçular dəstəsinə təşəkkür elan edilir, komandirə isə 1-ci dərəcəli "Vətən müharibəsi" ordeni verilir.

Ə.Yusifovun Vətən qarşısında xidmətləri yüksək qiymətləndirilmişdir. Sinəsini 1-ci və 2-ci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz", "Qırmızı Bayraq", "Varşavanın azad edilməsinə görə" ordenləri, "Berlinin azad edilməsinə görə" medalları və s. bəzəyirdi.

1946-cı ilin payızında müharibədən qəhrəman kimi geri dönən Əjdər Yusifov həm də gözəl ailə başçısı olmuşdur. Altı uşaq böyüdüb boya-başa çatdırmışdır. Onların içərisində ali təhsil alanı da var, texnikum bitirəni də. Bu tarixi gün ərəfəsində iki müharibənin iştirakçısı Əjdər Yusifovun qızı Nəzakət xanımla görüşdük. İqtisadçıdır, əmək fəaliyyətinə fəhləlikdən başlayıb, işləyə-işləyə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indi Azərbaycan Dövlət İqtisad Universiteti) Kənd təsərrüfatının planlaşdırılması fakültəsini bitirib. İstehsalatda çalışdığı 60 il ərzində dəfələrlə təşəkkür və fəxri fərmanla mükafatlandırılıb. Azərbaycan Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb, respublika Həmkarlar İttifaqları Konfederasiyasının 20 illik yubiley medalı ilə təltif olunub.

Nəzakət xanım atasının döyüş yolundan bəhs edən sənədləri, orden və medalları, fəxri fərman və təşəkkürnamələri, müharibədən sonrakı illərdə cəbhə yoldaşlarından aldığı məktubları və köhnə şəkilləri əziz xatirə kimi qoruyub saxlaya bilmişdir. Söhbət zamanı dedi:

- Atam Fin müharibəsindən başlayaraq 1945-ci il Böyük Vətən müharibəsindəki qələbəyədək böyük döyüş yolu keçib. Arxivini səliqə ilə qoruyub saxlayıram. Bu işlərdə mənə veteranlar təşkilatı yaxından dəstək olub. Mənim üçün əziz olan həm də odur ki, atam evdə - ailədə Ümummilli Lider Heydər Əliyevin müharibə iştirakçılarına, veteranlara qayğısından, dövlət rəhbərinin iştirakı ilə keçirilən görüşlərdən ürəkdolusu danışardı. Heydər Əliyev həqiqətən veteranların dostu və qayğıkeşi olmuşdu, ikinci dəfə hakimiyyətə gələndən sonra Azərbaycanda ilk dəfə olaraq 1994-cü il iyun ayının 28-də "Veteranlar haqqında" qanun imzalamışdı. Həmin sənəddə onların hüquqlarının qorunması, cəmiyyətdə rolu, göstərilən qayğı və s. məsələlər geniş əksini tapmışdır.

Veteranlara qayğı bu gün Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlət başçısının 24 aprel 2020-ci il tarixli "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" sərəncamı ailəmizdə böyük rəğbətlə qarşılanmışdır. Qürur hissi ilə deyə bilərəm ki, veteranların, o cümlədən bizim ailənin də bütün problemləri dövlət orqanları tərəfindən yüksək səviyyədə həll olunur. Veteran ailəsi kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin torpaqlarımızın erməni işğalçılarından azad edilməsi istiqamətində həyata keçirdiyi daxili və xarici siyasəti həmişə dəstəkləyirik. Bu çətin günlərdə Prezidentin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətəndaşlarımızın dünyanı başına götürən koronavirus epidemiyasından qorunması yolunda atdıqları qətiyyətli addımlar bizdə böyük məmnunluq doğurur.

Əjdər Yusifov müharibədən sonra əmək cəbhəsindəki xidmətlərinə görə də çoxlarına nümunə olmuşdur. İki cəbhənin döyüşçüsü üçüncü cəbhədə də ona göstərilən etimadı yüksək səviyyədə doğrultmuşdur. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, vətəndaşlıq və vəzifə borcunu layiqincə yerinə yetirmişdir. 1941-1945-ci illər Böyük Vətən müharibəsi və əmək cəbhəsinin qəhrəmanı kimi şərəfli ad qazanmış Əjdər Yusifov 1992-ci il iyunun 17-də dünyasını dəyişmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

**"Bakı Abadlıq Xidməti" MMC**

**Azərbaycan xalqını**




**Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi**

**münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq və firavan həyat arzulayır!**

# "Səngəçal" Elektrik Stansiyasının 30 faizdən çox "itirilmiş" gücü bərpa edildi

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, "Azərenerji" Bakı və Abşeron yarımadası da daxil olmaqla ölkə enerji-sistemində xüsusi rolu olan "Səngəçal" Elektrik Stansiyasında "itirilmiş" gücün bərpa edilməsi istiqamətində həyata keçirdiyi təmir-bərpa işlərini yekunlaşdırıb.**



Qeyd edək ki, 2018-ci ilin payızında qəbul edilən "Reabilitasiya Proqramı"na qədər "Səngəçal" Elektrik Stansiyasında mövcud 18 aqreqatdan 4 ədədi ümumiyyətlə işləmirdi, qalan 14 aqreqat isə kəsirlə işləyirdi. Məhz işləməyən 4 aqreqatdan biri yenisi ilə əvəz edilib, digər aqreqatların isə əsas ehtiyat hissələri xarici ölkələrdən gətirilərək dəyişdirilib və işə qoşulub. Nəticədə 100 meqavata qədər "itirilmiş" güc bərpa edilib. Bununla da qoyuluş gücü 300 meqavat olan "Səngəçal" Elektrik Stansiyasının üçdə biri qədər gücü bərpa olunub. Müqayisə üçün deyək ki, 100 meqavat güc orta hesabla respublikanın 4-5 rayonunun elektrik enerji tələbatına bərabərdir. "Azərenerji" 12 elektrik stansiyasında yenidənqurma, təmir və bərpa işləri aparır ki, həmin elektrik stansiyalarından 6-sı məhz "Səngəçal" kimi modul tipli elektrik stansiyalarıdır. Bugünə qədər həmin 6 modul tipli elektrik stansiyalarında ümumilikdə 250 meqavatdan artıq "itirilmiş" güc bərpa edilib. 2018-2021-ci illəri əhatə edən "Reabilitasiya Proqramı"na əsasən ümumilikdə 1000 meqavatdan artıq "itirilmiş" gücün bərpa edilməsi ilə yanaşı, etibarlılıq və dayanıqlığın təmin edilməsi qarşıya əsas məqsəd olaraq qoyulub.

# *Beynəlxalq Din Azadlığı üzrə ABŞ Komissiyasının riyakar hesabatı:* qərəzliliyin və ikiüzlülüyün yeni pandemiyası



**Amerika Birləşmiş Ştatları (ABŞ) hər il dünya ölkələrində dini durumla bağlı müxtəlif hesabatlar hazırlayır. Bu hesabatlardan biri də Beynəlxalq Din Azadlığı üzrə ABŞ Komissiyasının hesabatıdır. Ümumilikdə, hesabata 29 ölkə ilə bağlı məlumatlar daxil edilib.**

2020-ci ildə dərc olunmuş hesabata əvvəlki illərdə təqdim edilən hesabatlarla müqayisədə metodoloji baxımdan bir sıra yeniliklər əlavə olunub. Bütün bunları nəzərə alaraq hesabatla bağlı iki əsas məqamı - hesabatın metodologiyasında mövcud olan problemləri, eləcə də Azərbaycanın həmin hesabatda yer almasının qərəzli və ədalətsiz olduğunu oxuculara çatdırmaqdır.

Azərbaycan tərəfi 2019-cu ilin iyul ayında ilk dəfə olaraq ABŞ Dövlət Departamenti tərəfindən təşkil olunan Dini Azadlıqların İnkişaf Etdirilməsi üzrə Toplantıda iştirak edib. Toplantıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının iştirakı ilə Narahatlıq Bəyanatlarının (9 narahatlıq meyarı müəyyən edilib) 4-ü (Birma/Myanmaya dair bəyanat, İbadət yerlərinin qorunmasına dair bəyanat, Din və ya etiqada hörmətə dair bəyanat və Müxtəlif dinlərin nümayəndələrinin qeyri-dövlət aktorları, xüsusilə terrorist qruplaşmaları tərəfindən istismarına dair bəyanat) imzalanıb.

Hesabat bir sıra məqamlara görə, qərəzli və qeyri-şəffafdır. Bu məqamlardan biri ABŞ-la siyasi dialoqun zəif və ya heç olmamasının (bir çox hallarda "düşmən" elan olunan ölkələr) nəticəsində ölkələrlə bağlı məlumatların qərəzli verilməsi və ya verilməməsidir. Buna misal kimi hesabatda müsəlman ölkələrinin çoxluq təşkil etdiyini göstərmək olar. Halbuki İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslamofobiya ilə bağlı hesabatında müsəlmanlara qarşı təqiblərin hər keçən gün artdığını göstərən dinamikaya baxdıqda vəziyyətin tam fərqli mənzərəsini görürük. Sanki hesabatda göstərilməyə çalışılır ki, islam dini digər dinlərə qarşı repressiv mövqedədir. İkincisi, ancaq xristianlar daha çox təqibə məruz qalan kontingent kimi göstərilir. Bununla bağlı Din və ya Etiqad Azadlığı Qurbanlarının Siyahısına baxa bilərsiniz (Freedom of Religion or Belief Victims List). Üçüncüsü, prezidentə, konqresə və dövlət katibinə müvafiq tövsiyələr verən komissiya üzvlərinin bir çox hallarda hər hansısa dini təşkilatın rəhbərlərindən təyin edilməsidir ki, bu da öz növbəsində hesabatın obyektivliyini kölgə altına salır. Dördüncüsü, komissiya üzvlərinin ölkələrlə bağlı yazdığı rəylərin bir çox hallarda tam şəkildə qərəzli olmasıdır. Bunun da səbəbi ölkələr üzrə kurator olan komissiya üzvlərinin həmin ölkələrdə olmaması, yerlərdəki vəziyyəti tam bilməməsidir (baxmayaraq ki, ABŞ-ın həmin ölkələrdə fəaliyyət göstərən səfirliyi bu işdə kifayət qədər rol oynayır).

Buna misal kimi Azərbaycan nümunəsini göstərmək olar. Builki hesabatda ilk dəfə olaraq (ən azından 2017-2019-cu illərdəki hesabatlarda yox idi) Azərbaycana dair hissədə komissiya üzvünün şəxsi rəyi yer almışdır. Qeyd edək ki, Azərbaycanla bağlı xüsusi rəy yazan komissiya üzvü Coni Mur 2019-cu ildə ölkəmizdə səfərdə olmuşdur.

Azərbaycanın Beynəlxalq Din Azadlığı üzrə ABŞ Komissiyasının 2020-ci il hesabatına salınmasını qərəzli və ədalətsiz hesab edirik. Sözügedən komissiya tərəfindən din azadlığı üzrə hesabat hazırlanarkən iki beynəlxalq sənəd -Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt əsas götürülür.

Həmin sənədlərin müvafiq müddəalarına əsasən, dünya ölkələri üzrə dini etiqad azadlığının pozulması halları şərh edilir və hesabata daxil olunur. Ancaq bir çox hallarda sözügedən sənədlərin müddəalarının pozulmasının müşahidə olunduğu bir sıra ölkələr, məsələn, Fransa, Gürcüstan və Ermənistan kimi ölkələr belə hesabatlarda yer almır. Bu baxımdan Azərbaycanla həmin hesabata daxil edilməyən region ölkələrinin dini etiqad azadlığı ilə bağlı durumunu aşağıdakı kimi müqayisə edək:

Azərbaycan dövlət səviyyəsində hər hansı dinə xüsusi imtiyaz verməyib, məsələn, dövlət dini kimi elan etməyib. Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycan dünyəvi dövlətdir və bütün dinlər bərabərdir;

Ölkəmiz regionda və beynəlxalq arenada istər dinlərarası, istərsə də mədəniyyətlərarası dialoqun təşviqi və gücləndirilməsi sahəsində təşəbbüskar dövlət kimi tanınır və qəbul edilir;

Azərbaycanda fəaliyyət göstərən bütün dini icmalar sərbəst və rahat şəkildə öz etiqadını yaşayır və dövlət onların maddi-texniki bazasının gücləndirilməsi üçün hər il maliyyə yardımı ayırır;

Ölkəmizdə müxtəlif dinlərin nümayəndələri dini simvollarla (Kippa, niqab, çadra, baş örtüyü, xaç və s.) rahat şəkildə küçədə gəzirlər;

Dövlət-din münasibətləri qarşılıqlı dialoq şəraitində inkişaf etdirilir. Buna misal kimi dövlətin müvafiq institusional bazasını (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu və s.) göstərə bilərik ki, dövlət bu strukturlar vasitəsilə daim həmin kontingentlə dialoq qurur və onların problemlərini həll edir.

Siyahını uzatmaq da olar. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan sözügedən hesabata dini etiqad azadlığının pozulduğu ölkə kimi salınır. Bunun əksinə olaraq region ölkələrindən Ermənistan və Gürcüstan həmin siyahıda yer almır.

Baxmayaraq ki, adı çəkilən hər iki ölkədə dövlət tərəfindən elan edilmiş rəsmi din var. Bu da öz növbəsində həmin ölkələrdə yaşayan digər dinin təmsilçilərinin, əsasən qeyri-xristianların (xristianların) hüquqlarının pozulması deməkdir. Çünki rəsmi şəkildə tanınmış dövlət dininə xüsusi imtiyazlar verir. Məsələn, orta məktəblərdə həmin dinin məcburi şəkildə keçirilməsi buna nümunədir (bu nümunə daha çox Ermənistana xasdır). Dövlət səviyyəsində dini kimliyi daha çox qabardaraq digər azlıqlara qarşı ayrı-seçkiliyi təşviq etmiş olur.

Ermənistanda dini icmaların qeydiyyatdan keçməsi üçün yetkinlik yaşına çatmış 200 nəfər vətəndaş tələb olunur. Bu da öz növbəsində davamçıları 200 nəfərdən az olan dini nümayəndələrin rəsmi şəkildə qeydiyyatdan keçməməsi deməkdir (Azərbaycanda 50 nəfər tələb olunduğu halda). Dövlət rəsmi şəkildə dövlət dini elan edilmiş dinə tam dəstək verir və ancaq həmin dini icmalarla dialoq qurur. Baxmayaraq ki, mövcud institusional baza - müvafiq dövlət orqanları ancaq qeyri-dövlət dini icmalarla dialoqda maraqlı deyil, ən çox azlıq dini nümayəndələri dövlət tərəfindən təqib olunur.

Bu kimi faktların siyahısını uzatmaq olar. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın bu hesabata salınması qərəzli və ədalətsizdir. Eyni zamanda qeyd olunur ki, hesabata salınmayan və dini etiqad azadlığının pozulduğu ölkələr də mövcuddur. Sadəcə sual doğuran məqam ondan ibarətdir ki, niyə həmin ölkələr hesabata daxil edilmir?!

***Rəfi QURBANOV,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini***

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Araz çayı üzərindəki tikintiyə münasibət bildirib

*"Azərbaycanla İran arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" su qovşaqlarının və su elektrik stansiyalarının tikintisi məsələsi ilə əlaqədar bildirmək istəyirəm ki, yuxarıda qeyd olunan hər iki su qovşaqları ilə bağlı məsələ İran və Azərbaycan arasında imzalanmış beynəlxalq sazişə əsasən ən yüksək səviyyədə tənzimlənir.*

*Qeyd etdiyim sazişdə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü bir daha çox dəqiq şəkildə öz təsdiqini tapmışdır. Sənəddə su qovşaqları və su elektrik stansiyalarında su və enerji ehtiyatlarının qorunmasının və istismarının hər hansı üçüncü ölkənin fiziki və hüquqi şəxslərinə verilməsi qadağan edilmişdir. Bu isə o deməkdir ki, hər iki su qovşağından və su elektrik stansiyasından istifadə yalnız İran İslam Respublikasına və Azərbaycan Respublikasına məxsusdur".*

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev bildirib.

Tural Gəncəliyev deyib: "Yuxarıda qeyd edilən məqamlarla yanaşı, hazırkı dövlət sərhəd xətti su qovşaqları su ilə doldurulduqda suyun səthində müəyyən ediləcək, nişanlanacaq və Azərbaycan-İran arasında dövlət sərhədini təşkil edəcək. Bu detallarla həmin sazişin mətnini internetdən taparaq hər bir şəxs tanış ola bilər.

Əgər daha öncəki dövrlərə nəzər salsaq görərik ki, 1992-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tapşırığı əsasında ekspert bu su qovşaqları ilə bağlı texniki vəziyyətin qənaətbəxş olmaması səbəbindən təkmilləşdirmə işlərinə dair layihələr işləyib hazırlayıb. Lakin təəssüflə qeyd edirik ki, Qarabağ müharibəsi nəticəsində Azərbaycan torpaqlarının Ermənistan qoşunları tərəfindən işğalından sonra Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bu istiqamətdə əməkdaşlıq dayandırılıb. Sonrakı dövrlər ərzində "Xudafərin" və "Qız qalası" su qovşaqlarının və su elektrik stansiyalarının tikintisi yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

2016-cı ilin fevralında isə Azərbaycan Respublikası və İran İslam Respublikası hökumətləri arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" su qovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb və Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə hörmət bu sazişdə ən yüksək səviyyədə əks olunub.

Xüsusi olaraq vurğulamaq istəyirəm ki, 2016-cı ilin fevral ayında imzalanmış həmin saziş Azərbaycan Respublikasının ərazi bütövlüyünü təsdiqləyir və İran-Azərbaycan əlaqələrinin hüquqi əsaslarını təşkil edən beynəlxalq sazişlərdən biridir. Əlbəttə ki, bu, Azərbaycan Respublikasının maraqlarına tam cavab verir və dövlətimizin işğal olunmuş əraziləri üzərində suveren hüquqlarını və yurisdiksiyasını bir daha təsdiq edir".

# Dövlət qayğısı Ağdam kəndlisinin gücünə güc qatır

**Prezident İlham Əliyevin cəbhə bölgələrinə xüsusi qayğı və diqqəti ərazisinin dörddə üç hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Ağdam rayonunda da böyük razılıq və minnətdarlıq doğurur. Rayon ərazisində yeni salınan çoxsaylı yaşayış qəsəbələri, yaradılan sosial infrastruktur məcburi köçkün kimi ölkənin bütün bölgələrinə səpələnmiş ağdamlıların kütləvi şəkildə doğma yurda dönüşündə mühüm amilə çevrilmişdir.**





İndi Ağdam rayonu ərazisində yaşayanların sayı 90 min nəfərdən çoxdur. Bu qədər əhalinin əsas iş yeri, dolanışıq mənbəyi isə torpaqdır. Mənfur qonşularımızın işğalçılıq siyasəti hesabına şəhər və kəndlərlə yanaşı, əkinə yararlı xeyli torpaq sahələri, təbii su mənbələrini də itirmişik. Rayonumuzun aqrar sektorunda yaranan real vəziyyət bizdən onu tələb edir ki, istifadəmizdə olan əkin sahələrinin hər qarışından daha səmərəli istifadə edərək yüksək əmək məhsuldarlığına nail olaq. Rayonumuzda dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən kompleks təşkilat-təsərrüfat tədbirlərinin nəticəsi fərəhlidir.

2019-cu ildə rayon üzrə əkin dövriyyəsi 30801 hektar olmuşdur. Keçən il 55530 ton taxıl istehsal edilmiş, hər hektarın orta məhsuldarlığı 38,4 sentnerə yüksəlmişdir. Müxtəlif çətinliklərə baxmayaraq, pambıqçılarımız da uğurlu nəticələr qazanmışlar. 2600 hektar sahədə yüksək aqrotexniki qaydalar əsasında pambıq əkib-becərən pambıqçılarımız 7315 ton məhsul tədarük etmişlər. Hər hektar pambıq sahəsinin orta məhsuldarlığı 28,1 sentner olmuşdur ki, bu da respublikanın pambıqçılıqla məşğul olan rayonları arasında qazanılan yüksək göstəricilərdən sayılır. Həmçinin keçən il 15441 ton bostan və tərəvəz məhsulları, 6025 ton kartof, 4203 ton meyvə və giləmeyvə istehsal olunmuşdur.

Rayonda gəlirli sahə olan baramaçılığın inkişafına da xüsusi fikir verilir. 2019-cu ildə 525 qutu ipək qurdu bəsləyən kümçülərimiz 16869 kiloqram barama təhvil vermişlər. Ənənəvi kənd təsərrüfatı sahəsi olan baramaçılığı inkişaf etdirməkdən ötrü ipək qurdları üçün etibarlı yem bazası yaratmaq da diqqət mərkəzindədir. Son illər Çin Xalq Respublikasından gətirilmiş yüksək məhsuldarlığa malik tut tinglərindən və yerli sortlardan ibarət çəkilliklər salınmışdır. Artıq kümçülərin qayğılı günləri başlamışdır. Bu ilin məhsulu üçün təsərrüfatlara 550 qutu ipək qurdu paylanmışdır. Əvvəlcədən dezinfeksiya edilib cari mövsümə hazırlanmış kümxanalarda ipək qurdlarına qulluq göstərilir.

Rayonumuzun təsərrüfatlarında heyvandarlıq əsas sahələrdən birini təşkil edir. Bu vacib sahənin inkişafı üçün həyata keçirilən tədbirlər fərəhli nəticələr verir. Mal-qaqanın sayı da, heyvandarlıq məhsullarının istehsalı da ildən-ilə artmaqdadır. Keçən ilin yekunlarına görə, rayon üzrə qara malın sayı 41634, qoyun-keçinin sayı 104940, quşların sayı isə 249344 başa çatmışdır. Heyvandarlığın cins tərkibini yaxşılaşdırmaq üçün məqsədyönlü tədbirlər görülür.

2019-cu təsərrüfat ilində lizinq yolu ilə 57 nəfər fiziki şəxsə güzəştli qiymətlərlə 203 baş yüksək məhsuldarlığa malik ətlik və südlük heyvanlar satılmışdır.

Dövlətin davamlı qayğısı Ağdam kəndlisinin gücünə güc qatır, taleyini torpağa, halal zəhmətə bağlayan, bolluq, bərəkət həvəsli kənd əməkçilərini nailiyyətlərini daha da artırmağa ruhlandırır. Ərzaq bolluğu yaratmağa çalışan rayonun məhsul istehsalçılarına keçən ilin yekunlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 2 milyon 459 min 845 manat məbləğində subsidiya ödənilmişdir. Bunun kəndli əməyinin stimullaşdırılmasında əhəmiyyətli rolu minnətdarlıqla qeyd edilməlidir. Azərbaycan Prezidentinin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 27 iyun 2019-cu il tarixli fərmanına uyğun olaraq, cari il yanvarın 1-də fermerlərə subsidiyalar yeni qaydalar əsasında verilir. Subsidiyaların ödənilməsi üçün sənədlər elektron sistem üzərindən yığılır ki, bu da şəffaflığı, aşkarlığı təmin etməklə süni maneələri, kənar müdaxiləni aradan qaldırır. İndiyədək rayon üzrə 8906 nəfər kənd təsərrüfatı məhsulları istehsalçlısı elektron qaydada qeydə alınmışdır.

Bu günlər rayonda yaz-tarla işlərinin qızğın çağıdır. Cari ilin məhsul bolluğuna etibarlı bünövrə qoymaq üçün Ağdam kəndlisi zərbəçi əmək nümunəsi göstərir.

***Ramal MƏMMƏDOV,***
***Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor əvəzi***

## “Regional” BOKT Məhdud Məsuliyyətli Cəmiyyəti

### MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT

| *31 dekabr 2019-cu il tarixinə* | Qeyd | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|---|
| | | | *Azərbaycan Manatı ilə* |
| AKTİVLƏR | | | |
| Əsas vəsaitlər | 7 | - | 2 940 |
| Qeyri-maddi aktivlər | 8 | 31 098 | 34 526 |
| Uzunmüddətli maliyyə aktivləri | 9 | - | - |
| Müştərilərə verilmiş kreditlər | 10 | 177 835 | 14 874 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 111 137 | 108 779 |
| Banklarda yerləşdirilmiş depozitlər | 13 | - | 82 820 |
| Digər aktivlər | 11 | 4 863 | 4 863 |
| **CƏMİ AKTİVLƏR** | | **324 933** | **248 802** |
| KAPİTAL | | | |
| Səhmdar (nizamnamə) kapitalı | 17 | 300 000 | 300 000 |
| Kapital ehtiyatları | 18 | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (66 281) | (51 198) |
| **CƏMİ KAPİTAL** | | **233 719** | **248 802** |
| ÖHDƏLİKLƏR | | | |
| Maliyyə sektoru qarşısında öhdəliklər | 14 | - | - |
| Cari mənfəət vergisi üzrə öhdəliklər | 15 | - | - |
| Digər öhdəliklər | 16 | 91 214 | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **91 214** | **-** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **324 933** | **248 802** |

Cahangirzadə Emil Filman oğlu
*Direktor*

28 aprel 2020-ci il

Həmzəyev Mobil Pərvanə oğlu
*Baş mühasib*

28 aprel 2020-ci il

## “Regional” BOKT Məhdud Məsuliyyətli Cəmiyyəti

### *MƏCMU GƏLİRLƏRƏ DAİR HESABAT (MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI)*

| *31 dekabr 2019-cu il tarixinə* | Qeyd | 2019 | 2018 |
|---|---|---|---|
| | | | *Azərbaycan Manatı ilə* |
| Faiz gəlirləri | 19 | 12 841 | 19 460 |
| Faiz xərcləri | 20 | - | - |
| **Xalis faiz gəlirləri** | | **12 841** | **19 460** |
| Digər əməliyyat gəlirləri | 21 | 8 904 | 160 |
| Digər əməliyyat xərcləri | 22 | (36 828) | (81 777) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **(15 083)** | **(62 157)** |
| Mənfəət vergisi xərci | 23 | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(15 083)** | **(62 157)** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Təsisçilərin payı | | **(15 083)** | **(62 157)** |

Cahangirzadə Emil Filman oğlu
*Direktor*

28 aprel 2020-ci il

Həmzəyev Mobil Pərvanə oğlu
*Baş mühasib*

28 aprel 2020-ci il

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları şirkətin 31 dekabr 2019-cu il tarixə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***“ANR Audit” MMC-nin direktor-auditoru***
***Abbaslı Namiq Rasim oğlu***

***Bakı şəhəri, Azərbaycan Respublikası***
***28 aprel 2020-ci il***

## ABŞ-ın Con Batçelor Şou radio proqramında Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə danışılıb

ABŞ-ın Con Batçelor Şou radio proqramında Corctaun Universitetinin professoru, enerji sahəsində tanınmış mütəxəssis Brenda Şaffer və Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanovla müsahibə yayımlanıb. Şuşanın işğalının ildönümü ərəfəsində baş tutmuş müsahibədə jurnalist C.Batçelor Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə bir daha diqqət çəkib, regiondakı vəziyyət, koronavirus pandemiyası dövründə üzləşilən çətinliklər barədə müsahiblərinə suallar verib.

C.Batçelor Bakıda olduğu müddətdə ölkəmizdə gedən inkişaf və aparılan genişmiqyaslı islahatların şahidi olduğunu və Azərbaycanın pandemiya ilə mübarizəyə kifayət qədər hazır olduğunu bildirib.

Səfir Elin Süleymanov dünya bazarında neftin qiymətinin düşməsinin Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərdiyini, lakin Azərbaycan hökuməti tərəfindən neftdən asılılığın azaldılması və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm islahatlar həyata keçirildiyini vurğulayıb.

Səfir Ermənistanın işğalçılıq siyasətinin Azərbaycan ərazisinin 20 faizinin işğalı və 1 milyon vətəndaşının məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olmaqla yanaşı, regional inteqrasiya və inkişafa da mane olduğunu bildirib. O, Ermənistan rəhbərliyinin hazırda işğalçı və şovinist siyasətini davam etdirərək yalnız Azərbaycana və regiona deyil, hətta öz xalqının gələcəyinə də böyük zərbələr vurduğunu diqqətə çatdırıb. Diplomat böyük potensiala malik Cənubi Qafqaz regionunun sülh olacağı təqdirdə daha da çiçəklənəcəyini, regionun digər ölkələri ilə yanaşı, bundan erməni xalqının da faydalanacağını qeyd edib.

B.Şaffer münaqişənin həlli istiqamətində gedən danışıqlar fonunda Ermənistanın və ermənilərin təxribatçı əməllərinin yolverilməzliyini, bunun yalnız sülhə mane olduğunu qeyd edib. O, ABŞ-da yaşayan ermənilərin veb-saytlar və sosial şəbəkələr vasitəsilə müxtəlif təxribatlara yol ataraq xalqların sülhə hazırlanmasına mane olduğunu bildirib. Professor qeyd edib ki, erməni lobbisi regionda sülhün bərqərar olmasını istəmir.

Sonda C.Batçelor Azərbaycan xalqına erməni təxribatlarının qurbanı olmuş şəhidlərimizə görə başsağlığı verib.

Müsahibənin tam versiyası ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq olar:

https://audioboom.com/posts/7576111-azerbaiyan-weathers-the-energy-decline-while-waiting-for-peace-in-the-occupied-nagorno-karabakh.


## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

### *tender elan edir*

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri, Az 1022, S. Vurğun küçəsi, 135**

- Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatına təsərrüfat mallarının satın alınması.

**İştirak haqqı: 100 manat**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tenderdə iştirak haqqı Portalda asan pay sistemi ilə ödənilməlidir.**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı verilməlidir və təminat tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini Portal vasitəsilə Portalda təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri elektron Portalda təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### *kotirovka sorğusu elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün elektrik mallarının satın alınması.

Kotirovka sorğusu üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 02 iyun 2020-ci il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 03 iyun 2020-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elnur Musayev, telefon - 493-11-22 (daxili 490).

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 14 aprel 2020-ci il tarixli nömrəsində dərc edilmiş “Azərsu” ASC-nin daxili vəsaiti hesabına yüksəktəzyiqli şlanq başlıqlarının satın alınması məqsədilə keçirilən tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 27 may 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 29 may 2020-ci il saat 18:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412431-47-67(2246).

***Tender komissiyası***


## Afrikada 190 milyon nəfərədək adam COVID-19-un qurbanı ola bilər



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Afrikada 83 milyondan 190 milyon nəfərədək adamın koronavirus infeksiyasının qurbanı ola biləcəyindən ehtiyatlanır. Bu barədə “Almandalğası” radiostansiyası xəbər verir.

ÜST-ün Afrika ölkələri üzrə regional bürosunun direktoru Matşidiso Moeti qeyd etmişdir ki, çox güman COVID-19 planetin digər regionlarında olduğu kimi bu qitədə də geniş yayılmayacaq, amma epidemiya hələ bir neçə il ayrı-ayrı ocaqlarda qalacaq. ÜST-ün proqnozunna görə, ilk ildə 44 milyon nəfərədək afrikalı koronavirusa yoluxa bilər. Qitənin bir çox ölkələrində səhiyyə sistemi çoxsaylı yoluxma hallarının öhdəsindən gələ bilməyəcək. Afrikanın 47 ölkəsində hər 1 milyon nəfərə cəmi 9 reanimasiya çarpayısı düşür.

# Beynəlxalq aləm

## Şimali Koreyaya humanitar yardım üçün BMT-nin 146,7 milyon dollara ehtiyacı var

Birləşmiş Millətlər Təşkilatının (BMT) Koreya Xalq Demokratik Respublikasına (KXDR) humanitar yardımlar, o cümlədən yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə üçün 146,7 milyon ABŞ dollarına ehtiyacı var.

Yonhap agentliyi xəbər verir ki, bu barədə BMT-nin humanitar məsələlərin əlaqələndirilməsi ofisi məlumat yayıb. Bildirilir ki, 39,7 milyon dollar Şimali Koreyada COVID-19 infeksiyasının yayılması ilə mübarizəyə, qalan 107 milyon dollar isə digər istiqamətlərdə humanitar yardım üçün lazımdır.

KXDR ölkədə yeni növ koronavirusa yoluxma baş vermədiyini açıqlasa da, müşahidəçilər bu məlumatın doğru olmaya biləcəyini, ona görə də Şimali Koreyaya virusla mübarizə üçün yardım gərəkliyini bildirirlər.

## Gürcüstan Ukraynadakı səfirini geri çağırdı



Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilinin Ukraynada islahatlar üzrə icraiyyə komitəsinin rəhbəri təyin edilməsi Tbilisidə sərt mənfi reaksiya doğurmuşdur.

Gürcüstanın Xarici İşlər naziri David Zalkaliani bildirmişdir ki, ölkənin Kiyevdəki səfiri Teymuraz Şaraşenidze məsləhətləşmələr aparmaq üçün geri çağırılmışdır.

Bir neçə gün əvvəl Ukrayna Prezidenti Vladimir Zelenski Gürcüstanın eks-prezidenti və Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvilini islahat komitəsinin rəhbəri təyin etmişdir.

## Əfqanıstanın Səhiyyə naziri koronavirusa yoluxdu



Əfqanıstanın Səhiyyə naziri Firuzuddin Firuz yeni tip koronavirusa yoluxmuşdur.

Bu barədə Səhiyyə nazirliyinin mətbuat katibi Vahid Məyar məlumat vermişdir. Məyarın dediyinə görə, nazir bir neçə gündür karantindədir, vəziyyəti qənaətbəxşdir.

Mətbuat katibi əlavə etmişdir ki, 256 tibb işçisində koronavirus aşkarlanmışdır. Ölkədə COVID-19-a yoluxanların sayı 3563-ə, ölənlərin sayı 106-ya çatmışdır.

Koronavirusun yayılması ilə əlaqədar təhsil müəssisələri bağlanmış, bayram və idman tədbirləri ləğv edilmişdir. İş qrafiki 8 saatdan 5 saata endirilmişdir.

## BMT pandemiyanın ikinci dalğasının qarşısını almağın yolunu tapdı



Koronavirus pandemiyasının ikinci dalğasının qarşısını almaq üçün indi onun yoxsul ölkələrdə yayılmasını dayandırmaq lazımdır. Bu bəyanatla BMT Baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukok çıxış etmişdir.

Loukok vurğulamışdır ki, ABŞ və Avropa yoxsul ölkələrə kömək etməsə, dünya koronavirus infeksiyasının yeni zərbəsi ilə üzləşəcək, virus bumeranq kimi ABŞ, Avropa və digər Qərb ölkələrinə qayıdacaq. O, xəbərdarlıq etmişdir ki, indi heç bir tədbir görülməsə, sonralar münaqişələrin, aclıq və yoxsulluğun əhəmiyyətli dərəcədə artmasına hazır olmaq lazım gələcək.

Bundan əvvəl BMT bəyan etmişdi ki, dünyanın 37 yoxsul ölkəsinə koronavirusla mübarizədə kömək etmək üçün 1 milyard dollar pul toplamışdır.

## DTX Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin çoxsaylı qanunazidd əməllərə yol verməmələri ilə bağlı əməliyyat-istintaq tədbirləri həyata keçirir

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol verməməri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadla xəbər verir ki, aparılan araşdırmalar, cinayət törətməkdə şübhəli bilinən şəxslər və törədilmiş cinayət əməlləri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

## “Jalal-İ” tədris mərkəzinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı cinayət işi başlanıb

Azərbaycanda iqtisadiyyatın uğurlu inkişafının təmin edilməsi məqsədilə qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətliliyinin, kiçik və orta biznesin stimullaşdırılması istiqamətində kompleks, siyasi və sosial tədbirlər həyata keçirilir. Bununla belə bəzi sahibkarların vergi və sosial sığorta ödənişlərindən yayınmaları nəticəsində iqtisadiyyatın inkişafına kölgə sala biləcək korrupsiya və rüşvətxorluq kimi mənfi amillərə, müxtəlif sahələrdə əhalini narahat edən korrupsiya hüquqpozmalarına və onları törətmiş vəzifəli şəxslərə qarşı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən ardıcıl və təxirəsalınmaz tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, “Jalal-İ” tədris mərkəzinin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərinə dair Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş müraciət yoxlanılıb.

Araşdırmalarla tədris mərkəzinin vergi orqanlarında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmamasına, mərkəzin direktoru Cəlal Məhərrəmovun hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs kimi vergi orqanlarında dövlət qeydiyyatından keçməklə həmin tədris mərkəzinin fəaliyyətini təşkil etməsinə, 12 repetitor müəllimlə hər birinə 250 manat məbləğində aylıq əməkhaqqı təyin olunmaqla əmək müqaviləsi bağlamasına əsaslı şübhələr müəyyən edilib.

İstintaqla, həmçinin mərkəzdə təhsil alan tələbələrin təhsil haqlarını nağd qaydada ödəməsinə, müəllim və digər işçilərin əməkhaqlarını C.Məhərrəmovun 2018-2020-ci illər üzrə qeydiyyat jurnallarına imza etməklə nağd qaydada götürmələrinə şübhələr üçün əsaslar müəyyən olunub.

Prokurorluq əməkdaşları tərəfindən mərkəzə məxsus baş ofisdə və filiallarda, habelə C.Məhərrəmovun avtomobilində və yaşayış yerində axtarış aparılıb, mərkəzin fəaliyyəti ilə əlaqədar sənədlər, pul vəsaitlərinin qəbul edilməsi və verilməsi haqqında jurnallar, mühasibatlıq sənədləri və texniki vasitələr aşkar edilərək götürülüb.

Toplanmış materiallarda C.Məhərrəmovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək işə qəbul etdiyi müəllimlər və digər işçilərlə əmək müqaviləsi bağlamamasına, tələbələr tərəfindən ödənilən təhsil haqlarını bank vasitəsilə deyil, nağd qaydada qəbul edərək vergi və sosial sığorta ödənişlərindən yayındırılmasına şübhələr üçün əsaslar müəyyən edildiyindən faktla bağlı Cinayət Məcəlləsinin 162-1.1-ci (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. Hazırda iş üzrə bütün halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyən olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlar İttifaqının İdarə Heyəti respublikanın Əməkdar memarı, Memarlar İttifaqının İdarə Heyətinin üzvü Qarber Aleksandr Aronoviçə qayınanası

**LYUDMİLA İVANOVNANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7552
Sifariş 1191
Qiyməti 40 qəpik